RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 1 (10021) 6 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciəti



Əziz həmvətənlər!

2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir. Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcəkdir.

Bu il biz şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etmişik. Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Bu il Zəfərimizin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando Qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda, biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik. Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq. Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır.

Bu gün isə bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur. Biz beynəlxalq mövqelərimizi böyük dərəcədə möhkəmləndirə bildik. Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq aktorları Azərbaycanla əməkdaşlıq etmək üçün müxtəlif təkliflər irəli sürürlər. Bizim xarici siyasətimiz çoxşaxəlidir, bu siyasət bir çox istiqamətlər üzrə uğurla aparılır. Biz bu il D-8 beynəlxalq təşkilatına üzv olduq. Onu da bildirməliyəm ki, 8 böyük müsəlman ölkəsini birləşdirən və 30 ilə yaxın fəaliyyət göstərən bu təşkilatın ilk yeni üzvü məhz Azərbaycan olmuşdur. Yəni bu ölkələr tərəfindən bizə göstərilən hörmət və etimad göz qabağındadır. Biz bu il Orta Asiya ölkələrinin Məşvərət Şurasının tamhüquqlu üzvü seçildik. Hesab edirəm ki, bu da tarixi nailiyyətdir. Çünki coğrafi nöqteyi-nəzərdən biz Cənubi Qafqazda yerləşirik. Ancaq Orta Asiya ölkələrinin Məşvərət Şurasına yekdilliklə tamhüquqlu üzv seçilməyimiz bizim həm bu ölkələrlə səmimi münasibətlərimizdən xəbər verir, həm də ki, Azərbaycanın bu gün nə qədər önəmli ölkə olduğunu əyani şəkildə göstərir.

Bu il ölkəmizdə bir çox mötəbər beynəlxalq tədbir keçirilmişdir. Bunların arasında işğaldan azad edilmiş Xankəndidə ECO-nun Zirvə Görüşünü xüsusilə qeyd etməliyəm. Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşü də bizim ailəmiz olan türk dünyasının birləşməsi istiqamətində bir daha önəmli addım olmuşdur. Bir çox beynəlxalq təşkilatlarla sıx əlaqələrimiz bizim maraqlarımıza uyğundur. Biz hər zaman bərabərhüquqlu tərəfdaşlığın tərəfdarı olmuşuq. Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın, kimsə bizə nəyisə diktə etsin, kimsə bizə yuxarıdan aşağı baxsın. Biz müqavimət göstərmişik, biz ciddi iradəmizi ortaya qoymuşuq, heç kimin qarşısında baş əyməmişik, heç kimə imkan verməmişik və verməyəcəyik ki, bizim işimizə qarışsın. Tədricən hər kəs görür ki, belə cəhdlərin sayı da kəskin azaldı. Çünki bunun heç bir mənası yoxdur. Bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz.

İqtisadi inkişafa gəldikdə, biz bu il əldə olunmuş uğurlarla fəxr edə bilərik. Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb - 80 milyard dollardan artıqdır. Bizim xarici borcumuz daha da aşağı düşüb, bu gün ümumdaxili məhsulumuzun cəmi 6,3 faizini təşkil edir. Bir halda ki, bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faizdir, ondan da çoxdur. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir və təsadüfi deyil ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın kredit reytinqini qaldırıblar - investisiya reytinqini müsbət reytinq səviyyəsinə qaldırıblar.

Biz "Böyük qayıdış" proqramını uğurla icra edirik və işğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır.

Bu gün, eyni zamanda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu münasibətlə dünyada yaşayan bütün azərbaycanlıları ürəkdən təbrik etmək istəyirəm. Onlar bilməlidirlər və bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti dayanıb. 2025-ci ildə olan bəzi hadisələr bir daha göstərdi ki, hansı ölkədə yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının taleyi bizim üçün qiymətlidir, önəmlidir və bizi - azərbaycanlıları ortaq tarix, dilimiz, köklərimiz, mədəniyyətimiz birləşdirir. Azərbaycanlılar hansı ölkədə yaşamalarından asılı olmayaraq, bilirlər və bilməlidirlər ki, onların Ana Vətəni müstəqil Azərbaycan dövlətidir.

Əziz həmvətənlər, mən sizi bir daha Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə ürəkdən təbrik etmək istəyirəm, Yeni il bayramı münasibətilə təbrik etmək istəyirəm. Dünyada yaşayan bütün azərbaycanlılara, Azərbaycan vətəndaşlarına sülh, əmin-amanlıq, xoşbəxtlik arzulayıram. Bayramınız mübarək olsun!



# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

2-6

## Birinci vitse-prezident Mehriban Əliyeva Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə bağlı paylaşım edib





## Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva 2026-cı ilin ilk günü ilə bağlı paylaşım edib




## İlham Əliyev Donald Tramp tərəfindən 907-ci düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirir

### Azərbaycan Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 4-də ABŞ nümayəndə heyətini qəbul edib.

7



# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib



*Əvvəli 1-ci səh.*

REAL Televiziyasından **Mirşahin AĞAYEV:** ***Hər vaxtınız xeyir, cənab Prezident. Sizə bugünkü görüşə görə təkcə müsahibədə iştirak edən həmkarlarımız adından deyil, bütün Azərbaycan mediası adından təşəkkürümüzü bildiririk.***

**Prezident İlham ƏLİYEV:** Sağ olun!

**Mirşahin AĞAYEV:** ***İnanırıq ki, həmişə olduğu kimi, bugünkü görüşdə də səsləndirdiyiniz fikirlər strateji gündəm yaradacaq və Azərbaycan mətbuatına, ictimai mühitə kifayət qədər mövzu verəcək.***

***2025-ci il masadakı nailiyyətlərinə görə, məncə, illərin 8 Noyabrı adlandırıla bilər və zirvə də yəqin ki, avqust ayında Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona tarixi səfərinizdir və heç şübhəsiz ki, BMT Baş Assambleyasındakı müraciətinizdir. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında imzalanmış sənədlər, əldə olunmuş razılaşmalar nəinki Azərbaycan, bütöv region üçün əhəmiyyətlidir. Mən bu baxımdan istərdim ki, həm BMT-nin ali tribunasından dünyaya səslənişiniz barədə danışaq, həm də Amerika Birləşmiş Ştatları ilə imzalanmış sənədlər haqqında. Beləliklə, 8 avqustun Ağ Ev və 21 sentyabrın BMT günləri barədə, buyurun.***

**Prezident İlham ƏLİYEV:** Sağ olun. Bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. Hər ilin əvvəlində görüşərək Azərbaycan ictimaiyyətinə sizin vasitənizlə ilin yekunları ilə bağlı həm məlumat verilir, həm də ki, öz fikirlərimi bir də bölüşmək üçün imkan yaranır. Qeyd etdiyiniz kimi, keçən il doğrudan da tarixi il sayıla bilər. Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın birnömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq. Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək.

Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında birnömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində. Azərbaycan tərəfindən belə cəhdlər dəfələrlə göstərilmişdir. Müəyyən mərhələlərdə münasibətlər müsbət istiqamətdə inkişaf edirdi. Ancaq mövcud məhdudiyyətlər, xüsusilə Ermənistan-Azərbaycan müharibəsinin davam etməsi Amerikadakı söz sahiblərinə imkan vermirdi ki, Azərbaycanla genişmiqyaslı münasibətlər qurulsun. Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır.

Bundan başqa, Amerika ilə Azərbaycan arasında strateji İşçi qrupunun yaradılması sənədi imzalanmışdır. Bu İşçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır. Təbii ki, uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması da məhz həmin gün reallaşdı. Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir. Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı. Əlbəttə, Ermənistanla Azərbaycan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, imzaladığımız Birgə Bəyannamə təbii ki, göz önündədir. Prezident Tramp şahid qismində bu Bəyannaməyə öz imzasını atdı. Bütün bunlar və digər önəmli hadisələr dediyiniz məsələyə bəlkə də daha geniş prizmadan aydınlıq gətirir.

Dediyim, sadaladığım bu məsələlər işlərin xronologiyasıdır. Bu, ictimaiyyətə açıq olan tərəfdir. Amma, eyni zamanda bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir. Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar.

Azərbaycan Televiziyasından **Mümtaz XƏLİLZADƏ:** ***Cənab Prezident, Siz 1992-ci ildə qəbul edilən həmin o ədalətsiz 907-ci düzəliş haqqında danışdınız. Əlbəttə ki, tarixi Amerika səfərinizdən sonra onun növbəti dəfə dondurulması haqqında da qərar qəbul edildi. Mən istərdim, onun birdəfəlik ləğvi perspektivləri haqqında Sizin fikirlərinizi öyrənək. Eyni zamanda həmin 907-ci düzəlişin yalnız iqtisadi tərəflərini yox, siyasi və strateji tərəflərini də səciyyələndirəsiniz, əhəmiyyəti nöqteyi-nəzərdən.***

**Prezident İlham ƏLİYEV:** Əlbəttə ki, bu düzəliş bizə qarşı tətbiq olunanda bu, çox böyük ədalətsizlik, eyni zamanda ovaxtkı Azərbaycan rəhbərliyinin buna laqeyd yanaşması idi. O vaxt Azərbaycan hakimiyyəti və onun diplomatiyası hansı səviyyədə idi, yəqin ki, bunu ancaq Mirşahin burada oturanlardan yaxşı bilir. Siz o vaxt çox gənc idiniz, bəlkə də uşaq idiniz. Əlbəttə ki, bu, biabırçı bir mənzərə idi. Azərbaycan diplomatiyasına rəhbərlik edən insanlar heç bir dildə danışa bilmirdilər, hətta Azərbaycan dilində düz-əməlli danışa bilmirdilər və heç bir təcrübəsi olmadan, yəni hansısa diplomatiyaya, siyasətə aid olmayan sahələrdən gətirilərək bu mühüm vəzifələrə təyin olundular. Ovaxtkı AXC-Müsavat hakimiyyəti, ümumiyyətlə, peşəkarlardan ibarət deyildi, əksinə, çox təsadüfi insanlar hakimiyyəti zəbt etmişdilər və faktiki olaraq Azərbaycanı məhvə doğru aparırdılar. Ondan cəmi bir il sonra xalqın tələbi ilə hakimiyyətdən biabırcasına getməyə məcbur oldular. Ona görə bax, bu iki amil önəmli rol oynamışdır. Əgər Azərbaycan o vaxt öz haqq sözünü Amerika rəhbərliyinə çatdıra bilsəydi, əgər mübarizə aparsaydı, onda bəlkə də Konqresdə erməni lobbisi tərəfindən təşkil edilmiş bu məsələyə Amerika Administrasiyası başqa prizmadan da baxa bilərdi. Hər halda Konqres müstəqil orqan olsa da, xarici siyasətlə bağlı olan məsələləri bir çox hallarda Prezident Administrasiyası ilə müzakirə edir. Məndə olan məlumata görə, o vaxt Azərbaycanda hakimiyyətdə olanlar heç bilmirdilər ki, gündəlikdə belə bir məsələ var, belə bir qanun qəbul olunacaq və Azərbaycana qarşı bu ədalətsiz düzəliş tətbiq ediləcək.

Məsələnin ikinci tərəfi o idi ki, bizə qarşı böyük ədalətsizlik olmuşdur. Çünki 907-ci düzəliş 1992-ci ilin oktyabrında qəbul edildi. O vaxt bizim torpaqlarımız artıq işğal altında idi, Şuşa, Laçın işğal altında idi. Ermənistan dövləti tərəfindən Xocalı soyqırımı törədilmişdi, xalqımıza qarşı hərbi cinayət törədilmişdi və Azərbaycanın torpaqlarının işğal altında olması, təbii ki, Ermənistanı blokadaya almaq imkanlarını da sıfra endirirdi. Yəni ki, hansı blokadadan söhbət gedə bilərdi?! Nəzərə alsaq ki, Ermənistanın Gürcüstanla, İranla sərhədləri açıq idi, hətta Türkiyə-Ermənistan sərhədi 1993-cü ildə bağlanmışdır. Ona görə hər hansı bir blokadadan söhbət gedə bilməzdi. Ancaq erməni lobbisi və onun əhatə dairəsində olan senator və konqresmenlər belə bir ədalətsiz düzəlişi qəbul etdilər.

Onu da deməliyəm ki, onların bir çoxu artıq həyatda deyil, amma həyatda olanlar arasında çox maraqlı adlar da var. Onları siz tapa bilərsiniz, amma bir ad çəkməklə kifayətlənəcəyəm, o da ovaxtkı keçmiş senator, ondan sonra vitse-prezident, ondan sonra Prezident Co Bayden. Co Bayden 907-ci düzəlişin qəbul edilməsində çox böyük fəallıq göstərmişdir. Təkcə bu fakt kifayətdir ki, hər kəs anlasın, nə üçün bizim, həm Obama-Bayden, həm Bayden-Blinken administrasiyası ilə münasibətlərimiz istənilən səviyyədə deyildi. Obama-Bayden administrasiyası ilə əlaqələr kifayət qədər məsafəli idi, Bayden-Blinken administrasiyası isə bizim əlaqələrimizi faktiki olaraq böhrana salmışdı.

O vaxt bu düzəlişin təbii ki, böyük təsiri var idi. Çünki Azərbaycan çox kasıb ölkə idi, xəzinə boş idi, valyuta ehtiyatlarımız yox idi. Bizi yardımdan məhrum etmək, əlbəttə ki, bizə böyük bir zərbə idi. Nəzərə alsaq ki, o vaxt minlərlə, on minlərlə köçkün artıq ağır şəraitdə yaşayırdı və bu, həm siyasi cəhətdən ədalətsiz idi, həm praktik nöqteyi-nəzərdən çox təsirli idi. Biz uzun illər çalışırdıq ki, bu 907-ci düzəlişi ləğv etdirək. Ancaq bu, çox çətin proses idi və sadəcə olaraq, 11 sentyabr 2001-ci il hadisələrindən sonra Amerika Prezidenti bu düzəlişi öz imzası ilə aradan qaldırdı və bu, 2024-cü ilə qədər davam edirdi. Çünki Əfqanıstandakı əməliyyatlarda Azərbaycan Amerikaya lazım idi, həm nəqliyyat, logistika, həm də digər məsələlərlə əlaqədar. Ancaq əfsuslar olsun ki, Amerikanın Əfqanıstandakı missiyası başa çatandan sonra - hamımız onu xatırlayırıq necə başa çatıb, bu, Bayden-Blinken administrasiyasının növbəti rəzaləti sayıla bilər, onların Əfqanıstandan belə xaotik qaçışı və öz yaxın müttəfiqlərini orada faktiki olaraq, taleyin ümidinə buraxması, - Bayden administrasiyası bu düzəlişin aradan qaldırılmasını dayandırdı. Yəni artıq Azərbaycan onlara lazım deyildi, Əfqanıstandakı missiya başa çatmışdı və beləliklə, bu düzəliş yenidən tətbiq edilmişdi. Əlbəttə, bunun bizim iqtisadi inkişafımıza heç bir təsiri yoxdur və ola da bilməz. Ancaq bu, Bayden-Blinken administrasiyasının nə qədər naşükür və nankor olmasını bir daha göstərir. O vaxt administrasiyanın yüksəkvəzifəli şəxsləri ilə söhbət əsnasında mən demişdim ki, gün gələcək və biz sizə bir daha lazım olacağıq. Amma onda bizim qapımızı döyməyin. Əgər o administrasiya və onun nümayəndələri bu gün hakimiyyətdə qalsaydı, biz onların bir xahişini də yerinə yetirməyəcəkdik.

Tramp administrasiyası hakimiyyətə gəldi və vəziyyət tamamilə dəyişdi. Təbii ki, qeyd etdiyim kimi, indi Amerika-Azərbaycan münasibətləri yeni səviyyəyə qalxmışdır və əlbəttə, biz gözləyirik ki, Konqres bu ədalətsiz, keçmişdən qalan, bu gün tamamilə absurd sayılan düzəlişi aradan qaldıracaq. Çünki nə o vaxt blokada var idi, nə bu gün blokada var. Əksinə, bu gün Azərbaycan ərazisindən Ermənistana müxtəlif yerlərdən yüklər gedir, yollar açıldı və hətta Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilir. Hansı blokadadan söhbət gedə bilər?! Əgər 907-ci düzəlişin formal səbəbi blokada idisə, bu yoxdur bu gün. Ona görə əlbəttə, biz gözləyirik ki, Tramp administrasiyası öz imkanlarından istifadə edərək Konqres üzvlərini, xüsusilə Respublikaçılar Partiyasının üzvlərini inandıra biləcək ki, bu düzəliş tamamilə aradan qaldırılmalıdır və buna ümid etmək üçün bizim kifayət qədər səbəblərimiz var. Bu gün bu, yenə də simvolik xarakter daşısa da, necə deyərlər, masanı tamamilə keçmişin bu qalıqlarından təmizləmək üçün Konqres bunu birdəfəlik ləğv etməlidir.

İctimai Televiziyadan **Murad HÜSEYNOV:** ***Cənab Prezident, Birləşmiş Ştatlarla münasibətlərdən, - artıq toxundunuz, - burada əldə olunan uğurlardan danışdınız. Azərbaycanın xarici siyasəti üçün 2025-ci ildə uğur gətirən digər hadisə və prosesləri xarakterizə etməyinizi xahiş edərdim.***

**Prezident İlham ƏLİYEV:** Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər.

Digər tərəfdən, biz D-8 təşkilatına üzv olduq. Mən bunu da çox böyük nailiyyət kimi qiymətləndirirəm. Çünki bu təşkilat 30 ilə yaxındır ki, yaradılmışdır və yarandığı gündən yeni üzv qəbul etməmişdir. Ona görə bu günə qədər adı da D-8-dir. Yeganə yeni üzv Azərbaycan olmuşdur. Nəzərə alsaq ki, bu təşkilatda müsəlman dünyasının ən böyük ölkələri birləşir, Azərbaycanı dəvət etmək və bizi seçmək, əgər belə demək mümkündürsə, əlbəttə ki, böyük uğur sayıla bilər. Təkcə onu demək kifayətdir ki, bu təşkilatda birləşən ölkələrin ümumi əhalisi bir milyarddan, ümumi iqtisadiyyatı dörd trilyondan çoxdur. Azərbaycan nə əhali, nə iqtisadiyyat baxımından böyük ölkə sayıla bilməz. Bizim orada artıq rəsmən iştirakımız, əlbəttə ki, bizə olan hörmətin əlamətidir və bizim apardığımız müstəqil siyasətin nəticəsidir və dərhal biz fəal işlərə başladıq. Bizim təşəbbüsümüzlə Azərbaycanda təşkilatın bir neçə mərkəzi yaradılmışdır - media, iqlim, ekologiya, energetika, nəqliyyat və biz də təbii ki, bu təşkilatda fəal üzv kimi iştirak edəcəyik.

Xarici siyasətlə bağlı digər önəmli nailiyyət Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməyimizdir. Hesab edirəm ki, bu da nadir hadisə sayıla bilər. Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə Görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır. Təbii ki, coğrafi nöqteyi-nəzərdən digər marşrutlardan da istifadə oluna bilər. Ancaq mövcud geosiyasi vəziyyəti nəzərə alaraq tam qətiyyətlə deyə bilərik ki, Qərb üçün alternativ marşrutlar məqbul sayıla bilməz. Ona görə bizim rolumuz, yəni canlı körpü və etibarlı tərəfdaş kimi, artıq böyük layihələri icra edə bilən ölkə kimi təbii ki, artacaq və biz bunu artıq praktik həyatda görürük. Ərazimizdən keçən yüklərin sayı artır. İlk dəfə olaraq artıq 100 min konteyner Azərbaycan ərazisindən keçib. Bu ancaq başlanğıcdır, onların sayı dəfələrlə artacaq və hazırda biz öz nəqliyyat infrastrukturumuzu genişləndirmək üçün fəal işləyirik. Halbuki hesab edirdik ki, yaratdığımız infrastruktur uzun illər ərzində bizə kifayət edəcək, ancaq görürük ki, yox. Ona görə əlavə vəsait qoyulur və qoyulacaq, burada təkcə yüklərdən söhbət getmir. Bildiyiniz kimi, 2024-cü ilin noyabrında Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri Bakıda enerji kabelinin tikintisi ilə bağlı müqavilə bağlamışlar. Yəni bu bağlantılar da olacaq - fiber-optik kabelin Xəzərin dibi ilə çəkilməsi və bir çox digər layihələr. Ona görə Azərbaycanı bu qrupa rəsmən qəbul etməklə Mərkəzi Asiya ölkələri, onların rəhbərləri həm bizə böyük hörmət göstərmiş oldular, həm də ki, öz uzaqgörənliklərini nümayiş etdirdilər. Çünki bu, bölgədə olan geosiyasi vəziyyəti tamamilə dəyişir.

Bir çox xarici səfərlərim olub, səhv etmirəmsə, 20-yə yaxın, bəlkə də çox. Bir çox xarici dövlət, hökumət başçıları Azərbaycana gəlmişlər. Ölkəmizdə beynəlxalq tədbirlər keçirilmişdir. Onların arasında təbii ki, Xankəndidə keçirilən ECO Zirvə Görüşünü qeyd etməliyəm. Əsas tədbir orada - Xankəndidə keçirilmişdir, amma işğaldan azad edilmiş digər şəhərlərdə - Şuşada, Laçında, Ağdamda bizim təşəbbüsümüzlə üç forum keçirilmişdir: Biznes-Forum, Gənclər Forumu, Qadınlar Forumu. Yəni biz istəyirdik ki, gələn qonaqlar azad edilmiş torpaqların bütün olmasa da, böyük hissəsini görsünlər və biz buna hazır idik.

*Ardı 3-cü səh.*

# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

*Əvvəli 2-ci səh.*

Doqquz dövlət və hökumət başçısını biz Xankəndidə, Ağdamda, Şuşada qəbul etməyə hazır idik. Mövcud olan infrastruktur, konfrans zalları, hotellər və digər lazım olan amillər bu imkanı bizə yaratmışdır.

Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə Görüşünü də xüsusilə qeyd etməliyəm. Bu, bir daha türk dünyasının birliyini əks etdirən bir Zirvə idi və bildiyiniz kimi, bizim təşəbbüsümüzlə qeyri-rəsmi Zirvə görüşləri də keçirilməyə başlamışdır. Birinci qeyri-rəsmi Zirvə Şuşada keçirilmişdir, rəsmi Zirvə Qəbələdə və bu ənənəni indi digər ölkələr də davam etdirirlər. Artıq qeyri-rəsmi Zirvə Görüşü Macarıstanda keçirilmişdir. Yəqin ki, bu il də keçiriləcək. Yəni xarici siyasət istiqamətində yekunlarla bağlı çox danışmaq olar. Bu yaxınlarda xarici işlər naziri mətbuat konfransı keçirmişdir, daha geniş məlumat vermişdir. Mən isə sadəcə olaraq, əsasən vacib hesab etdiyim məqamları işıqlandırmaq istədim.

**Murad HÜSEYNOV:** ***Daha bir sual verim, Qəbələdə Türk Dövlətləri Təşkilatının Sammitində Sizin çıxışınızda türk dövlətləri arasında hərbi əməkdaşlıq elementi xüsusilə hiss olundu. Bu, Sizin təklif idi?***

**Prezident İlham ƏLİYEV:** Bəli.

**Murad HÜSEYNOV:** ***Yaşadığımız müasir dünyada bu əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?***

**Prezident İlham ƏLİYEV:** Bəli, tamamilə haqlısınız. Mən bunu qeyd etdim. Birinci dəfə deyil ki, mən bu Zirvə görüşlərində bu məsələyə toxunuram. Çünki bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir. Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda praktik nöqteyi-nəzərdən buna ehtiyac var. Çünki yenə də deyirəm, mən bunu artıq bir neçə ildir ki, dilə gətirirəm. Həm də ki, öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir. Biz həm 2020-ci ildə, həm 2023-cü ildə, həm də bu illər arasındakı olan hadisələr zamanı güc tətbiq edərək Ermənistana, yəni onlara layiq olan cavabı verə bilərdik. Necə ki, bizim xalqımız əzab-əziyyət içində yaşayıb, necə ki, bizim ərazilərimiz viran olunub, necə ki, bizə qarşı hərbi cinayətlər törədilib, biz də onların şəhərlərini Ağdamın vəziyyətinə qoya bilərdik. Tam rahatlıqla və əminliklə deyə bilərəm ki, heç kim bizi dayandıra bilməzdi. Biz bunu etmədik. Çünki birincisi, bu, nahaq iş olardı. İkincisi, mən tam əmin idim və bilirdim ki, gec-tez müharibə, hərbi qarşıdurma dayanmalıdır və bunu biz dayandırmasaq, bu dayanmayacaq. Bunu güclü tərəf dayandırmalıydı və hətta bu artıq mətbuata da getmişdir, Prezident Trampın müşaviri cənab Vitkof müsahibəsinin birində demişdi ki, Ağ Evdə Prezident Tramp da məndən də soruşdu "Niyə siz dayandınız? Siz güclüydünüz". Mənim cavabımı da yəqin ki, eşitmisiniz. Ona görə, buna baxmayaraq, hərbi gücün olmalıdır ki, heç kim sənə xor baxmasın, heç kim sənə ziyan vurmasın. Hətta heç kim düşünməsin ki, sənə ziyan vura bilər və bunun cavabını ödəməyəcək.

Ona görə biz gücümüzü artırırıq, o cümlədən hərbi gücümüzü. Biz Türkiyə ilə rəsmi müttəfiqlik formatında əməkdaşlıq edirik, o cümlədən hərbi müttəfiqlik, o cümlədən bir-birinə hərbi yardım çərçivəsində. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar. Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq, energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahələrdə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, birnömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik. Əgər görsək ki, təlim keçirilmədi, deməli, gərək sual verəsiniz "Kim bunu dəstəkləmədi?" Amma mən ümid edirəm ki, bütün üzv ölkələr bunu dəstəkləyəcək.

CBC Televiziyasından **Elmira MUSAZADƏ:** ***Cənab Prezident, CBC rus dilində yayımlanan beynəlxalq kanaldır. İcazənizlə sualımı rus dilində verəcəyəm.***

**Prezident İlham ƏLİYEV:** Buyurun.

**Elmira MUSAZADƏ:** ***Cənab Prezident, xarici siyasətdə prioritetlərdən danışarkən, Siz Çin Xalq Respublikasının əhəmiyyətini qeyd etdiniz və həqiqətən də son illərdə bizim ikitərəfli münasibətlərimiz xeyli güclənib. Bu həm ən yüksək səviyyədə səfərlər, həm də müxtəlif sahələrdə, xüsusilə iqtisadiyyat, nəqliyyat, logistika və texnologiyalar üzrə razılaşmalarda özünü göstərir. Siz bu razılaşmaların əhəmiyyətini necə qiymətləndirirsiniz və onların Azərbaycanın regional və qlobal proseslərdə roluna təsiri nədən ibarətdir?***

**Prezident İlham ƏLİYEV:** Zənnimcə, bizim aramızda imzalanan həmin siyasi sənədlər, - onların sayı isə ikidir və biri haqqında artıq danışmışam, - bu, hərtərəfli strateji tərəfdaşlıqdır, bundan bir il əvvəl isə biz strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə qəbul etmişik. Yəni bir il ərzində strateji, sonra isə hərtərəfli strateji tərəfdaşlıq haqqında iki sənəd imzalanıb, bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına böyük təkan verib. İstər bizim tərəfimizdən, istərsə də Çin Xalq Respublikası tərəfindən biznes strukturlarına, dövlət strukturlarına əlaqələrimizi maksimum fəallaşdırmaq üzrə ciddi impuls verilib və biz bunu hətta qarşılıqlı səfərlərin, nümayəndələrin, artıq imzalanmış müqavilələrin sayında, o cümlədən investisiyaların nümunəsində də görürük.

Biz əmtəə dövriyyəsinin artdığını görürük. O, rekord həddə - 4 milyard dollara çatıb, hətta 20 faiz artaraq 4 milyard dolları da keçib. Bu, yəqin ki, bizim hər hansı bir ölkə ilə əmtəə dövriyyəmizdə ən böyük artımdır. Biz imzalanmış investisiya xarakterli müqavilələri görürük, Çin şirkətləri Azərbaycana fəal şəkildə investisiya qoymağa başlayıb, əvvəllər bu yox idi. Ayrıca investisiya layihələri var idi, amma belə böyük sayda və dövlət strukturları ilə bu cür koordinasiya şəraitində biz bunu müşahidə etmirdik. Yəni bu ondan xəbər verir ki, qarşılıqlı fəaliyyəti genişləndirmək üçün çox ciddi siqnal və impuls verilib.

Artıq indi Çin şirkətləri bərpaolunan enerji mənbələrinə investisiyalar qoyur. Elektrik, Günəş, külək stansiyalarının tikintisinə başlanılır və bu stansiyaların sayının artırılması üzrə müraciətlər var.

Günəş panellərinin istehsalı üzrə zavodun tikintisinə başlanılıb, elektrik avtobuslarının yığılmasına başlanılıb. Bununla bağlı deməliyəm ki, bu, Azərbaycan tərəfinin strateji qərarı olub, çünki biz təkcə "yaşıl energetika"nı deyil, həm də "yaşıl nəqliyyat"ı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik.

Bu seçim, həmçinin artıq qeyd etdiyim razılaşmaların nəticəsi idi və təbii ki, layihənin icrasının peşəkarlığı, keyfiyyəti və sürəti bu seçimin düzgünlüyünü təsdiqlədi. Buna görə də Bakıda gördüyümüz yaşıl avtobusların bəziləri satın alındı və onların yığılmasına bu il başlanacaq, gələcəkdə isə lokallaşdırma artacaq.

Nəqliyyat sektorunda artıq bəhs etdiyim fəal əməkdaşlıq fonunda yükdaşımaların əsas artım mənbəyi təbii ki, Çin olacaq. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur. Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, Şərq-Qərb marşrutunu, Orta dəhlizi tam işlək vəziyyətə gətirəcək.

Sözsüz ki, Çin və Orta Asiya ölkələrindən gələn yüklərin də Zəngəzur dəhlizi boyunca hərəkət edəcəyini gözləyirik. Təbii ki, biz buna ilk növbədə Naxçıvan Muxtar Respublikası ilə əlaqə kimi, həm də beynəlxalq nəqliyyat dəhlizi kimi baxırıq. Bu gün Azərbaycandan Qərbə doğru bir dəmir yolu marşrutu var, onların sayı iki olacaq. İki həmişə birdən yaxşıdır, xüsusilə açıq okeana çıxışınız olmadığı və qonşu ölkələrdən keçməli olduğunuz bir şəraitdə. Həmişə həcm üçün, rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativə sahib olmaq daha yaxşıdır.

Bu, bizim qarşılıqlı fəaliyyətimizin çox böyük sektorudur və təbii ki, belə olan halda düşünürəm, həm əmtəə dövriyyəsinin həcmi nöqteyi-nəzərindən, potensial baxımdan və belə demək mümkünsə, həm də Cənubi Qafqazdan axını sonrakı istiqamətlər üzrə bölüşdürəcək ölkə kimi Çin Xalq Respublikası üçün burada, bu regionda Azərbaycan prioritet tərəfdaşdır.

Bu axınlar isə hamımızın bildiyi kimi, bir çox istiqamətdə hərəkət edə bilər. Buradan iki istiqamətdə qərbə, bir istiqamətdə və daha sonra iki istiqamətdə - yenidən Zəngəzur dəhlizi vasitəsilə cənuba, Yaxın Şərqə, Fars körfəzinə və əlbəttə ki, şimal istiqamətinə doğru axın olacaq ki, bu istiqamət də tam istifadəyə veriləcək.

Buna görə də Azərbaycan, belə demək mümkünsə, kommersiya səmərəliliyinə və bir çox digər amillərə əsaslanaraq, yükdaşımaların artmasına kömək edən, özünün və qonşu ölkələrin infrastrukturuna investisiya qoyan, axınların təminedicisi olacaq ölkə rolunu oynamalıdır. Bu səbəbdən də xüsusən də açıq dənizə çıxışı olmayan Azərbaycanın nəqliyyat mərkəzi kimi rolu təbii olaraq artacaq.

Əlbəttə ki, burada daha bir yeni əməkdaşlıq istiqamətini qeyd etməyə bilmərəm. Bu, hərbi-texniki əməkdaşlıqdır. Ona da həmçinin əldə olunmuş siyasi razılaşmalar çərçivəsində başlanılıb. Bu, Çin və Azərbaycan arasında yeni bir qarşılıqlı fəaliyyət sahəsidir. Bu əməkdaşlığın bir hissəsi hərbi paradda nümayiş etdirilib, amma bu, yalnız başlanğıcdır.

Biz bu halda böyük qarşılıqlı maraq görürük. Bundan əlavə, hərbi texnikanın əldə olunması ilə kifayətlənməyərək, biz müştərək müəssisələrin yaradılması üzərində işləyirik və bu sahədə işlər artıq başlayıb. Bu, ümumiyyətlə, ictimaiyyətin diqqətindən gizli saxlanılır, necə ki, belə də olmalıdır, amma həm də hər iki ölkə tərəfindən verilən strateji xarakterli ciddi siyasi qərardır və böyük potensiala malikdir. Əminəm ki, yaxın gələcəkdə həm yeni müqavilələrin, həm də artıq prosesdəki layihələrin həyata keçirilməsinin şahidi olacağıq. Bu, təbii ki, Azərbaycana böyük fayda gətirəcək.

AnewZ Televiziyasından **Nadia CANİ:** ***Cənab Prezident. Mən beynəlxalq ingilisdilli AnewZ kanalını təmsil edirəm. Ona görə bu sualı Sizə ingilis dilində ünvanlayacağam.***

***Azərbaycanın iqtisadi və regional inkişafından, xüsusilə Ermənistanla yeni sülh müqaviləsi kontekstində danışa bilərsinizmi? Bu, gələcək illərdə ölkə üçün nə məna kəsb edir? Azərbaycanın Cənubi Qafqazda əsas iqtisadi lider kimi mövqe tutmasına kömək etmiş bəzi nailiyyətlərini sadalaya bilərsinizmi?***

**Prezident İlham ƏLİYEV:** Bəli, keçən ilin avqustunda Vaşinqtonda paraflanmış sülh sazişi, əlbəttə ki, investisiyalar üçün, xüsusilə Amerika Birləşmiş Ştatlarından gələn investisiyalardan danışdıqda, böyük imkanlar açır. Biz bunun üzərində fəal işləyirik. Eyni zamanda Azərbaycanın Birləşmiş Ştatlara yatırdığı investisiyaların artıq müəyyən tarixi var. Biz əsasən qiymətli kağızlara investisiya yatırmışdıq. Lakin indi, iki ölkə arasında olan münasibətlərin bu yeni mərhələsindən sonra biz real iqtisadiyyatın layihələrinə investisiya yatırmaq üçün müxtəlif seçimləri nəzərdən keçiririk. Eyni zamanda Azərbaycanın hədəflərindən biri də regional süni zəka qovşağına, IT mərkəzinə çevrilməkdir və hesab edirəm ki, bizim buna nail olmaq üçün potensialımız var. Biz indi tərəfdaşlarımızla məlumat mərkəzlərinin yaradılması üzərində çalışırıq. Bildiyiniz kimi, məlumat mərkəzlərinin çoxlu elektrik enerjisinə ehtiyacı var. Bu gün daha geniş regionda elektrik enerjisi üzrə əlavə imkanı olan yeganə ölkə Azərbaycandır. Beləliklə bu gün daxili məqsədlər üçün istifadə etmədiyimiz ixrac və ya burada istehlak oluna bilən əlavə 2000 meqavat və ya 2 qiqavat həcm varımızdır.

Kibertəhlükəsizlik mərkəzinin yaradılması, mütəxəssislərimizin təlimi ilə bağlı planlarımız və artıq icra olunmuş layihələrimiz var - biz bir çox mütəxəssislərimizi xaricə təlimlərə göndəririk və eyni zamanda Azərbaycanda təlimlər təşkil edirik - hədəfimiz, bağlılıqla yanaşı, süni zəka və IT üçün bir haba çevrilməkdir. Potensial mövcuddur. Güclü siyasi iradə mövcuddur. Əlbəttə ki, biz Amerika şirkətlərini əsas tərəfdaşlarımız hesab edirik. Qeyd etmək istəyirəm ki, Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması üzrə Prezident Trampla Anlaşma Memorandumunu imzaladıqdan sonra Avropanın bir neçə aparıcı ölkəsi bizimlə strateji tərəfdaşlıq münasibətləri qurmaq üçün müraciət etmişdir. Beləliklə, müəyyən mənada bu, Vaşinqtondan daxil olan siqnal idi. Buna baxmayaraq, bu vaxtadək biz demək olar ki, 30 ölkə ilə strateji tərəfdaşlıq üzrə bəyanat və müqavilə imzalayıb və bağlamışıq, - bu ölkələrdən 10-u Avropa İttifaqının üzvüdür, - lakin Vaşinqtondan daxil olmuş bu güclü mesaj ABŞ-ın müttəfiqi olduğu ölkələrdə yaxşı qarşılanmışdır.

İqtisadi fəaliyyətimizlə bağlı, ölkəmiz iqtisadi cəhətdən tamamilə müstəqil olduğuna və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə bugünkü vəziyyət bizi qane edir. Bir neçə il bundan əvvəl mən xarici borcumuzu azaltmaq üçün hökumətin qarşısına vəzifə qoydum və buna nail olduq. Biz borc götürməyi tamamilə dayandırdıq və beynəlxalq maliyyə təsisatları ilə bütün münasibətlərimizi, aktiv münasibətlərimizi bitirdik. İndi bizim xarici borcumuz ÜDM-in 6+ faizini təşkil edərək tarixdə ən aşağı səviyyədədir. Biz yenə də məhdud məbləğlərdə borc götürməyə başladıq. Lakin biz maliyyələşdirməyə ehtiyacı olan layihələri dəstəkləmək üçün yenə də 2-3, bəlkə də 4 milyard ABŞ dolları məbləğində borc götürməyə qərar vermişdik. Biz sosial sahəyə maliyyələşməni kəsmək istəmirik. Biz müdafiə sahəsinə, Qarabağın yenidən qurulmasına maliyyələşməni kəsmək istəmirik. Lakin bizə nəqliyyat layihələrimiz, su-kanalizasiya sistemi üçün və əsasən bağlılıq məsələlərində maliyyələşmə lazımdır. Bunun üçün biz borc götürəcəyik. Lakin bu gün bizim xarici borcumuz tarixdə ən aşağı səviyyədədir, hesablamalardan asılı olaraq ÜDM-in 6,3-6,4 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcu 16 və ya 17 dəfə üstələdiyinə görə xarici borcumuzu geri ödəyə bilərik. Nəyə görə bir rəqəmi qeyd etmirəm, çünki ötən il biz həm də qızıl ehtiyatlarımızı artırmaq üçün strateji qərar qəbul etdik. Biz geosiyasi müstəvidə cərəyan edən hadisələri açıq-aydın görürdük və mən tamamilə əmin idim ki, qızılın qiyməti artacaq və qiymət kəlləçarxa çıxdı. Beləliklə, bu qərar bizə çoxlu pul qazandırdı. Qızıl ehtiyatlarımızı artıraraq Dövlət Neft Fondu yalnız buna görə 10 milyard ABŞ dollarından artıq vəsait qazandı. Lakin qızılın qiyməti aşağı düşərsə, əlbəttə ki, bizim ehtiyatlarımız da azalacaq. Beləliklə, bu gün bizim ehtiyatlarımız hər gün dəyişir. Bu gün ola bilsin 84 və ya 83 milyarddır. Sabah 85 olacaq. Buna baxmayaraq, bu, dünyada adambaşına düşən ehtiyatlar nöqteyi-nəzərindən istənilən ölkədə olan ən yüksək göstəricilərdən biridir, 83-84 milyard ABŞ dolları.

Nəhəng investisiya layihələrini və Qarabağın yenidən qurulmasını nəzərə alsaq, bu, həqiqətən iqtisadiyyatımızın güclü dayanıqlılığını nümayiş etdirir. İki aparıcı reytinq şirkəti bizim kredit reytinqimizi yenilədi. Bunlar "Moody's" və "Fitch" şirkətləri idi və burada reytinq investisiya səviyyəsi yenilənərək, proqnoz da sabitdən müsbətə doğru yenilənmişdir. Mən tamamilə əminəm ki, bizim kredit reytinqi üzrə göstəricimiz olduğundan daha aşağı qiymətləndirilir, çünki bizim böyük ehtiyatlarımız var, aşağı xarici borcumuz var, özünü təmin edən iqtisadiyyatımız var və hesab edirəm ki, bir çox digər amillər bizə daha yüksək reytinqə malik olmağa imkan verir. Bizim müvafiq dövlət təsisatları fəaliyyətimiz haqqında daha çox məlumat vermək üçün bu reytinq agentlikləri ilə çalışır ki, Azərbaycanın həqiqi reytinqi lazımi şəkildə əks olunsun. Çünki bu, təkcə prestij məsələsi deyil, baxmayaraq ki, belədir. Bu həm də bizə, xüsusilə indi borc götürməyə qərar verdiyimiz bir dönəmdə daha yaxşı şərtlərlə borc götürməyə imkan verir. Odur ki, mən hökumətə borc götürməyi dayandırmağı tapşıranda hədəfim xarici borcu ÜDM-in 10 faizindən daha aşağı səviyyəyə gətirmək idi və indi o, ÜDM-in 6,3-6,4 faizini təşkil edir.

Əlbəttə ki, bu baxımdan daha çox vəsait regional inkişafa ayrılacaq. Bu gün bizim iki investisiya proqramımız var - biri ənənəvi proqramdır, digəri isə Qarabağ və Şərqi Zəngəzur üçündür. Hər ikisi yüksək səviyyədə icra olunaraq uğurla həyata keçirilir. Biz bağlılıq, nəqliyyat məsələlərində daha çox iş görməliyik. Artıq qeyd etdiyim kimi, mən düşünürdüm ki, dəniz limanları və dəmir yolları ilə bağlı gördüyümüz işlər bir çox illər üçün kifayət edəcək. İndi isə görürəm ki, artan yükdaşımaların həcminə görə bunlar kifayət etməyəcək.

Biz tezliklə Bakı, Sumqayıt və Xırdalanın, bütün Abşeron yarımadasının su-kanalizasiya sistemləri üzrə irimiqyaslı proqram qəbul edəcəyik, çünki buna tələbat böyükdür. Bir çox iş görülüb, lakin hələ də çatışmazlıqlar var. Hələ də güclü yağışlar olanda problemlərlə üzləşirik. Beləliklə kanalizasiya-su sistemlərinin idarə olunması və içməli su, o cümlədən Azərbaycanda ilk dəfə qurulacaq duzsuzlaşdırma qurğusu içməli suya olan böyük tələbatı qarşılayacaq. Kənd təsərrüfatını daha çox su ilə təmin etmək məqsədilə yeni kanalların tikintisi, həmçinin, əlbəttə ki, Bakının nəqliyyat problemləri həll olunacaq.

Hamımız yaxşı bilirik ki, - bəlkə siz bunu məndən də yaxşı bilirsiniz, - yol hərəkəti bu gün həqiqətən də ciddi problemdir. Əvvəlki illərdə biz çox iş görmüşük, 50 tunel, 50-yə yaxın körpü inşa etmişik, yolları genişləndirmişik. Təkcə Bakıda 2500 kilometr yol salınmışdır. Təsəvvür edin, şəhərin daxilində 2500 kilometr yol. Hamımız, - bəlkə hamımız yox, - amma Mirşahin və mən buradan Bakı şəhərinə gedən yolun necə olduğunu çox yaxşı xatırlayırıq. O vaxt cəmi bir yol var idi. Bu sahədə görüləcək işlər hələ çoxdur. Biz artıq Bakıda əlavə 10 metro stansiyasının tikintisini nəzərdə tutan proqram qəbul etmişik. Mənim səlahiyyət müddətim ərzində yeddi stansiya tikilib, lakin bu, kifayət deyil. Buna görə də daha 10 metro stansiyası, eləcə də yeni körpülər və tunellər tikiləcək. Bütün bunlar üçün vəsait cəlb etməliyik, çünki bu, bizə xeyli maliyyə qənaəti edəcək və həmin vəsaiti Qarabağ üçün istifadə edə biləcəyik.

Mən, ümumilikdə, iqtisadi inkişafdan razıyam. Bəli, bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır. Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, - bu mümkündür, - və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır.

Bilirsiniz, mən dəfələrlə Ermənistanı güclü şəkildə dəstəkləyən və daim Ermənistan üçün geosiyasi baxımdan çətinliklərdən, guya bəzi ölkələrin onun maraqlarına zərər vurmaq istəməsindən şikayət edən bir qrup ölkənin liderləri ilə görüşərkən həmişə deyirəm: "ÜDM-ə baxın və Rusiya ilə ticarət dövriyyəsinə baxın". Rusiya-Ukrayna müharibəsi başlayanda Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi təxminən 2 milyard ABŞ dolları idi. İki il sonra isə bu rəqəm 12 milyard dollara çatdı. Bu, artıq hər şeyi açıq şəkildə göstərir.

Bu, sanksiyalardan yayınma mexanizmidir - onların dediyi kimi, paralel idxal və ya "boz zona" idxalıdır. Lakin nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurası Parlament Assambleyasında heç kim bu barədə bir söz belə demədi, nə Ermənistanı qınadı, nə də ümumiyyətlə, sanksiyalar mövzusuna toxundu. Çünki onlar üçün sanksiyalardan yayınma kanalı olmaq qəbuledilәndir. Bizim ÜDM-in artması isə kiməsə sanksiyalardan yayınmağa kömək etdiyimizə görə deyil, - biz bunu etmirik, - o, iqtisadi fəaliyyətimizin real nəticələri hesabına artır.

Rəqəmlərlə bağlı daha bir məqamı da qeyd etmək istərdim. Rəqəmlər, əlbəttə ki, vacibdir, lakin ən önəmlisi insanların gündəlik həyatı və ölkənin iqtisadi imkanlarıdır. Həmçinin aydındır ki, iqtisadiyyat nə qədər böyükdürsə, hər bir faiz artımının dəyəri də bir o qədər yüksək olur. Belə ki, iqtisadiyyatın həcmi təxminən 70-80 milyard ABŞ dolları olduqda, hər bir faiz artımı demək olar ki, 1 milyard dollar edir. Bu 1 milyard dolları cəmi bir il ərzində əldə etmək isə asan məsələ deyil. Bununla belə, mən hesab edirəm ki, göstəricilər daha yaxşı ola bilər. Neft hasilatı sabitləşdikdən sonra ÜDM üzrə daha yüksək rəqəmləri görəcəyimizi düşünürəm. Amma yenə də mənim üçün bu, nə rəqabətdir, nə də yarış. Əsas odur ki, iqtisadiyyatımız bizə inkişaf etməyə, əhali üçün daha yaxşı yaşayış şəraiti yaratmağa, azad edilmiş əraziləri bərpa etməyə, müdafiə qabiliyyətinə investisiya qoymağa və ümumilikdə, iqtisadiyyatımızı daha da gücləndirməyə imkan versin.

**Mümtaz XƏLİLZADƏ:** ***Təşəkkür edirik, cənab Prezident. Siz Azərbaycan dövlətinin xarici siyasəti, regional inkişafı, iqtisadi göstəriciləri haqqında fikirlərinizi bölüşdünüz. Mənim növbəti sualım dövlətin sosial siyasətinin nəticələri ilə bağlı olacaq. Xahişim odur ki, həm 2025-ci ildə dövlətin sosial siyasətinin nəticələri, eyni zamanda bu ildən tətbiqi nəzərdə tutulan, xüsusən də cəmiyyətin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində həyata keçiriləcək layihələr barədə məlumat verəsiniz.***

**Prezident İlham ƏLİYEV:** Bu, həmişə bizim siyasətimizin ana xəttini müəyyən edən istiqamətdir. Çünki mən uzun illərdir deyirəm və bunu əməli işlərdə də biz görürük ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu, sadəcə olaraq, şüar deyil. Bizim bütün siyasətimiz həm sosialyönümlüdür, həm də ki, investisiyayönümlüdür. Hər ikisi arasında çox həssas balans, tarazlıq olmalıdır. Əgər olmasa, onda heç bir ölkə uğur qazana bilməz, bu birincisi. İkincisi, həmişə çalışmışam və bu gün də çalışıram populizmdən uzaq olum və mümkün olmayan vədləri verməyim. Mümkün olan inkişafla bağlı Azərbaycan ictimaiyyətini müntəzəm olaraq məlumatlandırıram. Əgər son 20 ilin statistikasına baxsaq, təkcə onu demək kifayətdir ki, minimum əməkhaqqı Azərbaycanda 40 dəfədən çox artıb. Düzdür, ilkin baza çox aşağı idi, amma bu artım da əldə edilmiş vəsait hesabına mümkün olmuşdur. Yəni biz iqtisadi islahatları apararaq, neft-qaz layihələrini icra edərək, ilk növbədə əldə edilən gəlirləri sosial sahəyə yönəldirdik və bu gün də belədir. İşğal dövründə bizim əsas xərclərimiz hərbi təyinatlı xərclər idi, ondan sonra təhsil xərcləri idi, ondan sonra məcburi köçkünlər üçün nəzərdə tutulan xərclər idi. Yəni biz işğal dövründə 300 mindən çox köçkünü yeni evlərlə, mənzillərlə təmin etmişdik, 100-dən çox şəhərcik inşa olunmuşdur. Yəni bu, niyyətimizi əyani şəkildə göstərir və bu gün insanların rifah halını yaxşılaşdırmaq üçün sosial siyasət daha dəqiq aparılır. Yəni vaxtilə bu sahədə olan pozuntular aradan qaldırılır, ədalətsizliklər aradan qaldırılır, şəffaf mexanizm tətbiq olunur. Bu, bizə imkan verib ki, biz bir neçə ciddi sosial islahat paketi icra etmişik, daha doğrusu, son yeddi il ərzində 5 sosial islahat paketi icra edilmişdir. Bu islahatların əhatə dairəsi 4 milyon insandır və təqribən 8 milyard manata yaxın olan vəsaitdir. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Yəni maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir.

Əlbəttə, istərdik ki, daha da çox olsun. Amma bir atalar sözü var: "Gərək ayağını yorğanına görə uzadasan". Yenə də deyirəm, biz heç vaxt populizmlə məşğul olmamışıq, heç vaxt həlli mümkün olmayan vədlər verməmişik, heç vaxt gələcək nəsilləri borca salmaq üçün haradansa böyük məbləğdə pul alıb onu paylamamışıq. Biz strateji inkişafla bağlı tam, necə deyərlər, aydın mənzərəyə sahibik. Ona görə ölkə iqtisadiyyatı inkişaf etdikcə, ölkənin valyuta ehtiyatları artdıqca, əlbəttə ki, sosial sahəyə daha da böyük vəsait ayrılacaq.

Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub. Yəni cəmiyyətdə ələbaxımlılıq olmamalıdır. Bunu tam aradan qaldırmışıq? Yox, yenə də var. İş yerləri yaradılır, o cümlədən Qarabağ və Şərqi Zəngəzur da böyük tikinti meydançasıdır. Yəni işləmək istəyən Azərbaycanda özü üçün iş tapa bilər, ya inşaatda, ya kənd təsərrüfatında, ya başqa sahələrdə. İşsizlik aşağı səviyyədədir, ancaq işsizlər var və bu, hər bir ölkədə var. İnkişaf etmiş ölkələrdə bizdən də böyük faizlə ölçülən işsizlik var. Amma mənim sözüm odur ki, bu gün Azərbaycan kimi ölkədə, geniş imkanları olan ölkədə iş tapmaq o qədər də çətin məsələ deyil. Sadəcə olaraq, bəziləri bəlkə də onlara təklif olunan işlərlə razı deyillər, ona görə iş axtarmağa davam edirlər. Özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini faktiki olaraq aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər.

Son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmişdir. Burada da Azərbaycan qədər bu sahəyə diqqət yetirən ikinci ölkə yoxdur. Müharibələr olub, İkinci Dünya müharibəsi, ondan sonrakı müharibələr. Mən bilmirəm hansı ölkədə şəhid olanlara dövlət tərəfindən mənzillər verilir, bəlkə verilir, amma mən bilmirəm, eşitməmişəm. Minik avtomobilləri verilir. Biz müharibə zamanı əlil olmuş hərbçiləri dövlət tərəfindən ən müasir protezlərlə təmin etmişik. Beş yüzdən çox insan protezlərlə təmin edilib və normal həyata qayıdıblar. Bu, ən son model protezlərdir. Müntəzəm olaraq onlara xidmət göstərilməlidir, dəyişdirilməlidir. Çünki bunu fizioloji nöqteyi-nəzərdən dəyişməyə ehtiyac var. Əlbəttə, biz bunu edirik, o insanlar qarşısında bizim vətəndaşlıq borcumuzdur. Bir sözlə, bu istiqamətdə mən hələ sosial infrastruktur layihələrini qeyd etmirəm. Son 20 il ərzində Azərbaycanda 3 min 600 məktəb, yüzlərlə xəstəxana tikilib və əsaslı təmir edilib. Yəni bu, bizim siyasətimizin, o cümlədən iqtisadi siyasətin ayrılmaz hissəsidir və yenə də deyirəm, iqtisadiyyatımız nə qədər artsa, ilk növbədə o qədər də sosial məsələlərə diqqət yetiriləcək və maliyyə ayrılacaq.

**Murad HÜSEYNOV:** ***Cənab Prezident, Siz Qarabağın və Şərqi Zəngəzurun bərpasını Azərbaycan dövlətinin ən prioritet istiqamətlərindən biri elan etmisiniz. Böyük Qayıdışa dair Birinci Dövlət Proqramının icrasını necə qiymətləndirirsiniz? İşğaldan azad edilən ərazilərin Azərbaycanın iqtisadi zəncirinə cəlb olunması üçün yeni institusional addımların atılması planlaşdırılırmı?***

**Prezident İlham ƏLİYEV:** Bəli, təbii. Çünki ilk növbədə biz gərək bu bölgələr arasında bağlantılar yaradaydıq. Çünki işğal dövründə oradakı vəziyyət acınacaqlı idi. Siz hamınız - Azərbaycan vətəndaşları o bölgələrdə olarkən, xüsusilə işğaldan azad ediləndən sonrakı ilk aylar ərzində görürdük ki, vəziyyət çox acınacaqlı idi. Hətta mən özüm də dəfələrlə orada olarkən özümə sual verirdim: bəs bu qədər milyonlar, yüz milyonlarla telemarafonlar, - ermənilər hər il yüz milyonlarla pul yığırdılar, - bu pul hara gedirdi? Mən onu orada görmədim. Ancaq bəlkə də orada separatçıların villalarını saymaq olar, amma nə ictimai binalar, nə də hansısa yaşayış binaları var idi. Faktiki olaraq, orada həyat sanki XX əsrin 70-ci illərində dayanıb. Məndə belə təəssürat var idi. Mən 1970-ci illərdə dəfələrlə Azərbaycanın bölgələrində olmuşam və sanki o xatirələr qayıtmış oldu.

*Ardı 4-cü səh.*

# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

*Əvvəli 3-cü səh.*

Ona görə biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik.

Su təchizatı olmadan heç kim oraya köçməz, orada yaşamaz. Bu məsələ də öz həllini tapır və su anbarları - bir neçə su anbarını yenidən qurmuşuq, sıfırdan qurulan, məsələn, Zabuxçay su anbarı, əsaslı təmir olunan Sərsəng, Suqovuşan, Köndələnçayda üç, Xaçınçay. Bütün bunlar həm böyük vəsait, həm də işçi qüvvəsi tələb edir və onu da deməliyəm, bu işlər, əlbəttə ki, vəsait hesabına görülür. Əgər vəsait olsa, amma işçi qüvvəsi, yaxud da ki, hazırlıqlı kadrlar olmasa, biz bu işi görə bilməzdik. Bax, indi Kəlbəcər dağlarından elektrik xətləri çəkmək özlüyündə bir qəhrəmanlıqdır, özü də ağır hava şəraitində yollar, körpülər, misalçün, 70 kilometr uzunluğunda tunellər inşa edilir. Onların böyük əksəriyyəti başa çatıb. İlk növbədə bu bölgə dəmir yolları - Bərdə-Ağdam, indi Ağdam-Xankəndi, avtomobil yolları, magistral, - yəni Zəngəzur dəhlizi öz yerində, - amma, eyni zamanda Cəbrayıl, Hadrut, Laçın, Kəlbəcər bir-biri ilə bağlı olmalı idi. Mən birinci dəfə Kəlbəcərdən Laçına gedəndə həyatımda belə təhlükəli yol görməmişdim. Uzun illərdir ki, avtomobil sürürəm, o cümlədən vaxtilə müxtəlif ölkələrdə də olanda sürmüşdüm, təbii ki, Azərbaycanın hər bir yerində, amma mən elə təhlükəli yol görməmişdim. Bəlkə də Göygöl-Kəlbəcər yolu, Murov aşırımı, - tunel tikilənə qədər o yoldan istifadə edirdik, - ona bənzər ola bilər. Yəni indi bu dördzolaqlı körpülərlə, tunellərlə təmin olunan yollar - bütün bunlar imkan verəcək ki, bir yerdə yaşayan insan o biri yerdə işləyə bilsin. Misalçün, Xankəndi-Şuşa məsafəsi o qədər də böyük deyil. Amma yenə də bu məsafəni daha da qısaltmaq üçün o yol boyunca tunel tikirik. Ya da ki, Şuşa-Laçın, o məsafəni də indi 40 dəqiqəyə getmək olar. Amma bu, yeni tunellərlə, yolların genişləndirilməsi ilə 20-25 dəqiqəyə düşəcək. Yəni imkan verəcək ki, mobillik artsın, o cümlədən Ağdamda yaşayan Şuşada gedib işləyəcək və əksinə.

Bütün o bölgəni bir-biri ilə bağlamaq bizim əsas vəzifəmizdir. Bu bölgəni Azərbaycanın digər bölgələri ilə, - Kəlbəcər vasitəsilə Gəncə-Qərb istiqaməti, Tərtər-Bərdə-Bakı istiqaməti, Füzuli-Biləsuvar-Cənub istiqaməti ilə əlaqələndirməklə, ölkədə bağlantılar daha etibarlı olacaq, yola sərf olunan vaxt qısalacaq. Hamımız yaxşı bilirik ki, insanlar adətən yaşadıqları bölgələrdə yaşayırlar. Ancaq o bağlantılar - dəmir yolu, avtomobil yolları olan zaman, gələcəkdə hava yollarının istifadəsi ilə insanlar da ölkə daxilində miqrasiya edə bilərlər. Şərt deyil ki, hamı Bakıya gəlsin. Əksinə, bu gün, məsələn Xankəndi kimi şəhərə Bakıdan, Naxçıvandan, başqa yerlərdən gəlirlər. Xankəndi və Ağdam azad edilmiş bölgələrin əsas şəhərləri olacaq.

Bu mobillik cəmiyyətə yeni bir mədəniyyət gətirəcək. Yəni xüsusilə bugünkü internet dövründə harada iş var gedirəm, orada işləyirəm, orada yaşayıram, orada şərait olmalıdır. Bakıdakı kimi olmasa da, heç olmasa, Bakıya yaxın olan şərait olmalıdır. Yəni məqsəd budur. Bu, deyə bilərəm ki, bir yan məqsəddir. Təbii ki, əsas məqsəd keçmiş köçkünləri oraya qaytarmaqdır. Bu gün artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq.

İnfrastruktur layihələri icra edildikcə təbii ki, evlərin tikintisinə daha böyük vəsait veriləcək. Amma hər şey ardıcıllıqla, Baş plan əsasında edilir. Biz həm tələsirik, həm də tələsməməliyik. Çünki bəzi hallarda tələskənliyə yol verərkən keyfiyyət uduzur. Yaxud da ki, hansısa işi keyfiyyətsiz edənlər deyirlər ki, bəs tələsmişəm, mən bunu filan tarixdə təhvil verməli idim. Mən hamıya dedim, bax, ictimaiyyətə də deyə bilərəm ki, heç vaxt heç bir tarix qoymamışam. Bu il üçün də heç bir tarix qoymamışam. Nə vaxt hazır olacaq, o vaxt hazır olacaq. Amma hər şey gərək keyfiyyətli olsun və təbii ki, ictimai nəzarət də olmalıdır.

**Mirşahin AĞAYEV:** ***Cənab Prezident, mən elə buradan Zəngəzur dəhlizi mövzusuna keçmək istəyirəm. İndi onun bir adı da belədir: Amerika Birləşmiş Ştatları və Ermənistan arasında imzalanmış Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu üzrə razılaşma. Naxçıvan istiqamətində görülən işləri artıq biz efirdə də təqdim etməyə başlamışıq. Bu istiqamətdə görülən işlərlə bağlı mövqeyiniz, münasibətiniz necədir və bizim bilmədiyimiz hansı məlumatlar var?***

**Prezident İlham ƏLİYEV:** Biz əslində bu dəhlizi müharibədən - İkinci Qarabağ müharibəsindən bir neçə ay sonra icra etməyə başlamışıq. Səhv etmirəmsə, 2021-ci ilin əvvəlində artıq o dəmir yolunun təməli də qoyuldu. Yəni sözün düzü, məndə şübhə yox idi ki, bu yol açılacaq. Əgər şübhə olsaydı, yəqin ki, biz bu qədər vəsait qoymazdıq. Hətta müsahibələrin birində də demişdim ki, istənilən yolla açılacaq. Bəzən belə ritorikaya da ehtiyac var, çünki bu, qarşı tərəfi, necə deyərlər, yumşaq mənada həvəsləndirir. Amma əlbəttə ki, bu məsələnin Amerikada Trampın iştirakı ilə həll olunması bu məsələni artıq tamamilə həll edilmiş məsələ kimi ortaya qoydu.

Bizim Ermənistan sərhədinə gedən yollarımız - həm dəmir yolu, həm avtomobil yolu demək olar ki, tezliklə hazır olacaq. Avtomobil yolunun hazırlığı təxminən 95 faizdir. Dəmir yolunun fiziki hazırlığı 70 faizdir. Biz işi sürətləndirə də bilərik. Amma Ermənistan ərazisində hələ heç bir iş görülmədiyi üçün buna da böyük ehtiyac görmürük. Çünki Ermənistan ərazisində 42 kilometr yol inşa edilməlidir. Paralel olaraq Naxçıvan ərazisində, - bildiyiniz kimi, yolun uzunluğu təxminən 190 kilometrdir, - onun böyük hissəsi var. Düzdür, vəziyyəti o qədər də yaxşı deyil, ancaq bu gün mövcud ola biləcək yükləri aparmaq üçün o yol kifayət edir. Həm Ordubad, həm də Sədərək istiqamətində olmayan hissələr də var. İndi biz orada olmayan dəmir yollarını tikməyə başlamışıq və hesab edirəm ki, bir-iki ilə o da başa çatacaq.

O ki qaldı yolun qalan hissəsinə, burada biz xarici investorları da dəvət edirik, kim istəyir sərmayə qoysun. Bu sahəni də xarici investisiyalar üçün açıq etmişik. Beləliklə, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq və bayaq qeyd etdiyim kimi, həm Şərq-Qərb, həm də ki, Şərq-Cənub, bəlkə də Şimal-Cənub yolunun bir qolu olacaq. Çünki bu gün Şimal-Cənub layihəsi deyəndə, ilk növbədə, Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi - bu, "Şimal-Cənub" marşrutunun ikinci yolu olacaq. Bu, eyni zamanda Orta dəhlizin də ikinci yolu olacaq və təbii ki, yükaşırma qabiliyyəti artacaq. Yol Naxçıvandan iki istiqamət üzrə davam edəcək. Bir istiqamət Türkiyə-Avropa, bir istiqamət isə İran, Fars körfəzi və Yaxın Şərq. Qeyd etdiyim kimi, bunun əsas, necə deyərlər, istiqamətverici tərəfi də biz olacağıq. Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər. Xüsusilə nəzərə alsaq ki, Amerika Prezidenti Tramp bu yola öz adını verib, artıq bu, onun yoludur. Ermənistandan da gələn xəbərlər onu göstərir ki, bu il bu yolun fiziki tikintisi nəzərdə tutulur.

Bildiyiniz kimi, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı



Türkiyə tərəfi qərar qəbul etmişdir. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır. Çünki Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb.

Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə Ağbənd qəsəbəsində Arazın üzərindən körpü də inşa edilir. Yəni bizim o bölgədən qərb istiqamətinə və cənub istiqamətinə əslində iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi - Ermənistan üzərindən, biri isə Araz dəhlizi - İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik. Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən. Biz faktiki olaraq Naxçıvanı, Şərqi Zəngəzuru və Qarabağı bir bölgə kimi birləşdirəcəyik.

Naxçıvanın Baş planı da hazırlanır, həm şəhərin, həm də bütün şəhərlərin. Qarabağda və Şərqi Zəngəzurda gedən quruculuq işlərinə paralel olaraq Naxçıvan Muxtar Respublikasında da istər "yaşıl enerji" olsun, istər kənd təsərrüfatı, istər suvarma, - indi orada böyük suvarma layihələri icra ediləcək, - istər turizm, bu bölgəni biz birləşdirəcəyik. Mən bunu bir daha demək istəyirəm, biz bunu onsuz da edəcəkdik, amma yaxşı ki, bunu sülh yolu ilə edirik. Ermənistan da təbii olaraq bundan ancaq fayda görəcək. Çünki Ermənistan indiki dalan vəziyyətindən çıxa bilər və çıxacaq. Azərbaycanla Ermənistan arasında yollar açılacaq. Türkiyə ilə Ermənistan arasında yollar açılacaq. Ermənistan Naxçıvan vasitəsilə İranın dəmir yollarına, Azərbaycan vasitəsilə Rusiyanın dəmir yollarına çıxış əldə edəcək. Yəni bu, Ermənistan üçün də faydalıdır. Burada uduzan tərəflər olmamalıdır. Hər halda iqtisadi və nəqliyyat nöqteyi-nəzərindən uduzan tərəf olmayacaq. Əgər kimsə özünü siyasi cəhətdən uduzmuş hesab edirsə, bu, necə deyərlər, onun problemidir. Amma əgər hər kəs bu məsələyə praqmatizm nöqteyi-nəzərindən baxsa, burada özü üçün xeyirli bir iş görə bilər.

**Elmira MUSAZADƏ:** ***Cənab Prezident, biz, o cümlədən Ermənistanın da iştirak edəcəyi ilk belə regional layihələrdən danışırıq. Vaşinqton sazişindən sonra sülhə doğru kövrək də olsa, ilk addımları görürük. Lakin çıxışlarınızda dəfələrlə vurğuladığınız kimi, heç vaxt sayıqlığımızı itirməməliyik. Keçən il Vətən müharibəsinin, Azərbaycanın 44 günlük müharibədə Qələbəsinin beş ili tamam oldu. Noyabrın 8-də keçirilən parad təkcə Qələbənin rəmzi deyil, həm də yeni bir reallığın nümayişi oldu. Siz bu dövrü, bu beş ili Azərbaycanın, qalib ölkənin yeni Silahlı Qüvvələrinin formalaşdırılması və yeni təhlükəsizlik arxitekturasının yaradılması baxımından necə qiymətləndirirsiniz?***

**Prezident İlham ƏLİYEV:** Bəli, bu beş il ərzində biz ordu quruculuğu ilə fəal şəkildə məşğul olmuşuq və necə deyərlər, qazandığımız uğurlardan arxayınlaşmamışıq. Mən şanlı Zəfərimizdən dərhal sonra demişəm ki, biz arxayınlaşmamalıyıq, həyatımızı bu Qələbəni bayram etməyə həsr etməməliyik. Bu, bizi heç yerə aparmayacaq. Ermənistanın nümunəsi də gözümüzün qabağındadır. Bu müştəbehlik və yalançı özünütərif onların 2020-ci ildə, daha sonra isə 2023-cü ildə torpaqlarımızdan rüsvaycasına qaçmağa məcbur olmaları ilə nəticələndi. Buna görə də dərhal Silahlı Qüvvələrimizi gücləndirməklə məşğul olmağa başladıq. Xüsusilə İkinci Qarabağ müharibəsi həm güclü tərəflərimizi, həm də daha yaxşı nəticələr əldə etmək də daxil olmaqla, idarəetməni təkmilləşdirmək üçün fəal şəkildə işləməli olduğumuz sahələri açıq şəkildə nümayiş etdirdi. Çünki hətta Zəfərlə nəticələnsə və bizimki kimi müzəffər olsa belə, nəticə çıxarmaq üçün həmişə əvəzsiz bir təcrübədir. Mən məhz bunu əsas götürdüm.

Güclü tərəfləri gözəl bilərək, eyni zamanda biz lazım olanları düzəltməklə məşğul olduq. Hərçənd onların sayı az idi. Amma, necə deyərlər, mükəmməlliyin sərhədi yoxdur. Ona görə də bu beş il ərzində Silahlı Qüvvələrimiz təkmilləşirdi. Həmçinin bu beş ildə 2023-cü il hadisələrini və 2022-ci il hadisələrini, məhz Ermənistanın Qarabağı Azərbaycanın ərazisi kimi tanımasını mahiyyətcə müəyyənləşdirən bir neçə mühüm hərbi əməliyyat oldu. Axı, bu, könüllü surətdə baş vermədi. Bu, ona görə baş verdi ki, biz 2020-ci ildən buna siyasi yolla nail olmağa çalışmışıq.

Başqa vasitələrə əl atmaq lazım gələndə biz bunu etdik, amma ölçülü və nəzarətli şəkildə. 2020-ci ilin noyabrından 2023-cü ilin sentyabrına qədər atdığımız heç bir addım kortəbii, emosional və ya reallıqdan kənar deyildi. Hər şey tək bir məqsədə tabe idi: Ermənistanı "miatsum siyasəti"ni davam etdirməyin fəlakətli olduğuna inandırmaq. Müəyyən dərəcədə bu, uğurlu oldu və 2022-ci ilin oktyabrında Ermənistan Qarabağı rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanıdı.

Bu, vacib idi, amma hələ hər şey deyildi, çünki hamısı, sadəcə, sözdə idi, lakin əməldə hər şey davam edirdi. Mina tədarükü, hərbi qulluqçuların rotasiyası, ordunun maliyyələşdirilməsi, silah tədarükü - bütün bunlar Qarabağın rəsmi olaraq Azərbaycanın bir hissəsi kimi tanınmasına baxmayaraq davam edirdi. Sonra həm Ermənistanla şərti sərhəddə, həm də Rusiya sülhməramlılarının yerləşdiyi ərazidə başqa tədbirlər görməyə məcbur olduq. Həm də bunu heç kimə və heç nəyə məhəl qoymayaraq etdik, çünki etməli olduğumuzu bilirdik. Əgər bunu etməsəydik, heç bir 8 avqust olmazdı. İndiyədək heç bir sülh də olmazdı və separatçılar bu günədək özlərini qorunmuş hiss edərək və Azərbaycan dövlətinə meydan oxuyaraq sərbəst hərəkət edərdilər.

Təbii ki, biz buna dözmək fikrində deyildik. Brüsseldəki görüşlərdə erməni həmkarıma dəfələrlə demişdim ki, səbrimizi sınamaq lazım deyil, orada kimin olmasından və ya başqalarının nə deməsindən asılı olmayaraq, istənilən an "Laçın dəhlizi" adlanan əraziyə nəzarəti tamamilə ələ keçirə bilərik. Təəssüf ki, arqumentlərim istənilən effekti vermədi, biz bunu 2023-cü ilin sentyabrında nümayiş etdirməli olduq. Lakin 2023-cü ilin sentyabr ayına hazırlıq görülməli idi və hələ nəzarətimiz altında olmayan ərazi də daxil olmaqla, yerində buna hazırlıq görülməli idi.

Ona görə də Qarabağda strateji yüksəkliklərin ələ keçirilməsi üzrə aparılan həmin əməliyyat tədbirləri mahiyyətcə ona gətirib çıxardı ki, sentyabrın 19-20-də separatçıları kapitulyasiyaya məcbur etmək üçün bizə cəmi bir neçə saat lazım oldu. Yəni demək istəyirəm ki, bu 5 il ərzində biz, sadəcə, hazırlıq görmürdük, həm də hərəkət edirdik. Ermənistanda bu gün deyilənləri anladıqları zaman, - düzgün də deyirlər, hesab edirəm ki, bu, çox məntiqlidir, - belə ki, öz sərhədləri ilə real Ermənistan var və biz bu sərhədləri tanımadığımız müddətdə onlar mövcud deyil. Əgər xatırlayırsınızsa, onları nizamlamaq lazım gəldiyi zaman mən deyirdim ki, sərhəd bizim lazım bildiyimiz yerdə olacaq.

Bununla paralel olaraq yenidən silahlanma, yeni silahlı dəstələrin yaradılması prosesi gedirdi, mən bu barədə paradda çıxışımda qısaca danışmışam. Onların bir hissəsi nümayiş etdirilib, bir hissəsi nümayiş etdirilməməlidir, amma zamanı gələcək. İstənilən halda biz potensialımızı xeyli gücləndirmişik. Əgər Azərbaycan Ordusunu bu gün və Vətən müharibəsində qalib gəldiyimiz həmin vaxtın silahları və döyüş qabiliyyəti ilə müqayisə etsək, hazırda biz bir neçə dəfə güclüyük. Zənnimcə, bu, vəziyyəti qiymətləndirmək üçün kifayətdir. Neçə dəfə olduğunu deməyəcəyəm, amma bir neçə dəfə. Əlbəttə ki, bu, bizə öz gücümüzə inanmağa əsas verir.

Axı bu müddət ərzində regionumuzda Azərbaycanın iştirakı ilə bir çox həyəcanlı proseslər də baş verib, diplomatik olaraq qeyd edim ki, onlar Ermənistanla bağlı deyil və biz bütün bu ağır sınaqlardan layiqincə, öz vicdanımızla, ilk növbədə ləyaqətimizlə kompromisə getmədən çıxdıq. Hamıya, kimə lazımdırsa sübut etdik ki, bizə hörmətlə yanaşmaq lazımdır və biz kobudluğa, həyasızlığa və diktə cəhdlərinə dözməyəcəyik. Bunun üçün döyüş qabiliyyəti olan orduya malik olmaq lazımdır. Mən Yeni il müraciətimdə bildirdim ki, biz müharibəyə hazırlaşmırıq və bu, həqiqətən də belədir. Hesab edirəm və ümidvaram ki, müharibələr arxada qalıb, amma heç kim zəmanət verə bilməz. Axı, biz dünyada hadisələrin necə dəyişdiyini görürük.

Bir daha dediklərimə qayıdaraq qeyd edirəm ki, beynəlxalq hüquq, Birləşmiş Millətlər Təşkilatı - onların hamısı artıq rudimentə çevrilib. Hər şey o qədər köhnəlib ki, onlara istinad etmək, sadəcə, qeyri-ciddidir, bundan yapışıb qalanlar isə, sadəcə, köhnə reallıqda yaşayırlar. İndi yeni reallıq mövcuddur, əlbəttə ki, onu böyük ölkələr yaradır, amma əgər ölkə çox böyük deyilsə, o cümlədən siyasi, hərbi və iqtisadi potensiala malikdirsə, onda o da yeni reallığın yaradılmasına öz töhfəsini verə bilər. Zənnimcə, bizim İkinci Qarabağ müharibəsindəki Qələbəmiz, - mən bunu bir dəfə demişəm, - həm siyasi, həm də xarakterli çox böyük layları yerindən oynadıb. Yəqin ki, bir çoxları bizim uğurumuzu təkrar etmək istərdi, amma bu, heç kimə müyəssər olmayıb. Ümidvaram ki, bu gün hələ də döyüşən tərəflər anlayacaqlar ki, müharibə bir ölkə və yaxud insanın başına gələcək ən pis şeydir. Mən bunu tam məsuliyyətlə deyirəm. Bu, ən pis sayılmalıdır. Ən yaxşı isə, sülhdür. Amma sülh olması üçün güclü olmalısan, beləliklə, bu istiqamətdə fəaliyyətimizi davam etdirəcəyik.

**Mirşahin AĞAYEV:** ***Cənab Prezident, əslində, mən moderator olaraq səlahiyyətlərimdən sui-istifadə etməli olacağam. Ona görə ki, indi bu sualı verməsəm, sonradan bu mövzuya qayıtmaq çətin olacaq. Elə bu kontekstdə soruşmaq istəyirəm, Azərbaycanda müdafiə sənayesinin inkişafı - həm daxili tələbatın ödənilməsi, həm də ixrac baxımından hərbi təyinatlı məhsulların istehsalı sahəsində vəziyyətimiz necədir?***

**Prezident İlham ƏLİYEV:** Biz son vaxtlar bu istiqamətə yeni prizmadan yanaşmağa başlamışıq və mənim göstərişimlə özəl şirkətlər bu sahəyə cəlb olunublar. Bildiyiniz kimi, mənim sərəncamımla hələ 20 il bundan əvvəl Müdafiə Sənayesi Nazirliyi yaradılanda, o vaxt biz bunu dövlət inhisarında olan sahə kimi qiymətləndirirdik. Ancaq illər keçdikcə və xüsusilə beynəlxalq təcrübəyə baxdıqda gördük ki, bir çox ölkələrdə aparıcı rollarda özəl şirkətlərdir. Bir də ki, özəl şirkətləri bu işə cəlb etməklə biz dövlət üzərinə düşən yükü də, maliyyə yükünü də azaltmış ola bilərik. Ona görə son iki il ərzində dövlət şirkəti ilə bərabər özəl şirkətlərə də imkanlar verildi. Bu günə qədər 15 şirkətə lisenziya verilib, təbii ki, bu sahə lisenziya tələb edən sahədir. Artıq 7 özəl şirkət hərbi təyinatlı məhsulun istehsalına başlayıb. Əgər biz qoyulan sərmayənin həcminə baxsaq görərik ki, yeni istehsal sahələri yaratmaq və mövcud olanları genişləndirmək üçün 2024-2025-ci illərdə bir milyard manat dəyərində sərmayə qoyulub. Bunun da yarısı özəl sektor tərəfindən qoyulubdur. Yenə də bu sahə ictimaiyyət üçün bir qədər qapalı olduğu üçün geniş məlumat verilmir. Ancaq bu proses çox geniş vüsət alıb.

Biz keçən il 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal etmişik. Onun böyük hissəsi Azərbaycan Silahlı Qüvvələrinə verilib, bir hissəsi isə ixrac edilib. Bu gün Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

Yeniliklərdən biri də odur ki, biz böyük, dünyanın aparıcı müdafiə sənayesi şirkətləri ilə Azərbaycanda birgə müəssisələr yaratmışıq. Burada həm pilotsuz uçuş aparatları, artilleriya qurğuları, digər vasitələr, silah-sursat istehsalı nəzərdə tutulur. Biz bu sahəyə bir neçə prizmadan baxırıq. Birincisi, daxili istehlakı daxili istehsalla maksimum təmin etmək. İkincisi, böyük sənaye sahəsi yaratmaq. Üçüncüsü, müasir kadr potensialı yaratmaq və ixrac imkanlarımızı genişləndirməkdir ki, bu sahəyə, eyni zamanda gəlir gətirən sahə kimi baxmağa başlamışıq.

Yenə də deyirəm, ilkin mərhələdə məqsəd ancaq idxaldan asılılığı azaltmaq idi. Bu gün isə biz buna, o cümlədən biznes istiqaməti kimi baxırıq. Çünki dünyada, əfsuslar olsun ki, müharibələrin sayı artır, hərbi təyinatlı məhsullara tələbat artır. Onların qiyməti kəskin artıb. İlk növbədə, sursatların qiyməti kəskin artıb. Ona görə bu, bizim üçün alternativ valyuta mənbəyi ola bilər və qoyduğum qısamüddətli hədəf ixracı bir milyard dollara çatdırmaqdır. Hesab edirəm ki, biz bu rəqəmə üç-dörd ilə çata bilərik. Bu, tam realdır. Xarici şirkətlərdən də çox böyük maraq var, yerli şirkətlər də fəal işləyirlər. Yəni əminəm ki, yaxın gələcəkdə Azərbaycan ictimaiyyəti bu sahədə gedən işlərlə tanış olacaq.

**Nadia CANİ:** ***Cənab Prezident, mən əslində ordu ilə bağlı cavabınıza qayıtmaq istəyirəm. Çünki Siz Yeni il müraciətinizdə Azərbaycanın müasir silahlar hesabına hərbi imkanlarını gücləndirdiyini qeyd etdiniz, eyni zamanda müharibənin artıq keçmişdə qaldığını dediniz. Dünyada bir çox ölkənin "güc haqlıdır" şüarını əsas götürərək silahlanmanı artırdığı bir şəraitdə bu mesajlar arasında tarazlığı necə qoruyursunuz?***

**Prezident İlham ƏLİYEV:** Bildirdiyim kimi, təəssüf ki, beynəlxalq hüququn norma və prinsipləri faktiki olaraq işləmir. Azərbaycan isə beynəlxalq hüququn işləməməsinin ilk qurbanlarından biri olmuşdur. Torpaqlarımız işğal edildikdən sonra Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin bu qətnamələr 27 il ərzində kağız üzərində qaldı və əgər biz öz torpaqlarımızı güc yolu ilə azad etməsəydik, onlar əbədi olaraq icrasız qalacaqdı. Bizim müharibəmiz ədalətli müharibə idi və biz öz ərazimizdə vuruşurduq. Biz heç bir başqa ölkəni işğal etməmişik, heç bir ölkəyə hücum etməmişik. Hərbi əməliyyatları BMT Nizamnaməsinin 51-ci maddəsinə, xüsusilə özünümüdafiə hüququna əsaslanaraq həyata keçirmişik.

İkinci Qarabağ müharibəsindən beş il keçdiyini nəzərə alsaq, aydın şəkildə görürük ki, bütün dünya, beynəlxalq ictimaiyyət, o cümlədən aparıcı ölkələr və nüfuzlu beynəlxalq təşkilatlar yeni reallıqları qəbul edib. Beləliklə, biz yerindəcə reallıq yaratdıq. Mən bunu artıq bir neçə dəfə xatırlatmışam - ovaxtkı ATƏT-in Minsk qrupu ilə çoxsaylı görüşlərim zamanı onlar Azərbaycana reallıqları qəbul etməyi tövsiyə edirdilər. Təhlükəsizlik Şurasının qətnamələri, beynəlxalq hüquq və beynəlxalq hüququn pozulması ilə bağlı bütün arqumentlərim isə yenə də qəti səssizlik ilə qarşılanırdı.

*Ardı 5-ci səh.*

# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

Əvvəli 4-cü səh.

Beləliklə, "yerdəki reallıqlar" məsələsi ortaya qoyulmuşdu. Mən də dedim: yaxşı, onda biz bu reallıqları dəyişəcəyik. Biz bunu etdik və bu gün bütün dünya bunu tanıyır. Qondarma "Dağlıq Qarabağ Respublikası" heç kim tərəfindən tanınmamışdı, bu, qeyri-qanuni bir qurum idi. Lakin bizim Qələbəmiz və azad edilmiş ərazilər üzərində suverenliyimiz bütün dünya, eləcə də Ermənistan tərəfindən tanınır.

Eyni zamanda beynəlxalq münasibətlər son dərəcə gözlənilməz şəkildə inkişaf edir. Beynəlxalq hüquq faktiki olaraq işləməsə də, beynəlxalq arenadakı əsas oyunçular, - ən azı zahirən, - beynəlxalq hüquqa sadiq olduqlarını nümayiş etdirməyə çalışırdılar və qeyri-qanuni addımlar atarkən həmişə terminologiya ilə manipulyasiya etməyə can atırdılar, öz müqəddəratını təyinetmə anlayışından istifadə edilirdi, lakin bu prinsipin dövlətlərin ərazi bütövlüyünə xələl gətirməməli olduğu isə ya nəzərə alınmır, ya da bilərəkdən gözardı edilirdi.

Amma hər hansı ərazi iddiası üçün "öz müqəddəratını təyinetmə" bəhanəsi Azərbaycan üçün çox yaxşı tanışdır. Biz haqlı olduğumuzu dünyaya izah etməyə çalışarkən, "öz müqəddəratını təyinetmə prinsipi dövlətin ərazi bütövlüyünə qarşı qoyula bilməz və təcavüzkar separatizm qınanmalıdır" deyərkən, yenə qəti səssizlik, laqeydlik və bəlkə də bir qədər də təkəbbürlə üzləşirdik, ta ki biz torpaqlarda vuruşub düşməni məğlub edənə qədər. Ondan sonra vəziyyət dəyişdi.

Amma bir daha deyirəm, bir neçə il əvvəl bəzi düşməncəsinə hərəkətləri yarım-beynəlxalq hüquq düsturları ilə ört-basdır etməyə cəhdlər olurdusa, indi belə deyil. İndi isə heç kəs kim nə deyir, hansı təşkilat hansı qətnaməni qəbul edir kimi məsələlərə əhəmiyyət vermir. Dünyada baş verən hadisələr - müharibələr, münaqişələr göz önündədir. Bəs, guya demokratik Avropada nə deyirlər? "Biz narahatıq, vəziyyəti izləyirik, mövqeyimizi nəzərdən keçiririk". Beynəlxalq hüquq pozulanda güclü olan haqlıdır. Bu, bizim seçimimiz deyil. Biz hər zaman həqiqətə sadiq olmuşuq, həmçinin hər zaman ədalətə sadiq olmuşuq. Biz heç vaxt ədalətə uyğun olmayan heç bir şey etməmişik. Gördüyümüz bütün işlər tarixi, hüquqi və insani ədalətə əsaslanıb. Lakin dünya dəyişib. Biz kağız - BMT Nizamnaməsi üzərində olan dünyada yaşamırıq, torpaq üzərində yaşayırıq. Ona görə də, güclü olmalıyıq, biz də bunu etməyə çalışırıq. Mən hər bir ölkəyə bunu tövsiyə edirəm.

**Elmira MUSAZADƏ:** ***Cənab Prezident, icazənizlə, regional münaqişələrə aid daha bir sual verim. Yəqin son zamanların ən kəskin münaqişəsi Yaxın Şərqdəki vəziyyətdir və sözsüz ki, Qəzza sektorundakı şəraitdir. Azərbaycan çox az ölkələrdən biridir, ola bilər hətta yeganə dövlətdir ki, həm İsraildə, həm də ərəb, islam dünyasında bərabərhüquqlu tərəfdaş kimi qəbul edilir. Azərbaycanın vəziyyətin sabitləşməsi üzrə hər hansı əməliyyatlarda potensial iştirakı nəzərdən keçirilir? Ola bilər ki, beynəlxalq mandat və hər iki tərəfin razılığı olacağı təqdirdə Azərbaycan sülhməramlı qüvvələrinin iştirakı mümkündür?***

**Prezident İlham ƏLİYEV:** Bizə belə müraciətlər daxil olub. Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər. Bizim İraqda, buna qədər isə həm Kosovoda, həm də özlüyündə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etmək təcrübəmiz var, ona görə də fəaliyyətin strukturunu çox gözəl bilirik.

Qəzza sektorunda vəziyyətə gəldikdə, zənnimizcə, kimin mandat verəcəyi və onun necə olacağı indiyədək aydın deyil. Bu, sülhməramlı əməliyyatlar, yaxud sülhün bərqərar olması - ingiliscə deyildiyi kimi, "peacekeeping" və ya "peace enforcement" olacaq. Bunlar iki ayrı-ayrı məfhumlardır. Təbii ki, biz ikinciyə hazır deyilik və hətta heç vaxt öz iştirakımızı nəzərdə tutmamışıq. Əfqanıstanda bizim sülhməramlı missiyamıza gəldikdə, xoşbəxtlikdən və o cümlədən mövqeyimiz sayəsində bizim heç bir zərərçəkənimiz olmadı. Yəni bütün bu illər ərzində qurban vermədik, məhz ona görə ki, öz funksiyamızı strateji obyektlərin qorunmasında görürdük. Biz heç vaxt döyüş əməliyyatlarında iştirak etmədik və Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur.

Amerikalı tərəfdaşlarımızın diqqətinə çatdırdığımız ikinci amil ondan ibarət idi ki, mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir. Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik. Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib. Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində. Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir. İndiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır. Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil.

Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-nin BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika Administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz. Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur. Beləliklə, sağ olun ki, siz bu sualı verdiniz, çünki xarici mətbuatda bu mövzuda çoxlu sayda şayiələr dolaşır. Xüsusilə Amerika diplomatiyasının yüksəkrütbəli məmurunun bu cür məsuliyyətsiz və yalan bəyanatlar verdiyi vaxt. Bu, həm də mənə imkan verdi ki, istər bizim, istərsə də beynəlxalq auditoriyanın diqqətinə bu məsələ ilə bağlı bizim mövqeyimizi çatdırım.

**Murad HÜSEYNOV:** ***Cənab Prezident artıq bir neçə ildir ki, Azərbaycan bərpaolunan enerji mənbələrinə xüsusi önəm verir, bu istiqamətdə işləyir. Sizin fikrinizcə, Azərbaycanın gələcək inkişaf modelində bərpaolunan enerji mənbələri hansı rolu oynayacaq? Bir az əvvəl həmkarımın sualına cavab verəndə Siz informasiya texnologiyalarına, süni intellekt texnologiyalarına toxundunuz. Bərpaolunan enerjinin bu sahəyə töhfəsi varmı?***

**Prezident İlham ƏLİYEV:** Bəli, mütləq var. Biz bu prosesə başlayanda, əlbəttə ki, əsas güddüyümüz məqsəd təbii imkanlarımızdan maksimum istifadə etmək idi. Çünki beynəlxalq təşkilatlar artıq bizim potensialımızı dərindən təhlil edərək təsbit ediblər. Bizim təkcə külək enerjisi potensialımız 150 qiqavatdan çoxdur. Günəşli günlər də, Allaha şükür, çoxdur, həm Bakıda, həm bütün bölgələrimizdə. Xəzər dənizinin külək enerjisi potensialı kifayət qədər böyükdür. Ona görə bundan istifadə etməmək günah olardı.

Biz bu imkanları dünya energetika aləminə təqdim edəndə onlardan böyük maraq gördük. Bu gün bizim əsas investorumuz Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətidir, hansı ki, birinci günəş-elektrik stansiyasını inşa edib, 230 meqavat gücündə. İkinci stansiya yaxın günlərdə istismara veriləcək. Burada da investor Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətidir. O da 240 meqavat gücündə olan stansiyadır. Üçüncü böyük stansiyanı BP şirkəti Cəbrayıl rayonunda inşa etməyə başlayıb, o da 240 meqavatdır. Bu, sadəcə olaraq, başlanğıcdır. Eyni zamanda Çin və Türkiyə şirkətləri də maraq göstərirlər. Biz Azərbaycan şirkətlərinə də müraciət etdik və bu sahə gəlirli olduğu üçün və ölkəyə lazım olduğu üçün onlara da müraciət etdik və artıq yerli şirkətlər də bu işlərə qoşulublar. Hətta keçən ilin sonunda mən Cəbrayılda iki stansiyanın təməlini də qoydum.

Günəş və külək-elektrik stansiyalarının xəritəsi təsdiqlənib, həm quruda, həm də dənizdə, o cümlədən azad edilmiş torpaqlarda. Hazırda bizim əsas vəzifəmiz enerji mənbələrini qəbuletmə imkanlarını genişləndirməkdir. Çünki mövcud olan planlara görə, 2030-cu ilə qədər 6000 meqavat, 2032-ci ilə qədər isə 8000 meqavat Günəş, külək və su enerjisi bizim sistemimizə daxil ediləcək. Yəni bunu qəbul etmək, həzm etmək üçün biz enerji sistemimizi gücləndirməliyik. Buna "Energy Grid" deyirlər.

Bununla paralel olaraq batareya saxlanc sistemləri də qurulmalıdır. Biz ilkin mərhələdə xarici şirkətlərə müraciət etdik ki, onlar investor kimi bu işi görsünlər. Amma gördük ki, böyük maraq yoxdur. Yəni dövlət xətti ilə təxminən 250 meqavat gücündə birinci batareyalar artıq quraşdırılır, amma daha da çox olacaq. Çünki bizim, yenə də deyirəm, qısamüddətli planlarımız 8 qiqavat enerji əldə etməkdir.

Əminəm ki, biz bunu edəcəyik. Çünki artıq kontraktlar imzalanıb, anlaşma memorandumları yox, kontraktlar, bu, artıq hüquqi öhdəlikdir. Bu, bizə nə verəcək? Təbii ki, enerji üçün istehlak olunan qaza qənaət və mövcud olan qazı da ixrac etmək üçün imkanlar olacaq. Biz bunun üçün də mövcud qaz infrastrukturumuzu genişləndiririk, Azərbaycanda yox, başqa yerlərdə. Bu, imkan verəcək ki, biz təmiz enerjini ixrac edə biləcəyik və bildiyiniz kimi, Qara dəniz kabel layihəsi var. Onun texniki-iqtisadi əsaslandırması hazır olsa da, maliyyə mənbələri hələlik aydın deyil. Bizim mövqeyimiz belədir ki, biz enerjini burada istehsal edirik, yeni ötürücü xətləri Gürcüstan sərhədinə qədər çatdırırıq. Çünki yeni xətlər lazımdır. Qalanı isə artıq o biri ölkələrin maliyyə öhdəliyi olmalıdır. Bunu nəzərə alaraq, qeyd etdiyim kimi, Qazaxıstan və Özbəkistan ilə Xəzər dənizinin altı ilə kabelin tikintisini də razılaşdırdıq. Burada da indi texniki-iqtisadi əsaslandırma gedir.

Üçüncü mümkün olan variant, ya da hər bir variant birlikdə də mümkündür, bu, enerjini burada istehlak etməkdir. Burada da yenə də deyirəm, süni intellekt və data mərkəzləri ən çox enerji tələb edən layihələrdir. Yenə də nə Cənubi Qafqazda, nə Orta Asiyada, nə yaxın qonşuluqda bizim qədər sərbəst enerji gücü ola biləcək ikinci ölkə yoxdur. Çünki bəzi ölkələr elektrikə çevirmək üçün xaricdən təbii qaz alır, bəzi ölkələr xaricdən elektrik enerjisi alır, çünki özləri üçün çatmır. Biz isə həm enerji satırıq, həm ixrac edirik - həm qaz, həm neft, həm neft məhsulları, həm neft-kimya məhsulları, həm də əsas xammal olan təbii qaz gübrələri. Yəni bizdə bütün tsikl tam formalaşıb: həm daxili istehlak, həm ixrac.

Ona görə biz, əlbəttə ki, bu istiqamətdə öz fəaliyyətimizi davam etdirəcəyik. Bu gün bu sahəyə sərmayə qoymaq istəyən şirkətlərin sayı o qədərdir ki, yenə də deyirəm, bax, bizim bu enerji mərkəzlərimiz bunu həzm edə bilmir. Ona görə biz "Energy Grid", yəni enerji mərkəzlərini o qədər gücləndirməliyik ki, nəinki 8, gələcəkdə hətta 20, 30, 40 qiqavat qəbul edə bilək və ötürə bilək.

**Mümtaz XƏLİLZADƏ:** ***Cənab Prezident, Azərbaycanın müasir nəqliyyat infrastrukturu. Siz həmkarımın suallarını cavablandırarkən bu məsələyə qısaca da olsa toxundunuz. Mən istərdim, daha geniş şərh verəsiniz. Çünki həm Azərbaycanın müasir nəqliyyat infrastrukturu, xüsusən də Bakının nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində hansı işlər görüləcək, hansı tədbirlər nəzərdə tutulub? Zəhmət olmasa, bu barədə də məlumat verərsiniz.***

**Prezident İlham ƏLİYEV:** Bəli, biz Bakıda bir çox önəmli nəqliyyat layihələrini icra etdik, mən onların bəzilərini sadaladım. Bu, bizə imkan verdi ki, müəyyən mərhələdə özümüzü tıxaclardan sığortalayaq. Ancaq inkişaf göz qabağındadır, əhali artır, maşınların sayı artır. Hər il ölkəmizə on minlərlə yeni avtomobil gətirilir. Onların istismar müddəti ilə bağlı indi müəyyən məhdudiyyətlər də qoyulur. Yerli avtomobil istehsalı artır. Ona görə mövcud yol infrastrukturu artıq bizə kifayət etmir.

Onu da bilməliyik ki, biz Bakının tarixi memarlıq ansamblını dəyişdirə bilmərik. Yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi bir çıxış yolu ola bilər. Bu istiqamət üzrə bizim Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi beynəlxalq mütəxəssisləri cəlb etməklə fəal işləyir. Artıq Bakının yeni yol infrastrukturunun xəritəsi təsdiqləndi. Qeyd etdiyim kimi, 10 yeni metro stansiyasının yeri də müəyyən olundu. O yerlər artıq onların sərəncamına verildi. Bundan başqa, əlavə iki depo da tikiləcək. Mövcud olan metro stansiyalarında optimallaşma layihələri icra edilir. Mən qeyd etdim, son 20 il ərzində yeddi metro stansiyası tikilib. Əgər onlar tikilməsəydi, görün, indi vəziyyət necə olacaqdı?

Mikromobillik, piyadalar üçün daha geniş məkanın verilməsi və bəzi küçələrin ancaq piyadalar üçün təşkili prosesi davam edir və yaxın aylarda ictimaiyyət bunu görəcək. Eyni zamanda Bakıda yeni ictimai yerlərin yaradılması çox geniş vüsət alıb. Yeni parklar, ictimai zonalar, istirahət zonaları yaradıldıqda mütləq onun nəqliyyat infrastrukturu da paralel olaraq öz həllini tapır. Misal üçün, biz bunu Mərkəzi Parkın timsalında görə bilərik. Vaxtilə çox ensiz, dar küçələr idi. İndi çox geniş küçələr və faktiki olaraq bu istiqamətdə, yəni Heydər Əliyev Sarayından da yuxarı istiqamətə getmək üçün çox geniş imkanlar yaradılıb.

"Sovetski" adlandırılan ərazinin köçürülməsi prosesi davam edir və orada da ancaq ictimai yerlər, parklar salınmalıdır. Süni göllər yaradılacaq və nəqliyyat sistemi qurulacaq, o cümlədən metro stansiyaları, Ağ Şəhərdə metro stansiya. İndi velosiped zolaqlarının yaradılmasına başlanılmışdır. Bilirəm, bəziləri bundan narazıdır. Amma inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, bu da bir çıxış yoludur. Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik.

Təbii ki, dəmir yolları da öz rolunu oynamalıdır. Bu gün Bakı-Sumqayıt dəmir yolu fəal işləyir. Əgər o yol olmasa, indi təsəvvür edin, nə ola bilərdi? Yaxud da ki, Bakıda 50 tunel, ya 50-yə yaxın körpü tikilməsəydi. Vaxtilə o dairələr var idi, yadınızdadır, neçə dairə idi?! Elə buradan şəhərə gedəndə bəlkə üç-dörd dairə var idi. İndi onların hamısı yox olub, əvəzinə yol ötürücüləri yaradılıb.

Yəni bu, ciddi məsələdir və biz ciddi məşğuluq, proqram qəbul edilib, vəsait səfərbər olunub. Hesab edirəm ki, növbəti beş il ərzində bu əsas problemlər öz həllini tapmalıdır.

**Nadia CANİ:** ***Cənab Prezident, mən enerji mövzusuna qayıtmaq istərdim. Çünki ötən ilin dekabrında biz ölkə üçün bir ilkin şahidi olduq - yanacaq daşıyan yük qatarı Azərbaycandan Gürcüstan vasitəsilə Ermənistana keçdi. Həmçinin Azərbaycan infrastrukturunun yenidən qurulmasına yardım etmək üçün Türkiyə vasitəsilə Suriyaya enerji ixrac etdi. Ona görə də mən bilmək istəyirəm, Azərbaycanın enerji daşıyıcılarının paylanması və təbii qaz istehsalı ilə bağlı strategiyası nədən ibarətdir? Bu qaz dəhlizləri regional inkişaf və iqtisadi artım üçün nə dərəcədə vacibdir?***

**Prezident İlham ƏLİYEV:** Həcm və coğrafiya baxımından bizim qaz ixracımız artır. Biz indiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz etmişik. Elə ölkələr var ki, onlar 2024-cü ildə bizdən qaz əldə edib, lakin sonra başqa mənbələrlə əlaqədar dayandırıb. Bu, bir növ tələbata əsaslanır, onların ehtiyacı olanda biz təchizata başlayırıq, ehtiyacı olmayanda dayandırırıq. Lakin ümumilikdə Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub. Bu artımın iki mənbəyi var. Birincisi, mən söylədiyim kimi, bərpaolunan enerji. Bərpaolunan enerjimiz nə qədər çox olsa, biz ixrac üçün o qədər çox qaza qənaət edə bilərik. İkincisi, mövcud və yeni yataqlardan yeni hasilat. Bunların arasında biz "Azəri-Çıraq-Günəşli" dərin qaz yatağından yeni hasilat gözləyirik. Bildiyiniz kimi, bu yataqdan çoxlu neft hasil edilir, həmçinin dərində böyük qaz yataqları var. Məhz buna görə onu "dərin qaz yatağı" adlandırırlar. Hasilatın bu il başlanmasını gözləyirik. Biz, həmçinin qarşıdakı illərdə "Şahdəniz"də əlavə həcmdə qaz təmin edəcək yeni mərhələnin başlanmasını gözləyirik, bu, "Şahdəniz Kompressiya" adlanır. Həmçinin "Babək" yatağı var, çox böyük və ümidvericidir, bir sıra şirkətlər investor olmaq istəyir. Sözsüz ki, ölçüsünə görə "Şahdəniz"lə müqayisə oluna biləcək yataq "Abşeron"dur. Hazırda orada birinci mərhələ üzrə hasilat həyata keçirilir ki, biz bunu yerli istehlak üçün əldə edirik. "Abşeron"un ikinci mərhələsi bizə ola bilsin bugünkündən 3 dəfə daha çox qaz təmin edəcək ki, bazarlar üçün daha çox olsun. Bizim qazımız onu artıq əldə edən və həcmi artırmaq istəyən ölkələrə, həmçinin onu hələ əldə etməmiş ölkələrə lazımdır.

Suriya ötən il bizim yeni tərəfdaşımız oldu. Biz şadıq ki, Suriya hökumətinə elektrik enerjisi çatışmazlığını azaltmağa kömək edirik. Çünki müxtəlif hesablamalara görə, bizim qazımız onlara elektrik enerjisi çatışmazlığını gündə təxminən 4 saatadək azaltmaq imkanı verir. Biz təchizatı artırmaq variantını nəzərdən keçiririk. Şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi yaxşı nüfuza, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Çünki müştərilərimizin əksəriyyəti Avropa İttifaqının üzvləridir. Bütün bunlar çox müsbət amillərdir.

Həmçinin faydalı qazıntı allergiyasına gəldikdə, siz yəqin ki, dəyişikliyi görürsünüz. Biz bunu bir neçə il öncə müşahidə etdik, o vaxt hamı faydalı qazıntıya zidd mövqedən çıxış edirdi, hər kəs bərpaolunan enerji haqqında danışırdı. Prezident Tramp və onun administrasiyası bu yanaşmanı dəyişdi. Bildiyiniz kimi, o, bərpaolunan enerjiyə qəti şəkildə qarşıdır və faydalı qazıntının tərəfdarıdır. Birləşmiş Ştatlar isə birmənalı olaraq dünyanın aparıcı ölkəsidir və orada baş verən hadisələr müxtəlif istiqamətlərə təkan verir.

Bilirəm ki, Avropanın bəzi maliyyə təsisatları əvvəlcə tam qadağan edilən faydalı qazıntılara aid siyasətinə yenidən baxmağa başlayıblar. İndi isə onlar faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini nəzərdən keçirməyə başlayıblar. Aparıcı enerji şirkətləri, sadəcə, əsas tendensiyaya uyğun gedirdi və bəziləri hətta adlarından "neft" sözünü çıxarırdı. İndi isə onlar yenidən faydalı qazıntıya qayıdırlar. Bu, bəlli məsələdir və açığını desək, gülünc idi.

2024-cü ilin noyabrında burada, Bakıda COP29-a evsahibliyi edən ölkənin rəhbəri kimi çıxışımda bildirdim ki, - təkrar olmasın - bu reallıq kənara qoyula bilməz. Bütöv "yaşıl hərəkat" qrupları mənə hücum çəkdi və dedi ki, COP29-a ev sahibi olan ölkə faydalı qazıntını necə təşviq edə bilər?! Mən bunlara, sadəcə, reallığa əsaslanaraq söyləyirdim. Heç kəs hazırda faydalı qazıntını inkar edə bilməz. Onlar nə dərəcədə xoşunuza gəlməsə belə, siz onlarsız yaşaya bilməzsiniz. Əgər yaşaya bilərsinizsə, onda irəli! Lakin biz məsələyə realist yanaşmalıyıq.

Neft və qazla zəngin olan ölkələrin məsuliyyətinin olması Azərbaycan və digər ölkələr kimi misallarda görünür, çünki onlar, həmçinin "yaşıl enerji"yə sərmayə yatırırlar. Beləliklə, düşünürəm ki, hazırda Avropa təsisatları anlayırlar ki, faydalı qazıntıya münasibətdə qorxu aradan qalxmalıdır və praqmatik, realist yanaşma əsas götürülməlidir.

Azərbaycan bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaşdır. Enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolumuz yalnız artacaq, azalmayacaq, artacaq. Elektrik enerjisini, yaşıl enerjini, hidrogeni, eləcə də yaşıl hidrogeni əlavə etsək, rolumuz daha da böyük olacaq.

**Mirşahin AĞAYEV:** ***Cənab Prezident, ingilis dilində, rus dilində mükəmməl danışırsınız, amma Azərbaycan dili Sizdən ötrü həyati əhəmiyyətə malik bir anlayışdır. Noyabr ayının 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən iclasda Siz yenidən bu mövzunu qaldırdınız və Azərbaycan dilinin, ədəbi dilinin saflığının qorunması istiqamətində mediaya, ziyalılarımıza çox ciddi tapşırıqlar verdiniz. Ümumiyyətlə bu, yəqin ki, yalnız "Ayrılarmı könül candan? Azərbaycan, Azərbaycan!" deyəndə qəhərlənən Heydər Əliyevin Sizin təhtəlşüurunuzda buraxdığı iz deyil, bu, yalnız qrammatika deyil, yalnız leksika, nə bilim, morfologiya deyil. Burada ola bilər ki, orta statistik azərbaycanlının başa düşmədiyi bir dərin mətləb var. Niyə bu qədər Siz Azərbaycan dilini qorumağı tapşırırsınız, hər dəfə təkidlə, təkidlə, təkidlə? Nə təhlükə var?***

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ilk növbədə dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik.

İkincisi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır. Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür. Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq? Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış, biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir. Bunu mən tam əminliklə deyirəm və hamını bu mübarizəyə dəvət edirəm. Nə üçün mübarizə? Çünki bugünkü dünyada sən qapalı məkanda yaşaya bilməzsən. Sən dəmir pərdə ilə özünü bağlaya bilməzsən - istər-istəməz təmaslar, ondan sonra internet resursları, sosial şəbəkələr və sair. İstər-istəməz xarici kəlmələr daxil olur və sonra orada həzm olunur və ondan sonra istifadə edilir. Mən bunun əleyhinəyəm.

Mən heç bir dilin əleyhinə deyiləm, hər bir dilə də hörmət edirəm və mən daha çox dil bilsəydim, ancaq xoşbəxt olardım. Ancaq biz Azərbaycan dilimizi qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir. Dünyada 50 milyon azərbaycanlı yaşayır, amma əzəli, əbədi, ədəbi dili qoruyan bizik və çox istəyirəm ki, xaricdə yaşayan azərbaycanlılar da Azərbaycan dilini mükəmməl bilsinlər. Məişət səviyyəsində yox, mükəmməl bilsinlər. Buna böyük ehtiyac var. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəbləri yoxdur. Bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır. Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər. Çünki üçüncü-dördüncü nəsil azərbaycanlıların uşaqlarının artıq bəziləri ana dilini bilmirlər. Burada bir çox amillər birləşir. Əsas amillər əvvəl dediyim məsələdir və böyük xalq olduğumuz üçün mən çox istəyirəm ki, bütün azərbaycanlılar Azərbaycan dilində, bax, bizim kimi danışsınlar. Bu, mənim arzumdur. Bu, əlbəttə ki, çətindir, çünki xaricdə yaşayan azərbaycanlıların, təbii ki, hər birinin imkanı yoxdur. Amma arzum budur və burada jurnalistlərdən çox şey asılıdır. Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər. Mən hərdənbir eşidirəm televiziya verilişlərində, sizə aid deyil. Təbii ki, bizim ziyalılarımız, şairlərimiz, yazıçılarımız onların da sözünə böyük ehtiyac var, onlar da biganə qalmasınlar bu işə. Mən akademiyadakı çıxışımda bu məsələyə qısaca toxundum. Bu gün çərçivələri daha da açıram. Bu, ayrıca bir müsahibənin mövzusu ola bilər, çünki doğrudan da çox geniş mövzudur və sadəcə olaraq, biz hamımız vətəndaşları çağırmalıyıq ki, diqqətli olsunlar. Bu, sadəcə olaraq, belə demədim, elə dedim, deyil. Bunun çox dərin, necə deyərlər, layları var və dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq.

**Murad HÜSEYNOV:** ***Cənab Prezident, bu mövzunun davamı olaraq, dövləti, milləti güclü edən həm də elm və təhsildir. Bir neçə il bundan əvvəl Sizin savadlı millət, "qara qızıl"ı insan kapitalına çevirmək ilə bağlı konsepsiyanız var idi. Azərbaycanda elm və təhsil sahəsində mövcud vəziyyəti necə dəyərləndirirsiniz? Hansı addımlar atılmalıdır? Sizin gənclərə bu baxımdan tövsiyəniz nədən ibarət olardı?***

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz ki, biz artıq struktur dəyişiklikləri də etdik, Elm və Təhsil Nazirliyi yaradıldı. Nə üçün? Çünki faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Elmlər Akademiyası təbii ki, artıq uzun illərdir fəaliyyət göstərir və mən də yubiley tədbirlərində iştirak etmişəm. Amma, eyni zamanda dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır. Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir.

Ardı 6-cı səh.

# BİZ GÜCLÜ OLMALIYIQ

## Azərbaycan Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibə verib

*Əvvəli 5-ci səh.*



Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə, sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik.

Son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsi, - onların bir neçəsi xarici tərəfdaşlarla birlikdə, - yaradılıb. Məsələn, ikisi Rusiya, biri Fransa, biri Türkiyə, biri də İtaliya ilə - beş. Qalanını da özümüz, o cümlədən Xankəndi Universiteti. Bu, dövlətin niyyətidir, dövlətin siyasətidir. Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq.

Bizim çoxlu istedadlı gənclərimiz var. İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir. Mən 22 ildir bu kürsüdəyəm. Bütün bu hadisələr mənim gözümün qabağında baş verir və həm yaxşı, həm də pis təcrübə, hamısı məndədir. Mən onun hamısını yaşamışam və bu da mənə bu gün bu sözləri deməyə imkan verir. Kadr islahatı, elm-təhsil, cəmiyyətin ümumi intellektual səviyyəsi - çünki bunlar olmasa, onda nadir hallarda hansısa istedadlı şəxs meydana gələ bilər. Cəmiyyətin ümumi intellektual səviyyəsi, bilik səviyyəsi yüksək olanda, orada, necə deyərlər, pleyadalar, belə istedadlı şəxsiyyətlər yaranır. Əlbəttə, hər birimiz ölkəmiz üçün ancaq yaxşı günlər arzulayırıq və verdiyiniz bu sual da çox vaxtında verilən sualdır. Bu da ayrıca bir danışığın, yəni söhbətin mövzusudur. Ancaq hesab edirəm ki, biz düzgün yoldayıq və islahatlar davam etdiriləcək.

**Nadia CANİ:** ***Cənab Prezident, ötən il mənim "Kəskin Səyahət" Beynəlxalq Qrupunun göndərdiyi bir səyyahdan müsahibə götürmək fürsətim oldu. O və bir sıra digər şəxslər bölgəni təşviq etmək, yenidənqurma layihələrini müşahidə etmək məqsədilə Laçın, Xankəndi və Ağdamda əsas məkanlara səfər etdilər, yenidənqurma layihələrinə xüsusi maraq göstərdilər. Azərbaycan turizm imkanlarını əlavə olaraq necə daha səmərəli təşviq edə, zəngin mədəniyyətini necə nümayiş etdirə, turistləri nəinki paytaxta, eləcə də azad edilmiş ərazilərə necə cəlb edə bilər?***

**Prezident İlham ƏLİYEV:** Bəli, COVID-dən əvvəl bizdə turizm sahəsində kifayət qədər böyük artım var idi. Gələnlərin sayı hər il artırdı, sonra birdən-birə kəsildi. İndi biz həmin rəqəmləri bərpa edirik. Düşünürəm ki, bir neçə meyar Azərbaycanı cəlbedici edə bilər. Birincisi, təbii ki, təhlükəsizlik və sabitlikdir. Bu gün dünyada insanlar səyahət etmək qərarına gəldikdə onlar hər zaman ölkənin təhlükəsizliyini və sabitliyini nəzərə alırlar. Bir sözlə, Azərbaycan qlobal səviyyədə ən təhlükəsiz məkanlardan biri hesab edilə bilər.

İkincisi, onun yerləşməsidir. Ölkəmiz həm Asiyaya, həm də Avropaya yaxındır, bir növ onların qovuşduğu yerdədir. Əlbəttə ki, meyarlar sırasında zəngin mədəniyyət, tarixi abidələr, təbiətin müxtəlifliyi, doqquz iqlim tipi və inkişaf etmiş paytaxt var. Özü də təkcə paytaxt deyil, eləcə də bir çox turizm məkanları, doqquz beynəlxalq hava limanı, dəmir yolları və təbii ki, iqlim var. Bakıda və həmçinin bölgələrdəki iqlimi çox bəyənirəm. Xizəksürmə turizmi, çimərlik turizmi, piyada gəzinti, meşələr və xüsusən də nadir və bənzərsiz mətbəxi də əlavə etmək olar. Ölkəmizin çox qonaqpərvər, əcnəbiləri sevən insanları var. Bilirəm ki, Azərbaycanda yaşayan bir çox əcnəbilər özlərini evlərindəki kimi hiss edir.

Bir sözlə, ölkədə çox müsbət mühit, çox pozitiv insanlar var. Azərbaycan xalqı çox mehriban xalqdır. Ölkəmizə ilk dəfə səfər edən qonaqların, demək olar ki, hamısı Bakının gözəlliyi haqqında danışır. Görürük, onların çoxu deyir ki, insanlar gülərüzdür. Bir çox insanın üzündə təbəssüm var. Cəmiyyətdə yaxşı əhvali-ruhiyyə mövcuddur. Biz daha çox turist cəlb etmək üçün daha fəal olmalıyıq. Biz müxtəlif tədbirləri təşkil etməklə, bunları yerli səviyyədə və beynəlxalq arenada həyata keçirməyə çalışırıq. Misalçün, yarım milyard auditoriyası olan bir nömrəli idman tədbiri - "Formula-1" yarışları təşkil olunur. Artıq on ildir ki, bu yarışlar keçirilir. Turistlərin də sayı ilbəil artır.

Bu il, iki aydan sonra Şahdağda ilk dəfə olaraq Xizəksürmə üzrə dünya çempionatı keçiriləcək. Həmin istirahət guşəsini ən yüksək beynəlxalq səviyyədə inkişaf etdirmək həm də bizim hədəfimizdir. Hazırda enişlərin təxminən 50 kilometri artıq hazırdır. Məsafə, ola bilsin, 55 və ya 60 kilometr olacaq. Dünya çempionatı Şahdağda ilk dəfə keçiriləcək. Ölkəmiz Beynəlxalq Xizək Federasiyasının təqviminə artıq daxil edilib. Azərbaycan cənub ölkəsidir. Çimərliklər buradan uzaqda deyil. Öz həcminə, miqyasına və gözəlliyinə görə nadir olan "Sea Breeze" böyük tikinti layihəsi həyata keçirilir. Dünyanın heç bir yerində buna oxşar layihə yoxdur. Bir məkanda həm mehmanxana, həm əyləncə, həm yaşayış yerləri və digər imkanlar mövcuddur.

Qarabağ və Zəngəzura gəldikdə, bura cənnətdir. Həqiqətən təbii cənnətdir. Bir sözlə, orada turizmin inkişafı prioritetlərdən biridir. Şuşada və Laçında bir sıra mehmanxanalar artıq var. Biri Zəngilanda tikilir. Bu yaxınlarda, Kəlbəcərdə, İstisuda mehmanxana açılacaq. Ola bilsin, gələn il və hətta bu il Xankəndidə yeni mehmanxana açıla bilər. Bu, turizm üçün mühüm məkan olacaq. Bununla yanaşı, Qəbələ, Lənkəran, Gəncə və bir çox digər məkanlar kimi ənənəvi turizm yerləri də mövcuddur.

Çox məsələlər hava xətlərindən asılıdır. Bu sahədə, həmçinin bir çox islahatlar həyata keçirilir. Hazırda nəinki milli hava şirkətimiz, bir çox digər beynəlxalq hava şirkətləri, eləcə də büdcəli hava şirkətləri Azərbaycanda fəaliyyət göstərir. Uçuşların coğrafiyası genişlənir. Bəli, quru sərhədlər indiyə qədər bağlı qalır. Düşünürəm ki, bunun səbəbi anlaşılandır. Bununla belə, əminəm ki, turist sayını iki dəfə artırmaq, onu 5-6 milyona çatdırmaq tamamilə real görünür.

Planlaşdırdığımız işlər arasında Heydər Əliyev Beynəlxalq Aeroportunda yeni terminalın tikintisi də var. Ötən il üçün rəqəmləri hələ almamışam, amma düşünürəm ki, sərnişinlərin sayı 7 milyonu ötəcək. Bizə 15 milyonluq, ola bilsin, 20 milyonluq sərnişin tutumlu terminal lazım olacaq. Bir sözlə, biz burada yeni terminalın yeni konsepsiyası üzərində artıq işləyirik.

Bütün bunlar və öncədən qeyd etdiyim kimi, müharibənin bitməsi meyarı tamamilə yeni vəziyyət yaradır. Bu yük çiyinlərimizdən götürülüb. Bu yükü biz 30 ildən artıq daşımışıq. Beynəlxalq münasibətlər, biznes, səyahət və turizm baxımından bu, tamamilə yeni vəziyyətdir. Beləliklə, mən böyük perspektivlər görürəm. Biz biznes turizmi və potensial qaydada sağlamlıq turizmi haqqında düşünə bilərik. Hazırda onun üzərində çalışırıq. Bəlkə də bir şey söyləmək vaxtından əvvəl olardı. Lakin istirahət məqsədilə turizm artıq mövcuddur: Naftalan, Qalaaltı və ya Duzdağ və bir çox digər yerlər var. Lakin səhiyyə turizminə də nail olmaq mümkündür. Planlar çoxdur. Ümid edirik ki, onların hamısı həyata keçiriləcək.

***Murad HÜSEYNOV: Cənab Prezident, Siz söylədiniz, çoxlu planlar var və bildirdiniz ki, onlar həyata keçiriləcək. Biz bu qədər vaxtınızı aldığımıza görə Sizdən üzr istəyirik və həmkarların icazəsi ilə son sualımı verim. Dinc, gözəl Azərbaycan qurmaqda olduğunuzu Siz təsvir etdiniz və bu işin görülməsi üçün yerlərdə yaxşı icraçılar lazımdır. Sizin dövlət məmurları, icra başçıları ilə bağlı ötən il verdiyiniz tapşırıqların hamısı cəmiyyətdə geniş müzakirə olundu. Sizin fikrinizcə, müasir dövrün dövlət məmuru, icra başçısı necə olmalıdır? Eləcə də biz işğaldan azad edilmiş ərazilərdə Prezidentin xüsusi nümayəndəlikləri institutunun fəaliyyətini görürük. Bu fəaliyyət gələcəkdə bütün respublika ərazisinə sirayət edə bilərmi? Bununla bağlı hansısa planlar varmı?***

**Prezident İlham ƏLİYEV:** Bəli, ola bilər, çünki Qarabağ və Şərqi Zəngəzurda artıq yeni üsuli-idarə nəzərdə tutulub və tətbiq edilir. Hesab edirəm ki, bu, özlüyündə daha çevik idarəetmə üçün daha əlverişlidir. Amma yenə də əsas məsələ, kadr məsələsidir. Məsələn, mən Naxçıvanda da xüsusi nümayəndə institutu yaratmışam. Ancaq əfsuslar olsun ki, oraya təyin etdiyim kadr etimadımı doğrultmayıb və buna görə vəzifəsindən çıxarılmışdır. Bu yaxınlarda Bakının rayonlarının birinə icra başçısı təyin edilmişdir. Özü də noyabr ayındakı o təyinatda qrup şəklində bir neçə icra başçısı təyin edilirdi. İnsanlara diqqət, iş adamlarına dəyməmək, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə, sosial ədalət barədə mənim verdiyim tapşırıqlar, sözlər mətbuatda gedib. Amma təyin etdiyim adamlardan birini mən bir aydan sonra vəzifəsindən çıxartmışam. Yəni bu, məni çox məyus edir. Çünki bilirsiniz, mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Yəni burada gənc nəsil, yaşlı nəsil söhbəti getmir. İnsanların keyfiyyətindən söhbət gedir, ailədə, məktəbdə, cəmiyyətdə aldığı tərbiyədən söhbət gedir. Ona görə etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - belə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır. Nə deyə bilərəm, mən davam edəcəyəm, bu proses hamar deyil. Struktur islahatlarının aparılması təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri.

Halbuki Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər. Çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur. Hər halda azad edilmiş ərazilərdə özünü doğruldub, yəni gələcək göstərər.

Hər halda ümumi inkişafımız üçün bilirsiniz, hər bir insan, xüsusilə vəzifə sahibi ürəklə işləməlidir, xüsusilə belə möhtəşəm və tarixi Zəfərdən sonra cəmiyyətdə indi bu qədər xoş əhvali-ruhiyyə var. Biz hamımız son beş ili, necə deyərlər, qürurlu, xoşbəxt insanlar kimi yaşayırıq. Ona görə biz hamımız cəmiyyətdə olan problemlərə, kadrlarla bağlı məmur özbaşınalığına - buna daha dözülməz olmalıyıq, mən başda olmaqla, hamımız daha dözülməz olmalıyıq.

Bizim cəmiyyətimiz çox gözəl cəmiyyətdir. Ölkədə işlər müsbət istiqamətdə gedir, ölkəmiz dünya arenasında görün, nə qədər böyük uğurlara nail olubdur. Bax, dediyim xarici siyasətlə bağlı olan məsələlər hələ işlərin bir hissəsidir. İqtisadi inkişafla bağlı heç bir narahatlıq yoxdur. Ancaq etibar etdiyim kadrlar və bütün dövlət məmurları öz fəaliyyətini bu prinsiplər əsasında qurmalıdırlar. Yenə də qayıdıram ictimai nəzarətə, çünki mənim qərarlarımın bir çoxu məhz ictimai nəzarət nəticəsində verilibdir. Bunu indi ictimaiyyət bilmir, amma yerlərdən gələn siqnallar yoxlanılır və qeyd etdiyim bu uğursuz təyinatlarla bağlı siqnallar yerlərdən gəlir. Əgər yerlərdən siqnal gəlməsə, onda mən haradan biləcəyəm? Onlar bir neçə dəfə yoxlanılır və bir neçə qurum tərəfindən, bir qurum yox, bir neçə qurum ki, burada şəxsi-qərəz olmasın. Ondan sonra bu, öz təsdiqini tapanda artıq qərar qəbul edilir və bütün məmurlar onu bilməlidirlər. Vəzifəyə təyin etmək böyük etimaddır. Ancaq bu etimad əgər məmur tərəfindən doğrulmasa, onda sərəncam da özünü çox gözlətməyəcək.

**Mirşahin AĞAYEV:** ***Cənab Prezident, mənim Sizə verəcəyim sualın 28 yaşı var. Mən bu sualı 1998-ci ildə Ulu Öndərimiz Heydər Əliyevə vermişəm. O sual onda yarımçıq idi. Heydər Əliyev nə qədər ətraflı cavab versə də, hesab etdik ki, o, yarımçıqdır, bu gün də. İndi mənim Sizə verəcəyim sualla və Sizin verəcəyiniz cavabla o sual da, cavab da mükəmməl olacaq, bütöv olacaq. Mənə elə gəlir ki, burada Ulu Öndər Heydər Əliyev bizə qulaq asır.***

***Sual onda belə idi, "Bəlkə də ərazisinin 20 faizini itirmiş, əldən getmiş bir dövlətin vətəndaşının sualı bir az gülməli çıxır, amma istənilən halda torpağa münasibətiniz necədir? Sizdən ötrü torpaq nədir?". Ulu Öndər onda suala cavabı belə başlamışdı: "Torpaq çox geniş anlayışdır". Sonra izah etmişdi, torpaq onun həyatında hansı rol oynayır? Hətta işğal altında olan torpaqlarımızın nə qədər əziz olduğundan da danışmışdı. Amma razılaşaq ki, torpaqlar işğal altında idi və bu sual tam Azərbaycanı əhatə etmirdi. İndi mən bu sualı artıq ərazi bütövlüyünü bərpa, dövlət suverenliyini təmin etmiş Müzəffər Ali Baş Komandan İlham Əliyevə verirəm və əminəm ki, cavabdan Ulu Öndərin ruhu da şad olacaq.***

**Prezident İlham ƏLİYEV:** Bilirsiniz, bizim hamımız üçün torpaq anlayışı, ilk növbədə, itirilmiş torpaqlarla bağlı idi. Çünki bu haqda sual işğal dövründə veriləndə hər birimiz itirilmiş torpaqlar haqqında düşünürdük və əminəm ki, cəmiyyətimizin əksəriyyəti inanırdı ki, biz bu torpaqlara qayıdacağıq. Düzdür, illər keçdikcə bu inam da tükənirdi və mən bunu hiss edirdim. 2020-ci ilə qədər keçmiş köçkünlərlə keçirdiyim çoxsaylı görüşlər əsnasında mən hər zaman deyirdim ki, biz o torpaqlara qayıdacağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Amma bəziləri görürdüm ki, gözlərindən hiss olunurdu, buna inanmırlar və onları da qınamaq olmaz. Çünki 30 il ərzində torpaqları itirilmiş insanlar hansı hisslər keçirə bilər? Bu, başadüşüləndir. Ancaq mən daxilən hər zaman inanırdım ki, biz buna nail olacağıq. Birinci mərhələdə inanırdım ki, - bəlkə də bir az sadəlövh idim, - bunu sülh yolu ilə həll etmək mümkün olacaq. Xarici tərəfdaşları inandırmağa çalışırdım. Hesab edirdim ki, onlar bu işin mahiyyətinə o qədər də varmırlar, bilmirlər ki, biz haqlıyıq, Ermənistan nahaq iş görüb. Amma sonra illər keçdikcə gördüm ki, yox, hər şeyi yaxşı bilirlər. Sadəcə olaraq, onların böyük əksəriyyəti hesab edirdilər ki, belə də olmalıdır: bu torpaqlar ermənilərə çatmalıdır. Yəni bu, onların dünyagörüşü idi. Bunlar bilmirəm haradan gələn, hansı qaynaqlardan gələn bir fikir idi və xüsusilə bu, Qərb həmkarlarıma aid olan məsələdir. Onlar hesab edirdilər ki, belə də olmalıdır. Qeyd etdiyim kimi, bəziləri deyirdilər ki, siz gərək reallıqlarla barışasınız. İllər keçdikcə hərbi variantın labüd olması ilə bağlı da məndə heç bir şübhə qalmamışdı. Sadəcə olaraq, hazırlıq işləri lazımi səviyyədə görülməli idi.

Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün. Hər gün itkilərlə bağlı məlumat alanda hansı hissləri keçirirdim, bunu sözlə demək mümkün deyil. Artıq hamı yaxşı bilir ki, bir neçə dəfə əməliyyatın istiqamətinin dəyişdirilməsi də mümkün ola biləcək böyük itkilərlə bağlı idi ki, bu itkilər olmasın və müharibənin 10 noyabrda dayandırılması da bununla bağlı idi. Müharibə dayanmasaydı, itkilər qat-qat çox olacaqdı. Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda, mənim üçün Azərbaycan məhz o torpaq idi. Nə deyim, noyabrın 8-dən sonra nəzarətdə olmayan torpaq mənim üçün Azərbaycan idi. O torpağı qaytarmaq necə? Bəziləri deyirdilər ki, heç kim imkan verməz. Bəziləri deyirdilər ki, bu qədər iş görmüsünüz də, bəsdir. Bəziləri deyirdilər ki, Sizin adınız tarixə yazılıb da, heç nə lazım deyil. Bir çox şeylər deyilib. Yəni pis niyyətlə yox. Sadəcə olaraq, bəzi insanlar belə düşünürdü. Mən də düşünə bilərdim ki, indi Şuşa bizdədir, müharibədə qalib gəlmişik, Ermənistanı məğlub etmişik, orada 2000 rus zabiti, əsgəri yerləşib, qalsın sonraya, bəziləri qalsın sonraya. Mən də elə düşünə bilərdim. Amma mənim üçün torpaq o vaxt o idi, Azərbaycan o idi, Xankəndi idi, Xocalı idi. O da artıq azad olundu. İndi, necə deyərlər, torpaq deyəndə, sözün düzü, mən daha çox torpağın keyfiyyətinə baxıram, harada daha münbit torpaq var, harada yaxşı əkin aparmaq olar. Qarabağa gedəndə baxıram, görürəm, orada qara torpaqdır. Deyirəm, nə gözəl məhsuldar torpaqdır. Artıq o torpaq anlayışı, yəni o zədəli, yaralı torpaq anlayışı yoxdur. Bu da yaxşı haldır. Çünki artıq sülh dövrüdür, quruculuq dövrüdür. Biz bu dövrü yaşayırıq. Biz hamımız cəmi beş ay əvvələdək bunu bəlkə də axıra qədər dərk etməmişik: Sülh şəraitində yaşamaq nə deməkdir? Amma, eyni zamanda yenə də qayıdıram danışdığımız məsələyə. Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var.

**Mirşahin AĞAYEV:** ***Mən təşəkkür edirəm, bütün həmkarlarım adından minnətdaram. Dövlət böyük ailədir. Biz Sizə ailə səadəti arzulayırıq.***

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

**Mirşahin AĞAYEV:** *Sağ olun.*

# İlham Əliyev Donald Tramp tərəfindən 907-ci düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirir

## Azərbaycan Prezidenti İlham Əliyev ABŞ nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə ABŞ Senatının Silahlı Qüvvələr Komitəsinin üzvü, Oklahomadan respublikaçı senator Markveyn Mallin, Nümayəndələr Palatasının üzvü və həmin qurumun Gəlirlər Komitəsinin sədri, Missuridən respublikaçı Ceyson Smit, Nümayəndələr Palatasının və həmin qurumun Silahlı Qüvvələr Komitəsinin üzvü, Texasdan respublikaçı Ronni Cekson, Nümayəndələr Palatasının və həmin qurumun Gəlirlər Komitəsinin üzvü, Kaliforniyadan demokrat Cimmi Panetta daxildir.



Qəbula görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildirən qonaqlar Bakıda gördükləri inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdıqlarını dedilər.

Qonaqlar ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdılar.

Prezident İlham Əliyev təbriklərə görə təşəkkürünü bildirdi.

Əldə olunmuş razılaşmaların tarixi əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın rolunu xüsusi vurğuladı. Azərbaycan Prezidenti regional sülh gündəliyinin irəli aparılması üçün ölkəmizin bundan sonra da səylərini davam etdirəcəyini bildirdi. Dövlətimizin başçısı artıq Azərbaycanla Ermənistan arasında ticarət münasibətlərinin yaradıldığını deyərək, bu xüsusda Azərbaycanın neft məhsullarının Ermənistana ixrac edildiyini, həmçinin Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana ixracının həyata keçirildiyini vurğuladı. Prezident İlham Əliyev TRIPP dəhlizinin regional nəqliyyat bağlantıları baxımından yeni imkanlar yaradacağına ümidvarlığını bildirdi.

Dövlətimizin başçısı "Azadlığa Dəstək Aktı"na ədalətsiz 907-ci düzəlişin ölkələrimiz arasında əlaqələrin bugünkü inkişafının mahiyyətinə uyğun olmadığını dedi. Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Tramp tərəfindən bu düzəlişin fəaliyyətinin dayandırılmasını yüksək qiymətləndirərək, onun tamamilə ləğv edilməsi istiqamətində konqres üzvlərinin də bundan sonra səylərini davam etdirəcəyinə ümidvar olduğunu vurğuladı.

Görüşdə Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi, iqtisadi, enerji, müdafiə və müdafiə sənayesi, təhsil, informasiya texnologiyaları, süni intellekt və digər sahələrdə əlaqələrin genişləndirilməsi üçün yaxşı imkanların olduğu bildirildi.

Söhbət zamanı ölkələrimizin qanunverici orqanları arasında əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparıldı.

# Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda hər kəs mədəni özünüifadə imkanlarına malikdir

## Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi və Azərbaycanın bütün xristian icmasını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və etiqadlar arasında qarşılıqlı hörmət və etimada, mehriban dostluq və qardaşlığa əsaslanan milli-mənəvi həmrəylik mühiti hökm sürür.

Cəmiyyətimizdə yüksək birgəyaşayış mədəniyyətinin, mənəvi-əxlaqi normaların, multikultural dəyərlərin və dözümlülük prinsiplərinin təbliği və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet xəttini təşkil edir.

Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda bu gün hər kəs mədəni özünüifadə imkanlarına malikdir. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına, o cümlədən xristian icmasına etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün hərtərəfli demokratik-hüquqi şərait yaradılmışdır. Təqdirəlayiq haldır ki, xristian həmvətənlərimiz ictimai-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir, ümumi evimiz Azərbaycanın tərəqqisi və çiçəklənməsi naminə səylərini əsirgəmirlər.

Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir. Bu əziz gündə bir daha hamınıza bayram təbriklərimi çatdırıram, ailələrinizə səadət, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 yanvar2026-cı il*

# Kuba Respublikasının Prezidenti zati-aliləri cənab Migel Dias-Kanel Bermudesə

Hörmətli cənab Prezident!

Kuba Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, xoş ənənələr üzərində qurulmuş Azərbaycan-Kuba münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq həm ikitərəfli, həm də çoxtərəfli əsasda bundan sonra da dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Fürsətdən istifadə edərək Yeni, 2026-cı il münasibətilə də Sizə təbriklərimi və ən xoş arzularımı çatdırır, möhkəm cansağlığı, fəaliyyətinizdə uğurlar, dost Kuba xalqına daim əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

# Sudan Respublikasının Suveren Keçid Şurasının Sədri zati-aliləri cənab Abdel Fattah Al-Burhan Abdelrahman Al-Burhana

Hörmətli cənab Sədr!

Sudan Respublikasının müstəqilliyinin 70-ci ildönümü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan ilə Sudan arasında münasibətlərin və əməkdaşlığın xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq məcrasında inkişafı yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 dekabr 2025-ci il*

# İsveçrə Konfederasiyasının Prezidenti zati-aliləri cənab Qi Parmölənə

Hörmətli cənab Prezident!

Kran-Montanada baş vermiş yanğın nəticəsində çox sayda insanın həlak olması barədə xəbər bizi olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İsveçrə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 yanvar 2026-cı il*

# Latviya Respublikasının keçmiş Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri zati-aliləri xanım Vayra Vike-Freyberqaya

Zati-aliləri!

Həyat yoldaşınız, ömür-gün dostunuz İmants Freyberqsin vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Sizinlə birlikdə, çiyin-çiyinə böyük həyat yolu keçmiş İmants Freyberqs hər zaman Sizin yanınızda olmuş sadiq silahdaşınız idi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verir, səbir diləyirik.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
***və***
***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 2 yanvar 2026-cı il*

# Zəfərin beşinci ilini yeni nailiyyətlərlə yola saldıq

## Prezident İlham ƏLİYEV: "Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq"

**Yola saldığımız 2025-ci il də xalqımızın tarixində uğurlu il kimi qaldı. Bütün sahələrdə, o cümlədən iqtisadi sahədə mühüm nailiyyətlər qazanıldı, əhəmiyyətli yeniliklər baş verdi. Əvvəlki illərdən start götürmüş möhtəşəm layihələr nəzərdə tutulduğu qaydada davam etdirildi, növbəti müqavilələr imzalandı, yeni müəssisələr istifadəyə verildi, təzə evlər tikildi. Neçə-neçə təməlqoyma mərasimi keçirildi... Bir sözlə, iqtisadi qüdrətimiz daha da artdı, ölkəmiz daha da güclü oldu.**

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində dediyi kimi, iqtisadi inkişafa gəldikdə, biz bu il əldə olunmuş uğurlarla fəxr edə bilərik: "Bizim valyuta ehtiyatlarımız tarixi rekord həddə çatıb - 80 milyard dollardan artıqdır. Bizim xarici borcumuz daha da aşağı düşüb, bu gün ümumdaxili məhsulumuzun cəmi 6,3 faizini təşkil edir. Bir halda ki, bəzi inkişaf etmiş ölkələrdə bu rəqəm 100 faizdir, ondan da çoxdur. Bizim valyuta ehtiyatlarımız xarici borcumuzu 16 dəfə üstələyir və təsadüfi deyil ki, dünyanın aparıcı reytinq agentlikləri Azərbaycanın kredit reytinqini qaldırıblar - investisiya reytinqini müsbət reytinq səviyyəsinə qaldırıblar".

Elə investisiyalardan başlayaq. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin yanvar-noyabr aylarında ölkəmizin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 16658,9 milyon manat, yəni ondan əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çox investisiya yönəldilib. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş investisiyanın dəyəri ümumi sərmayənin 78 faizini təşkil edib. Sərmayələr sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, turizm və digər sahələrə yönəldilib. Xarici ölkələr və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilmiş investisiyanın 97,9 faizi Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya Federasiyası, Amerika Birləşmiş Ştatları, İsveçrə, Yaponiya, İran İslam Respublikası, Macarıstan, Fransa və Hindistan sərmayədarlarına məxsus olub.



2025-ci ildə Azərbaycanda neft və qaz hasilatı ahəngdar gedib. Bu, ixracın da fasiləsizliyinə imkan verib. Beləliklə, dünya bazarlarına ölkəmizdə hasil olunan karbohidrogenlərin ixracı davam edib. 22 ölkəyə neft, 14 ölkəyə qaz ixrac olunub. Azərbaycanın neft ixrac etdiyi TOP-5 ölkə sırasına İtaliya, Çexiya, Xorvatiya, Rumıniya və Almaniya daxildir.

Ölkəmizin mavi yanacaq ixracı coğrafiyası da ildən-ilə genişlənir. Belə ki, ötən il Azərbaycandan Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriya qaz alıb. Avropaya qaz ixracı artıb. Xatırladaq ki, Azərbaycandan 8-i Avropa İttifaqının üzvü olmaqla 10 Avropa ölkəsi qaz idxal edir.

Yeri gəlmişkən, Avropaya qazı nəql edən TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) istifadəyə verilməsinin ötən ilin son günündə 5 ili tamam oldu.

Keçən il paytaxtımızda ənənəvi Bakı Enerji Həftəsi uğurla keçdi. Məlum olduğu kimi, bu mühüm tədbirin bazasını Xəzər Beynəlxalq Neft və Qaz Sərgisi təşkil edir. Budəfəki sərgi yubiley səgisi idi - 30-cu dəfədir keçirilirdi. Özəlliyi həm də onda idi ki, bu tədbir çərçivəsində enerji sahəsinə aid bir sıra yeni müqavilələr imzalandı.

İnsanların rahat yaşaması, iqtisadiyyatın dinamik inkişaf etməsi üçün yolların nə dərəcədə əhəmiyyətli olduğu hamıya yaxşı bəllidir. Elə buna görə də yeni yolların çəkilişi, köhnələrin isə əsaslı təmiri Azərbaycan dövlətinin iqtisadi siyasətində öndə dayanan məsələlərdəndir. Yola saldığımız il ərzində də yeni yollarımızın açılışı oldu. Prezident İlham Əliyev Əhmədbəyli-Füzuli-Şuşa yolunun, Hacıqabul-Bəhrəmtəpə-Ermənistan Respublikası ilə dövlət sərhədi avtomobil yolunun 197-ci kilometrindən Cəbrayıl rayonu ərazisində inşa olunan "Şəfəq" Günəş-Elektrik Stansiyasına gedən avtomobil yolunun açılışında iştirak etdi. Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsində görülən işlərlə tanış oldu. Dövlətimizin başçısı eləcə də yol çəkilişi və təmiri ilə bağlı neçə-neçə yeni sərəncamlar da imzaladı.

Çoxsaylı yaşayış evləri, inzibati binalar, yeni sosial-iqtisadi infrastruktur da ötən ilin uğurları sırasındadır. Mingəçevirdə "8 Noyabr" Elektrik Stansiyasının, Gəncədə avtoparkın və stadionun,Sumqayıtda tikinti kimyəvilərinin istehsalı zavodunun, Abşeron rayonunda dərman preparatları müəssisəsinin istifadəyə verilməsi və s. ilin uğurları sırasına yazılıb. Onlarca müəssisə ölkəmizin iqtisadi xəritəsini zənginləşdirməklə yanaşı, həm də ayrı-ayrı sahələrin inkişafına təkan verib. Təqdirəlayiqdir ki, bunların bir çoxu ərzaq təhlükəsizliyinə xidmət edir.

Bu qəbildən olan müəssisələrin qurulması, onların fəaliyyətinin iqtisadi cəhətdən səmərəliliyi, rəqabətədavamlı məhsulun istehsalı və çeşidinin genişləndirilməsi ümumilikdə ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Yerli xammal əsasında istehsalın genişləndirilməsi isə daxili bazarın sabit saxlanılması ilə bərabər, həm də ərzaq təhlükəsizliyinin təmin olunmasına xidmət edir, ixrac potensialını daha da artırır. Bunlar "Made in Azerbaijan" brendi ilə məhsulların xarici bazarlara çıxarılması məsələsində olduqca mühüm əhəmiyyət kəsb edir. Məsələn, Bakıdakı "Nobel Food İndustry" MMC-nin müxtəlif növ və çeşiddə qəlyanaltı məhsullarının istehsalı zavodu. "Azərsun Holdinq"ə məxsus "Qafqaz" konserv zavodu və "Shervan" MMC-nin həmtəsisçiliyi ilə istismara verilən bu müəssisədə müxtəlif növ və çeşiddə qəlyanaltı məhsulları - popkorn, çərəz və quru meyvə istehsal olunacaq. Məhsulların yerli istehlakçılara təqdim edilməsi ilə bərabər, müxtəlif ölkələrə ixracı da nəzərdə tutulur.

İsmayıllı rayonunun Topçu kəndində açılan "Coca-Cola Bottlers" MMC-nin yeni istehsal müəssisəsi illik 165 milyon litr istehsal gücünə malikdir. Layihənin investisiya dəyəri 80 milyon manatdır. Bu, "Coca-Cola Bottlers" MMC-nin ölkəmizdə ikinci istehsal müəssisəsidir. "Coca-Cola"nın Azərbaycana investisiyalarının artırılması da ölkədə əlverişli biznes mühitinin və cəlbedici investisiya şəraitinin mövcudluğundan irəli gəlir.

Bu siyahını xeyli uzatmaq da mümkündür. Ümumiyyətlə, iqtisadiyyatımızın istənilən sahəsinə üz tutsaq, neçə-neçə belə yeniliyin şahidi olarıq. Əgər buraya il ərzində Qarabağda və Şərqi Zəngəzurda aparılan geniş quruculuq işlərini də əavə etsək, tarixə qovuşan ilimizin mənzərəsi daha aydın görünər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ötən il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Deməli, bu ilin uğurları üçün möhkəm zəmin var!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Türkiyə-Azərbaycan enerji əməkdaşlığı ortaq strategiyanın institusionallaşmasının göstəricisidir"

**"Türkiyənin 2029-cu ildən etibarən Azərbaycandan 15 il müddətinə hər il 2,25 milyard kubmetr olmaqla ümumilikdə 33 milyard kubmetr təbii qaz tədarükünü nəzərdə tutan yeni saziş klassik enerji müqaviləsindən qat-qat geniş mənaya malikdir. Abşeron yatağından hasil ediləcək bu qaz təkcə Türkiyənin enerji təchizatı təhlükəsizliyini möhkəmləndirmir, eyni zamanda Ankara-Bakı xətti üzrə uzun illərdir formalaşan strateji birliyin institusional və geri dönməz mərhələyə keçdiyini nümayiş etdirir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında beynəlxalq münasibətlər üzrə türk ekspert Mehmet Emir Aksoy bildirib. Onun sözlərinə görə, bu razılaşma Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın həyata keçirdiyi uzaqgörən enerji diplomatiyasının növbəti mühüm halqasıdır: "Bakı enerji resurslarını yalnız iqtisadi gəlir mənbəyi kimi deyil, eyni zamanda geosiyasi tarazlıq aləti kimi istifadə etmək bacarığını uzun illərdir uğurla nümayiş etdirir. TANAP, TAP və Bakı-Tbilisi-Ceyhanla başlayan proses bu gün Abşeron yatağı vasitəsilə Türkiyəyə yönələn uzunmüddətli qaz tədarükü ilə yeni strateji dərinlik qazanır".

Ekspert bildirib ki, Türkiyə baxımından bu saziş yalnız enerji təhlükəsizliyini təmin edən tədarük addımı deyil, həm də geosiyasi müstəqillik imkanlarının genişləndirilməsi deməkdir. "Qlobal enerji bazarlarının kövrəkliyi, Rusiya-Ukrayna müharibəsi ilə bağlı Avropada yaranmış təchizat böhranları və Yaxın Şərqdə davam edən qeyri-müəyyənliklər fonunda Türkiyənin dost və müttəfiq ölkə vasitəsilə uzunmüddətli və proqnozlaşdırıla bilən enerji xətti formalaşdırması strateji zərurətə çevrilib. Bu kontekstdə Azərbaycan təkcə tədarükçü deyil, etibarlı strateji tərəfdaş kimi önə çıxır. Bu razılaşmanı sadəcə iki ölkə arasında bağlanmış adi müqavilə kimi qiymətləndirmək düzgün olmazdı. Burada əsas məqam illərdir siyasi diskursda səsləndirilən "iki dövlət, bir millət" konsepsiyasının real dövlət siyasətinə çevrilməsinin davamıdır. Enerji, müdafiə, nəqliyyat və diplomatiya sahələrində paralel şəkildə dərinləşən bu inteqrasiya Ankara-Bakı xəttini regional güc mərkəzinə çevirir", - deyə ekspert vurğulayıb.

Mehmet Emir Aksoy qeyd edib ki, Prezident İlham Əliyevin apardığı balanslı, lakin qətiyyətli xarici siyasət Azərbaycanın yalnız hərbi deyil, enerji və diplomatiya sahələrində də oyunqurucu aktora çevrilməsinə imkan yaradıb. Türkiyə ilə imzalanmış bu uzunmüddətli qaz sazişi Azərbaycanın regional sabitliyi önə çəkən yanaşmasının iqtisadi və strateji təzahürüdür. Eyni zamanda bu addım Cənubi Qafqazda Türkiyə-Azərbaycan mərkəzli yeni geosiyasi oxun möhkəmləndiyini təsdiqləyir.

Ekspertin fikrincə, qarşıdakı illərdə bu əməkdaşlıq yalnız qaz tədarükü ilə məhdudlaşmayacaq. Enerji ticarətindən regional enerji mərkəzinə çevrilmə hədəfi Türkiyənin enerji qovşağı kimi rolunu gücləndirəcək, Azərbaycanın isə Avropa və Avrasiya enerji balansındakı əvəzsiz mövqeyini daha da möhkəmləndirəcək.

**Qloballaşma, informasiya axınlarının intensivləşməsi və beynəlxalq siyasi transformasiyaların dərinləşdiyi müasir dövrdə milli kimlik anlayışı yeni məzmun qazanır. Bu kontekstdə "müasir anlamda azərbaycanlı olmaq" anlayışı təkcə etnik mənsubiyyət, dil və mədəniyyət göstəriciləri ilə məhdudlaşmır. Eyni zamanda müstəqil dövlətçilik təfəkkürü, hüquqi və siyasi məsuliyyət, milli maraqlara sədaqət və qlobal dünyada rəqabətqabiliyyətli vətəndaş modeli ilə səciyyələnir. Azərbaycanlı kimliyi bu gün tarixi yaddaş, çağdaş inkişaf strategiyası və gələcək vizyonun sintezindən formalaşan kompleks bir anlayış kimi çıxış edir.**



# Qalib xalq və müasir azərbaycanlı kimliyi

Qlobal miqyasda müşahidə olunur ki, milli kimliyi dərindən anlayan və onu dövlət siyasətinin mərkəzində saxlayan dövlətlər iqtisadi, siyasi və mədəni baxımdan daha sürətlə inkişaf edir, beynəlxalq mövqelərini möhkəmləndirirlər. Bu reallıq müasir azərbaycanlı kimliyinin strateji əhəmiyyətini bir daha ortaya qoyur: milli kimliyi şüurlu şəkildə dərk edən və ona uyğun hərəkət edən vətəndaş yalnız dövlətin daxili stabilliyinə deyil, həm də onun beynəlxalq nüfuzuna, geosiyasi mövqeyinə və regional liderliyinə töhfə verir.

Bu baxımdan müasir azərbaycanlı kimliyi yalnız fərdi və milli identifikasiya anlayışı deyil, həm də milli dövlətçilik strategiyasının aktiv iştirakçısı, qlobal çağırışlara cavab verən və dövlətin inkişafını təmin edən dinamik və strateji vətəndaş modeli kimi təqdim olunur. Milli kimliyi dərk etmək, onun tarixi, mədəni və siyasi əsaslarını qiymətləndirmək və müasir çağırışlarla uzlaşdırmaq Azərbaycanın davamlı inkişafı və güclü beynəlxalq mövqeyinin təmin olunması üçün zəruri şərtdir.

## Tarixi-siyasi təkamül

Azərbaycanlı kimliyi tarixi baxımdan müxtəlif sivilizasiyaların kəsişməsində formalaşaraq çoxqatlı mədəni, dini və sosial məzmun qazanmışdır. Azərbaycanın yerləşdiyi geosiyasi məkan qədim dövrlərdən etibarən Şərq və Qərb arasında təbii körpü funksiyası daşımış, bu isə cəmiyyətin dünyagörüşündə açıqlıq, adaptasiya qabiliyyəti və mədəni sintez meyillərini gücləndirmişdir. Məhz bu tarixi-coğrafi reallıq azərbaycanlı kimliyinin monolit olmasa da, daxili bütövlüyə malik bir struktur kimi formalaşmasına zəmin yaratmışdır.

Antik dövrdə Atropatena və Qafqaz Albaniyası kimi dövlətlərin mövcudluğu Azərbaycan ərazisində erkən siyasi təşkilatlanmanın və dövlətçilik təfəkkürünün möhkəm əsaslara söykəndiyini göstərir. Bu dövlətlər əraziyə bağlılıq, siyasi hakimiyyət anlayışı və kollektiv idarəçilik mədəniyyətinin ilkin formalarının yaranmasına xidmət etmişdir. Orta əsrlərdə Şirvanşahlar, Eldənizlər və Səfəvilər dövlətləri bu ənənələri davam etdirərək azərbaycanlı kimliyinin siyasi və mədəni konturlarını daha da dəqiqləşdirmişdir. Xüsusilə Səfəvilər dövründə Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə yüksəlməsi milli kimliyin dil, hakimiyyət və siyasi legitimliklə vəhdət təşkil etdiyini nümayiş etdirmişdir.

"Milli kimlik" anlayışının struktural əsasları prizmasından yanaşdıqda aydın olur ki, Azərbaycan tarixində bu anlayışın dövlətçilik təfəkkürü səviyyəsində konseptuallaşdırılması məhz Səfəvilər dövründə baş vermişdir. Səfəvi siyasi idarəçiliyinin ideoloji nüvəsində formalaşmış milli kimlik siyasəti milli dövlətçilik düşüncəsi ilə üzvi şəkildə bağlı olmuş və bu baxımdan müasir Azərbaycan dövlətçiliyinin ideoloji təməlləri ilə səsləşmişdir. Məhz bu səbəbdən azərbaycanlı kimliyinin müasir tarixi başlanğıcını səfəvi siyasi-fəlsəfi təfəkküründə axtarmaq elmi baxımdan əsaslıdır. Bu kontekst müasir dövrdə müşahidə olunan antisəfəvi yanaşmaların da mahiyyətini aydınlaşdırır. Bu tip hücumların əsas məqsədi Səfəvilər irsindən daha çox həmin irsin daşıdığı tarixi milli kimlik potensialını zəiflətmək cəhdləri ilə bağlıdır. Çünki hər bir xalqın davamlı inkişafı onun tarixi-milli enerjini nə dərəcədə aktivləşdirə bilməsi ilə birbaşa əlaqəlidir və tarixi təcrübə milli inkişafın ideoloji dayaq nöqtəsini təşkil edir.

Ulu Öndər Heydər Əliyevin milli-tarixi irsə verdiyi xüsusi əhəmiyyət də məhz bu yanaşmadan qaynaqlanırdı. O, Azərbaycan Səfəvilər dövlətini milli kimliyin dövlətçilik səviyyəsində gerçəkləşdirildiyi fundamental siyasi təcrübə kimi qiymətləndirirdi. Bu baxımdan Şah İsmayıl Xətainin Azərbaycan siyasi tarixində milli kimliyin simvolu kimi təqdim olunması və onun heykəlinin Prezident İlham Əliyev tərəfindən siyasi varislik kontekstində təsdiqlənməsi ideoloji ardıcıllığın ifadəsidir.

Şah İsmayıl Xətainin tarixi missiyası yalnız dövlət quruculuğu ilə məhdudlaşmırdı. Onun ana dilində yaratdığı poeziya milli kimliyin ideoloji alətinə çevrilmiş, "milli dil - milli ədəbiyyat - milli dövlət" triadası səviyyəsində konseptual məna qazanmışdır. Bu yanaşma Azərbaycan insanının milli ruhunu oyadan və onu vahid siyasi iradə ətrafında birləşdirən ideoloji vasitə rolunu oynamışdır. Beləliklə, Azərbaycan Səfəvilər dövləti öz tarixi mahiyyəti etibarilə müasir azərbaycanlı kimliyinin ideoloji və siyasi potensialını formalaşdıran əsas mərhələ kimi çıxış edir. Heydər Əliyevin bu irsə yanaşması da məhz milli kimliyin tarixi davamlılığı və dövlətçilik təfəkkürünün strateji əsasları kontekstində olmuşdur ki, bu yanaşma müasir "qalib xalq" və "müasir azərbaycanlı kimliyi" konsepsiyasının dərin tarixi köklərə söykəndiyini aydın şəkildə ortaya qoyur.

Qeyd edək ki, Şərq mənəvi dəyərləri ilə Qərb rasional düşüncə sisteminin tarixi sintezi də azərbaycanlı kimliyinə xüsusi ideoloji balans qazandırmışdır. İslam sivilizasiyasının etik və mənəvi prinsipləri ilə Avropa hüquqi və idarəçilik modellərinin qarşılıqlı təsiri cəmiyyətin inkişafında tolerantlıq, multikulturalizm və sosial harmoniyanı əsas davranış norması kimi formalaşdırmışdır. Müxtəlif dini və etnik icmaların tarixən birgəyaşayış təcrübəsi azərbaycanlı kimliyinin inklüziv və açıq xarakter daşıdığını təsdiqləyən fundamental göstərici kimi çıxış edir.

XIX əsrdə Azərbaycanın Rusiya imperiyasının tərkibinə daxil edilməsi milli kimliyin yeni tarixi mərhələyə keçidini şərtləndirmişdir. Bu dövrdə maarifçilik ideyalarının yayılması, milli ziyalı təbəqəsinin formalaşması və anadilli mətbuatın meydana çıxması azərbaycanlı kimliyinin modern əsaslar üzərində yenidən düşünülməsinə səbəb olmuşdur. Maarifçi ziyalıların fəaliyyəti nəticəsində azərbaycanlı anlayışı təkcə etnik mənsubiyyət kimi deyil, eyni zamanda ictimai məsuliyyət və milli özünüdərk kateqoriyası kimi dərk edilməyə başlanmışdır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaradılması azərbaycanlı kimliyinin siyasi subyektliyinin ən yüksək ifadə forması olmuşdur. Şərqdə ilk parlamentli respublika kimi AXC vətəndaş bərabərliyi, hüquqi dövlət quruculuğu və milli suverenlik prinsiplərini azərbaycanlı kimliyinin əsas atributlarına çevirmişdir. Bu mərhələdə azərbaycanlı olmaq hüquqi status, siyasi iştirak və dövlət qarşısında məsuliyyət anlayışları ilə birbaşa əlaqələndirilmişdir.

Sovet dövründə milli kimlik ideoloji çərçivələrlə məhdudlaşdırılsa da, dil, ədəbiyyat və mədəniyyət vasitəsilə yaşadılmış, tarixi yaddaşın qorunması təmin edilmişdir. Rəsmi ideoloji model ilə yanaşı, milli özünüdərk prosesi gizli və davamlı xarakter almış, bu isə müstəqillik mərhələsi üçün sosial və mənəvi zəmin formalaşdırmışdır.

XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpası azərbaycanlı kimliyinin tarixi-siyasi təkamülündə keyfiyyətcə yeni mərhələ yaratmışdır. Bu mərhələdə milli kimlik mədəni irs elementi olmaqla yanaşı, müstəqil dövlətçilik ideologiyasının əsas dayağına çevrilmişdir. Azərbaycanlı anlayışı suverenlik, ərazi bütövlüyü, hüquqi dövlət quruculuğu və milli maraqların müdafiəsi prinsipləri ilə üzvi şəkildə əlaqələndirilmişdir. Nəticə etibarilə azərbaycanlı olmaq milli dövlətin taleyinə ortaq məsuliyyət daşımaq, tarixi ədalət ideyasına sədaqət nümayiş etdirmək və müasir dünyada milli maraqları qorumağa qadir siyasi və intellektual potensiala malik olmaq kimi kompleks məzmun kəsb etmişdir.

## Heydər Əliyev və azərbaycanlı kimliyinin dövlətçilik konsepsiyası

Müasir azərbaycanlı kimliyinin ideoloji, siyasi və institusional əsaslarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin rolu fundamental və sistemyaradıcı xarakter daşıyır. Onun siyasi fəaliyyətində azərbaycanlı anlayışı yalnız tarixi-etnik mənsubiyyət kontekstində deyil, müasir dövlət quruculuğunun ideoloji dayağı, hüquqi subyekti və strateji resursu kimi dəyərləndirilmişdir. Heydər Əliyev milli kimliyi emosional-romantik çərçivədən çıxararaq rasional düşüncə, hüquqi legitimlik və uzunmüddətli dövlətçilik strategiyası müstəvisinə daşımışdır.

Heydər Əliyev deyirdi: "Milli ideologiya olmadan dövlət qurmaq mümkün deyil. Bizim milli ideologiyamız azərbaycançılıqdır və bu ideologiya müstəqil dövlətimizin möhkəm təməlidir".

Bu cəhətdən Heydər Əliyevin çıxış və proqram xarakterli bəyanatlarının analizi göstərir ki, o, azərbaycançılığı statik ideoloji doktrina kimi deyil, tarixi davamlılıq və müasir inkişafı uzlaşdıran dinamik konsepsiya kimi təqdim etmişdir. Onun yanaşmasına görə, azərbaycanlı kimliyi keçmişin mirası olmaqla yanaşı, müstəqil dövlətin gələcəyini formalaşdıran əsas intellektual və mənəvi resursdur. Bu baxımdan azərbaycançılıq ideologiyası milli yaddaşın qorunması ilə yanaşı, müasir dünyaya inteqrasiya üçün konseptual çərçivə rolunu oynamışdır.

Heydər Əliyev deyirdi: "Biz tariximizə söykənərək gələcəyimizi qurmalıyıq. Azərbaycançılıq keçmişlə gələcək arasında ideoloji körpüdür". Ulu Öndər bu mənada müxtəlif dövrlərdə etdiyi çıxışlarında milli kimliyin yalnız mədəni atributlar toplusu kimi yox, dövlət qarşısında məsuliyyət daşıyan vətəndaşlıq şüuru kimi dərk edilməsinin vacibliyini xüsusi vurğulamışdır. Onun fikirlərində azərbaycanlı olmaq dövlət müstəqilliyinə sadiqlik, hüquqi normalara hörmət, ictimai nizamın qorunması və milli maraqların müdafiəsində fəal mövqe tutmaqla birbaşa əlaqələndirilmişdir. Bu yanaşma milli kimliyi passiv identifikasiya formasından çıxararaq aktiv siyasi mövqeyə çevirmişdir.

Heydər Əliyev belə hesab edirdi ki, Azərbaycan Respublikasının vətəndaşı olmaq təkcə hüquq deyil, eyni zamanda dövlət qarşısında böyük məsuliyyətdir.

Bu cəhətdən Ulu Öndərin ideoloji xəttində azərbaycançılıq aşağıdakı əsas prinsiplər üzərində qurulmuşdur:

* milli-mənəvi dəyərlərin qorunması ilə yanaşı, dünyəvi dövlət modelinin möhkəmləndirilməsi;
* tarixi irsə sədaqətlə yanaşı, müasir siyasi və iqtisadi inkişaf strategiyasının həyata keçirilməsi;
* milli həmrəyliyin gücləndirilməsi ilə yanaşı, bütün vətəndaşların hüquq bərabərliyinin təmin edilməsi;
* etnik və dini müxtəlifliyin qorunması ilə yanaşı, vahid siyasi millət anlayışının formalaşdırılması.

Heydər Əliyev bəyan etmişdir ki, Azərbaycan çoxmillətli dövlətdir və bu, bizim sərvətimizdir. Hamımızı birləşdirən vahid anlayış azərbaycançılıqdır.

Bu prinsiplər Ulu Öndərin həm sovet dövründə milli-mədəni identikliyin qorunması istiqamətində apardığı siyasətdə, həm də müstəqillik mərhələsində dövlət quruculuğu proseslərində ardıcıl şəkildə müşahidə olunur. Xüsusilə müstəqillik illərində etdiyi çıxışlarda o, azərbaycanlı kimliyini müstəqil dövlətin ideoloji dayağı kimi təqdim etmiş, milli birliyin və daxili sabitliyin məhz bu konsepsiya üzərində təmin oluna biləcəyini əsaslandırmışdır.

Heydər Əliyev Azərbaycan xalqı qarşısında belə bir vəzifə qoymuşdur: "Müstəqilliyimizi qorumağın yeganə yolu milli birliyimizi möhkəmləndirməkdir".

Ulu Öndərin dövlətçilik təcrübəsində azərbaycanlı kimliyi hüquqi dövlət və güclü institutlar anlayışı ilə üzvi şəkildə əlaqələndirilmişdir. Onun siyasi irsində milli kimlik populist ritorika vasitəsi kimi deyil, konstitusion dəyərlər, qanunun aliliyi və idarəetmə məsuliyyəti ilə möhkəmləndirilmiş ideoloji sistem kimi formalaşdırılmışdır. Bu yanaşma azərbaycanlı anlayışını yalnız mənəvi identifikasiya kateqoriyası olmaqla yanaşı, dövlət qarşısında öhdəlik daşıyan hüquqi subyekt səviyyəsinə yüksəltmişdir.

Heydər Əliyevin siyasi-ideoloji baxışlarına görə, "Hüquqi dövlət qurmaq üçün hər bir vətəndaş qanuna hörmət etməyi özünün daxili ehtiyacı hesab etməlidir".

Bir araşdırmaçı ziyalı baxımından qiymətləndirdikdə, Heydər Əliyevin əsas tarixi nailiyyətlərindən biri azərbaycanlı kimliyini etnik dar çərçivədən çıxararaq siyasi millət konsepsiyasına transformasiya etməsi olmuşdur. Onun çıxış və fəaliyyətlərində azərbaycanlı olmaq dövlətə sədaqət, siyasi məsuliyyət, hüquqi şüur və milli maraqlar naminə fədakarlıq kimi kateqoriyalarla eyniləşdirilmişdir. Bu konsepsiya müasir Azərbaycan dövlətçiliyinin ideoloji təməlini təşkil etmiş və sonrakı dövrdə ölkənin inkişaf strategiyalarının formalaşmasında həlledici rol oynamışdır.

Heydər Əliyev Azərbaycan xalqına və bütün dünyaya xitabən bəyan etmişdir: "Mən fəxr edirəm ki, azərbaycanlıyam və hesab edirəm ki, hər bir azərbaycanlı bu hissi yaşamalıdır".

## İlham Əliyev dövründə "Qürurlu azərbaycanlı" modelinin formalaşması

Prezident İlham Əliyevin siyasi fəaliyyəti Heydər Əliyev tərəfindən formalaşdırılmış dövlətçilik məktəbinin ideoloji və institusional əsasları üzərində inkişaf edən müasir mərhələ kimi qiymətləndirilə bilər. Bu çərçivədə milli kimlik anlayışı tarixi yaddaşa söykənən, lakin müasir qlobal reallıqlara uyğun şəkildə yenilənən vətəndaş modeli kimi təqdim olunur. İlham Əliyevin rəhbərliyi dövründə azərbaycanlı olmaq yalnız mənəvi-mədəni mənsubiyyət deyil, eyni zamanda dövlətə bağlılıq, hüquqi məsuliyyət və qlobal miqyasda milli maraqları təmsil etmək bacarığı ilə xarakterizə olunan kompleks kimlik formasına çevrilmişdir.

Bu mərhələdə müasir azərbaycanlı modeli güclü dövlətçilik şüuru əsasında formalaşdırılır. Prezident İlham Əliyevin siyasi diskursunda dövlətin gücü və vətəndaşın qüruru qarşılıqlı asılılıq prinsipi üzərində qurulur. Dövlətin beynəlxalq mövqeyinin möhkəmlənməsi və iqtisadi-siyasi sabitliyin təmin olunması azərbaycanlı kimliyində özünəinam, milli qürur və məsuliyyət hissini gücləndirən əsas amillər kimi çıxış edir. Bu yanaşma milli kimliyi passiv identifikasiya səviyyəsindən çıxararaq fəal vətəndaşlıq mövqeyinə yüksəldir.

İlham Əliyevə görə, "Biz elə bir dövlət qurmuşuq ki, hər bir Azərbaycan vətəndaşı onunla fəxr edə bilər".

Müasir azərbaycanlı modelinin mühüm komponentlərindən biri milli maraqların beynəlxalq müstəvidə müdafiə olunması bacarığıdır. İlham Əliyevin rəhbərliyi altında Azərbaycan qlobal enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları və regional sabitlik məsələlərində fəal aktora çevrilmişdir. Bu proseslər azərbaycanlı kimliyini regional çərçivədən çıxararaq qlobal məsuliyyət daşıyan vətəndaş modelinə transformasiya etmişdir. Azərbaycanlı olmaq bu kontekstdə dövlətin geosiyasi rolunu dərk etmək və onu beynəlxalq platformalarda ləyaqətlə təmsil etmək anlamı qazanmışdır.

İlham Əliyev belə hesab edir ki, Azərbaycan bu gün beynəlxalq aləmdə söz sahibi olan ölkələrdən biridir.

Texnoloji və intellektual inkişaf müasir azərbaycanlı modelinin ayrılmaz hissəsi kimi çıxış edir. Prezident İlham Əliyevin siyasətində insan kapitalının gücləndirilməsi, təhsilin və innovasiyanın prioritetləşdirilməsi milli kimliyin müasir məzmunla zənginləşdirilməsinə xidmət edir. Bu yanaşma azərbaycanlı anlayışını yalnız tarixi keçmişlə bağlılıq üzərində deyil, gələcəyə yönəlmiş bilik və bacarıqlar üzərində formalaşdırır. Beləliklə, müasir azərbaycanlı rəqabətədavamlı, çevik və qlobal çağırışlara hazır vətəndaş kimi dəyərləndirilir.

Xüsusilə Vətən müharibəsindən sonra formalaşan yeni reallıqlar müasir azərbaycanlı kimliyinə keyfiyyətcə yeni məzmun qazandırmışdır. Qələbə faktoru milli kimlik anlayışını qalib xalq psixologiyası, tarixi ədalətin bərpası və milli ləyaqət hissi ilə zənginləşdirmişdir. Bu mərhələdə azərbaycanlı olmaq təkcə mənsubiyyət deyil, eyni zamanda əldə edilmiş qələbənin qorunması, sülhün təmin olunması və postmüharibə quruculuq proseslərində fəal iştirak etmək kimi tarixi məsuliyyəti də ifadə edir.

İlham Əliyev bəyan etmişdir: "Biz qalib xalqıq və bu qələbəni qorumaq hər birimizin borcudur".

Fəxrlə deyə bilərik ki, Prezident İlham Əliyevin rəhbərliyi dövründə formalaşan müasir və qürurlu azərbaycanlı modeli milli dövlətçiliyin güclənməsi, beynəlxalq mövqelərin möhkəmlənməsi və cəmiyyətin intellektual potensialının artması ilə paralel inkişaf etmişdir. Bu model tarixi yaddaşla müasir inkişaf arasında tarazlıq yaradan, milli qüruru məsuliyyətlə uzlaşdıran və gələcək nəsillərə davamlı dövlətçilik düşüncəsi ötürən konseptual vətəndaş tipini ifadə edir.

## Qlobal dünyada azərbaycanlı olmağın yeni parametrləri

Müasir milli kimlik nəzəriyyələrində "qalib xalq" anlayışı yalnız hərbi və ya siyasi uğurun nəticəsi kimi deyil; kollektiv şüurun transformasiyasını müəyyən edən fundamental ideoloji mərhələ kimi qiymətləndirilir. Qalib xalq statusu milli kimliyə psixoloji üstünlük, tarixi legitimlik və strateji özünəinam qazandırmaqla yanaşı, cəmiyyətin dövlətlə münasibətlərində yeni məsuliyyət və davranış modellərinin formalaşmasına səbəb olur. Bu baxımdan anlayış müasir milli kimliyin keyfiyyətcə yeni mərhələyə keçidinin göstəricisi kimi çıxış edir.

Qalib xalq fenomeninin əsas xüsusiyyəti milli kimliyin müdafiə mövqeyindən çıxaraq təşəbbüskar və qurucu mərhələyə qədəm qoymasıdır. Qələbə faktoru kollektiv yaddaşda travmatik məğlubiyyət sindromunu neytrallaşdırır, onun yerini milli ləyaqət, özünəinam və gələcəyə yönəlik strateji düşüncə tutur. Bu transformasiya nəticəsində milli kimlik emosional reaksiya formasından çıxaraq rasional və məqsədyönlü sosial davranış sisteminə çevrilir.

Müasir milli kimlik kontekstində qalib xalq anlayışı qürur hissini əks etdirməklə yanaşı, həm də etik və siyasi məsuliyyət komponentlərini özündə ehtiva edir. Qalib xalq olmaq beynəlxalq hüquq normalarına uyğun davranış, regional sabitliyə töhfə vermək və əldə edilmiş nəticələri davamlı sülh və inkişaf platformasına çevirmək öhdəliyini gündəmə gətirir. Bu yanaşma milli kimliyi destruktiv revanşizmə deyil, konstruktiv dövlətçilik təfəkkürünə yönləndirir.

Azərbaycan modeli kontekstində müasir azərbaycanlı dövlətin strateji prioritetlərini (enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutlarının qorunması, regional sabitlik və mədəni diplomatiya) fəal şəkildə dəstəkləyən vətəndaş kimi formalaşır. Beləliklə, milli kimlik yalnız tarixi və mədəni atributlarla deyil, həm də real dövlətçilik və qlobal məsuliyyətlə tamamlanmış olur. Qalib xalq anlayışının müasir milli kimliyə təsiri sosial strukturların və vətəndaş davranış modellərinin yenilənməsində də özünü göstərir. Qələbə vətəndaşın dövlətə münasibətində məsuliyyət hissini gücləndirir, ictimai həmrəyliyi möhkəmləndirir və milli məqsədlər ətrafında konsolidasiyanı təmin edir. Bu mərhələdə milli kimlik yalnız kollektiv emosiyanın ifadəsi deyil, sosial intizam, hüquqi şüur və ictimai iştirak forması kimi çıxış edir.

Nəzəri baxımdan qalib xalq və müasir milli kimlik arasında qarşılıqlı asılılıq mövcuddur. Qələbə milli kimliyin legitimliyini gücləndirir. Güclənmiş milli kimlik isə nailiyyətlərin davamlı siyasi və sosial nəticələrə çevrilməsini təmin edir. Bu qarşılıqlı dinamika milli kimliyi statik anlayışdan çıxararaq, davamlı inkişaf və özünüyeniləmə potensialına malik ideoloji konstruksiyaya çevirir. Ərazilərin bərpası, sosial-iqtisadi reinteqrasiya və mədəni irsin dirçəldilməsi milli kimliyi yaradıcı və inkişafyönlü məzmunla zənginləşdirir. Bu proses müasir milli kimliyin gələcək nəsillərə ötürülən yalnız tarixi yaddaş deyil, həm də davamlı inkişaf və dövlətçilik məsuliyyəti kimi formalaşmasını təmin edir.

Belə nəticəyə gəlmək olar ki, "qalib xalq" anlayışı Azərbaycan modeli prizmasında müasir milli kimliyin formalaşmasında psixoloji, siyasi və ideoloji baxımdan həlledici rol oynayır. Bu anlayış milli qüruru məsuliyyətlə, tarixi ədaləti hüquqi davranışla, kollektiv özünəinamı isə uzunmüddətli inkişaf strategiyası ilə uzlaşdıran konseptual çərçivə yaradır. Beləliklə, qalib xalq statusu müasir milli kimliyin nəticəsi olmaqla kifayətlənmir, eyni zamanda onun davamlı inkişafını təmin edən əsas ideoloji və praktik resursu kimi çıxış edir. Beləliklə, müasir azərbaycanlı olmaq tarixi yaddaş, milli-mənəvi dəyərlər və dövlətçilik şüurunun sintezini ifadə edir. Bu anlayış yalnız etnik mənsubiyyətlə məhdudlaşmır, siyasi məsuliyyət, hüquqi şüur, milli maraqlara sədaqət və qlobal arenada fəal vətəndaş mövqeyi kimi əsas komponentləri birləşdirir.

Heydər Əliyevin formalaşdırdığı milli ideoloji təməl və İlham Əliyevin onu çağdaş çağırışlara uyğun inkişaf etdirməsi nəticəsində azərbaycanlı kimliyi statik anlayışdan çıxaraq strateji və dinamik milli konsepsiyaya çevrilmişdir. Bu gün azərbaycanlı olmaq güclü dövlətə mənsub olmaqla yanaşı, həm də dövlətin gələcəyini formalaşdıran, onun regional və qlobal mövqeyini gücləndirən aktiv subyekt olmaq deməkdir.

Müasir azərbaycanlı modeli həm milli kimliyin qorunmasını, həm də ölkənin beynəlxalq nüfuzunun artırılmasını, strateji tərəfdaşlıqların yaradılmasını və qlobal proseslərdə fəal iştirakını təmin edir. Bu yanaşma gələcək nəsilləri inkişaf, dövlətçilik məsuliyyəti və yeni uğurlara çağıran ideoloji və praktik çərçivə rolunu oynayır. Məhz bu konseptual çərçivədə Qərbi Azərbaycana qayıdış ideyası müasir azərbaycanlı kimliyinin tarixi-siyasi bütövlüyünü tamamlayan fundamental istiqamət kimi meydana çıxır; bu ideya kollektiv yaddaşın bərpası ilə yanaşı, milli kimliyin zorla qoparılmış tarixi-coğrafi qatının hüquqi, siyasi və diplomatik müstəvidə yenidən milli şüura inteqrasiyasını ifadə edir. Qərbi Azərbaycana qayıdış müasir azərbaycanlı modelində emosional çağırışdan daha çox beynəlxalq hüquqa əsaslanan uzunmüddətli dövlətçilik strategiyasının tərkib hissəsi kimi dərk olunur və qalib xalq statusu, hüquqi şüur və tarixi məsuliyyət anlayışları ilə uzlaşaraq gələcək nəsillər üçün inkişaf, milli davamlılıq və yeni tarixi nailiyyətlərə yönəlmiş vahid ideoloji xətt formalaşdırır.

Bununla yanaşı, müasir azərbaycanlı kimliyinin inkişafında türk dünyası ilə əlaqələr strateji əhəmiyyət kəsb edir. Azərbaycanlı kimliyi yalnız daxili milli inkişaf çərçivəsində deyil, türk dövlətləri ilə mədəni, siyasi və iqtisadi əməkdaşlıq müstəvisində də özünü təsdiqləyir. Bu əlaqələr türk dünyasının ortaq tarixi kökləri, dil və mədəni irs üzərində qurularaq müasir dövlətçilik və regional liderlik imkanlarını genişləndirir. Türk dövlətləri ilə sıx inteqrasiya azərbaycanlı kimliyinə həm qlobal miqyasda nüfuz, həm də müstəqil dövlətin strateji mövqeyinin gücləndirilməsi imkanını təqdim edir və milli kimliyin yalnız tarixi yaddaşla deyil, eyni zamanda geniş türk məkanda fəal siyasi və mədəni iştirakla da tamamlandığını göstərir. Bu yanaşma gələcək nəsillər üçün həm milli birliyi, həm də türk dünyası ilə ortaq inkişaf perspektivlərini təmin edən ideoloji və praktik çərçivə yaradır. Bütün bu ideoloji, siyasi və mədəni koordinatlar kontekstində formalaşan müasir azərbaycanlı kimliyi gələcək nəsillər üçün möhkəm mənəvi-siyasi dayaqlar yaradır.

*Tarixi yaddaşa söykənən, hüquqi şüur və dövlətçilik məsuliyyəti ilə tamamlanan bu kimlik modeli yeni nəsillərdə milli özünüdərkin daha da dərinləşəcəyinə, azərbaycanlı kimliyinin regional və qlobal miqyasda güclənərək davamlı inkişaf xətti üzrə möhkəmlənəcəyinə əsaslı inam formalaşdırır. Bu inam tarixi keçmişin qorunması ilə məhdudlaşmır, həm də milli gələcəyin məqsədyönlü şəkildə qurulmasına xidmət edən strateji dövlətçilik düşüncəsinin nəsildən-nəslə ötürüləcəyini təsdiqləyir.*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***

“Şəhərsalma və Memarlıq İli” 2026



# Tarixi memarlıq irsi, müasir şəhər mühiti və gələcək inkişaf konsepsiyası

**2026-cı ilin gəlişi ilə Azərbaycanda ölkəmiz üçün mühüm strateji əhəmiyyətə malik "Şəhərsalma və Memarlıq İli" başlandı. Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyevin 22 dekabr 2025-ci il tarixli sərəncamı ilə bu il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilmişdir.**

Artıq ilk günlərini yaşadığımız yeni ilin bütünlüklə şəhərsalma və memarlıq mövzusuna həsr edilməsi təsadüfi deyil. 2026-cı ildə ölkəmiz BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək. Bu qərar Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində getdikcə artan rolunun təcəssümü kimi ölkəmizdəki strateji inkişaf proseslərinin məntiqindən irəli gəlir. Eyni zamanda beynəlxalq səviyyədə Azərbaycana olan yüksək etimadın daha bir göstəricisidir.

## Şəhərsalma və memarlığa strateji baxış

Azərbaycan müxtəlif tarixi mərhələləri əhatə edən böyük şəhərsalma və memarlıq ənənələrinə malikdir. Bu ənənələr bəşəriyyət üçün son dərəcə maraqlı olan zəngin elementləri, təcrübələri, üslubları, yanaşmaları özündə birləşdirir. Paytaxt Bakı ilə regionların tarazlı inkişafının təmin edilməsi, BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə uzlaşdırılmış şəkildə dayanıqlı məskunlaşdırmanın təşviqi, memarlıq və şəhərsalma fəaliyyətinin müasir çağırışlara uyğun aparılması hazırda ölkəmizin sosial-iqtisadi inkişaf strategiyasının əsas prioritetlərindəndir.

Ermənistanın işğalı nəticəsində dağıdılmış ərazilərimizdə tarixi Zəfərimizdən sonra innovativ yanaşmalar əsasında canlanan genişmiqyaslı bərpa və quruculuq prosesləri dövlətimizin memarlıq və şəhərsalmaya strateji baxışını açıq şəkildə nümayiş etdirir. "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində "yaşıl enerji" zonası elan edilmiş bu ərazilərdə 2020-2025-ci illər ərzində - dünya memarlıq-inşaat təcrübəsində nadir rast gəlinən qısa zamanda 100-dən çox yaşayış məntəqəsi, o cümlədən 12 şəhər üzrə planlaşdırma sənədləri hazırlanmış, bərpa-quruculuq işlərinə start verilmişdir. Azərbaycanın mədəniyyət paytaxtı, xalqımızın qürur mənbəyi Şuşa şəhərinin tarixi simasının və ənənəvi memarlıq mühitinin bərpası ilə dirçəldilməsi isə bu prosesin ən simvolik nümunələrindən biri, milli iradənin parlaq təzahürü olmuşdur.

Azərbaycanda milli şəhərsalma forumlarının təşkili də artıq xoş bir ənənəyə çevrilib. Bu cür milli şəhərsalma forumlarının müvafiq sessiyalarında dayanıqlı şəhərsalma, iqlim dəyişmələrinə uyğunlaşma, inklüziv inkişaf və şəhərlərin bərpası kimi aktual məsələlərə diqqət yönəlir, əhalinin mənzil təminatı, maliyyə və innovasiya mexanizmləri, ərazi planlaşdırılması, rəqəmsallaşma, mədəni irsin qorunması və sağlam şəhər icmaları sahələrində qabaqcıl təcrübələr təqdim olunur. Dünyanın müxtəlif ölkələrindən gəlmiş iştirakçılar Azərbaycanda postmünaqişə dövrünün bərpa modeli ilə yaxından tanış olmaq imkanı qazanırlar. Ötən ilin oktyabrında Xankəndidə və Bakıda belə milli şəhərsalma forumlarının artıq üçüncüsü keçirilmişdir. Bu baxımdan Azərbaycanın BMT-nin Dünya Şəhərsalma Forumuna evsahibliyi etməsi və bunun "Şəhərsalma və Memarlıq İli"ndə baş verməsi son dərəcə əlamətdardır.

## Şəhərlərin gələcəyinə dair qlobal dialoq mərkəzi

Forum (WUF) BMT-nin şəhərsalma və dayanıqlı urbanizasiya sahəsində ən nüfuzlu beynəlxalq platformalarındandır. Belə bir forum ilk dəfə 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilib. Yada salaq ki, hələ 1996-cı ildə Habitat II Konfransından sonra şəhərsalma mövzularında mütəmadi müzakirələrə ehtiyacın yarandığı qəbul edilmişdir. Nayrobi isə UN-Habitat-ın mənzil-qərargahının yerləşdiyi şəhər olduğu üçün ilk forumun burada keçirilməsi həm simvolik, həm də praktik baxımdan məqsədəuyğun sayılmışdı.

2001-ci ildə BMT UN-Habitata urbanizasiya problemləri üzrə davamlı qlobal dialoq platforması yaratmaq mandatı vermiş və növbəti il baş tutan WUF zamanla urbanizasiya üzrə qlobal qərarların, təcrübə mübadiləsinin əsas platforması kimi formalaşdı. Artıq 24 ildir ki, forum ölkələr arasında təcrübə mübadiləsi üçün mühüm imkan yaradır, innovativ həllərin paylaşılmasını sürətləndirir, şəhərlərin gələcəyinə dair qlobal dialoq formalaşdırır.

Azərbaycanın bu il foruma evsahibliyi etməsi ölkəmiz üçün həm strateji, həm də praktik baxımdan mühüm üstünlüklər yaradır. İlk növbədə bu, dövlətimizin beynəlxalq mövqeyinin daha da güclənməsi baxımından önəmlidir. Belə ki, forumun keçirilməsi Azərbaycanın dayanıqlı inkişaf, şəhərsalma və urban transformasiya sahəsində qlobal dialoqun mərkəzinə çevrilməsi deməkdir. Bu isə ölkənin beynəlxalq nüfuzunu və yumşaq güc imkanlarını əhəmiyyətli dərəcədə artırır. Digər tərəfdən, şəhərsalma və planlaşdırmada qabaqcıl təcrübələrin mərkəzində olmaq, bu təcrübələrlə yaxından tanışlıq hər bir ölkə üçün faydalıdır. Bu baxımdan forum zamanı dünyanın aparıcı şəhərsalma ekspertləri, şəhər rəhbərləri və planlaşdırıcılarla birbaşa təmas innovativ yanaşmaların, "ağıllı şəhər" həllərinin və "yaşıl planlaşdırma" modellərinin Azərbaycana transferini sürətləndirir.

## Böyük qayıdış modelinin dünyaya təqdimatı

Dayanıqlı inkişaf gündəliyinin güclənməsi də mühüm məqamlardandır. Forum Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə, xüsusilə SDG 11 - Dayanıqlı şəhərlər və icmalar hədəfinə sadiqliyini real layihələr və nəticələrlə nümayiş etdirmək üçün güclü platforma rolunu oynayacaq.

Ən əsası isə WUF tarixi Zəfərimizdən sonra Azərbaycanın öz daxili imkanları hesabına sürətlə qurularaq inkişafa qovuşdurduğu, yeni həyatına başlayan Qarabağın, Şərqi Zəngəzurun beynəlxalq təqdimatı baxımından əlverişli platformadır. Bərpaolunan ərazilərdə "yaşıl şəhər", "ağıllı kənd", sıfırdan planlaşdırma təcrübələrinin tətbiqinin qlobal miqyasda tanıdılması üçün belə bir forum unikal imkanlar deməkdir. Bu, Böyük qayıdış modelinin beynəlxalq nümunə kimi mövqelənməsinə xidmət edir.

İnvestisiya və tərəfdaşlıq imkanlarını da unutmamalıyıq. Forum çərçivəsində qurulan əlaqələr şəhər infrastrukturu, enerji, nəqliyyat və tikinti sahələrinə beynəlxalq investisiya və texnologiyaların cəlb olunmasını stimullaşdıracaq, eyni zamanda insan kapitalını inkişaf etdirəcək və institusional tərəqqiyə yol açacaq. Yerli mütəxəssislər, universitetlər və dövlət qurumları üçün bilik mübadiləsi, yeni yanaşmaların öyrənilməsi və institusional potensialın gücləndirilməsi baxımından uzunmüddətli müsbət təsirlər doğuracaq.

Bir sözlə, BMT-nin Dünya Şəhərsalma Forumunun ölkəmizdə keçirilməsi Azərbaycana təkcə ev sahibi ölkə kimi deyil, şəhərlərin gələcəyini formalaşdıran aktiv qlobal oyunçu kimi və yüksək imic, təcrübə, investisiya və strateji mövqe qazandırır.

## Memarlıq irsinin qorunması və milli kimlik

Bütün bunları nəzərə alsaq, 2026-cı ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsinin ölkəmiz və cəmiyyətimiz üçün mühüm strateji, sosial, mədəni məna, xüsusi əhəmiyyət daşıdığını görürük. Bu qərar ilk növbədə dayanıqlı inkişafın institusionallaşdırılması baxımından əhəmiyyətlidir.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində şəhərsalma və memarlıq vahid dövlət siyasəti səviyyəsində ön plana çıxır. Planlı inkişaf, balanslı məskunlaşma, ekoloji yanaşmalar və uzunmüddətli şəhər modelləri artıq ayrıca təşəbbüs deyil, sistemli yanaşma kimi möhkəmlənir. Yaşıl şəhərlər ideyası gündəmə gəlməklə şəhər mühitində insan rifahı, ona əlçatanlıq, inklüzivlik və ekoloji tarazlıq əsas meyarlara çevrilir. Bu, təkcə yeni layihələrdə deyil, mövcud şəhər məkanlarının yenilənməsində də həyat keyfiyyətinin yüksəlməsinə xidmət edir.

Peşəkar potensialın və yaradıcı mühitin güclənməsi də "Şəhərsalma və Memarlıq İli"nin potensial faydalarındandır. Memarlar, urbanistlər, dizaynerlər və planlaşdırıcılar üçün yeni imkanlar açılır, peşəkar dialoq və beynəlxalq əməkdaşlıq genişlənir. Bu isə yerli kadrların bilik və bacarıqlarının qlobal səviyyəyə çıxmasına şərait yaradır.

Eyni zamanda Qarabağda, Şərqi Zəngəzurda tətbiq edilən modern yanaşma, sıfırdan qurulan şəhər və kəndlər müasir Azərbaycan şəhərsalmasının canlı laboratoriyasına çevrilir. "Ağıllı şəhər", "ağıllı kənd" və "yaşıl enerji" konsepsiyaları praktik nəticələrlə möhkəmlənir və beynəlxalq miqyasda nümunə kimi təqdim olunur.

"Şəhərsalma və Memarlıq İli"nin məhz Azərbaycanda BMT-nin Dünya Şəhərsalma Forumunun keçirildiyi dövrə təsadüf etməsi ölkəmizi qlobal urban gündəliyinin mərkəzinə gətirir, Azərbaycanın müasir şəhərsalma baxışını dünyaya nümayiş etdirmək üçün güclü platforma yaradır.

Memarlıq irsinin qorunması və milli kimlik baxımından da bu ilin mövzusu böyük faydalar verir. Tarixi şəhər mühitinin, memarlıq irsinin qorunması ilə müasir inkişaf arasında harmoniya yaradılır. Bu, milli kimliyin şəhər məkanında davamlı yaşamasını təmin edir. Prezidentin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncamında xüsusi vurğulanır: "UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş nadir sərvətlərimiz - qədim və Orta əsrlərin şəhər mədəniyyətini özündə təcəssüm etdirən İçərişəhər və Şirvanşahlar Saray Kompleksi, əzəmətli ruhunu indiyədək qoruyan Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı Azərbaycan şəhərsalma və memarlıq sənətinin dünya inciləri sırasında layiqli yer tutan yadigarlarıdır.

900 illiyi UNESCO çərçivəsində yubileyləri keçirilən böyük şəxsiyyətlər siyahısına daxil olunan qüdrətli sənətkar Əcəmi Naxçıvaninin Azərbaycan və Yaxın Şərq ölkələrinin Orta əsrlər memarlığına güclü təsir göstərmiş yaradıcılığı dövrün memarlıq məktəbinin ən yüksək zirvəsidir".

Nəticə etibarilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması təkcə bir sahənin önə çəkilməsi deyil. Bu, Azərbaycanın nümunəvi yaşayış modelinə, xalqın rifahına və ölkənin qlobal hədəfinə xidmət edən qərardır.

*İradə ƏLİYEVA,*
*“Azərbaycan”*

# Ölkəmiz strateji inkişaf mərhələsindədir

**"2025-ci il - "Konstitusiya və Suverenlik İli" başa çatdı. Dövlətin hüquqi əsaslarının, milli maraqlarının və müstəqil qərarvermə iradəsinin ön plana çəkildiyi bu dövr Azərbaycan üçün təkcə təqvim ili deyil, eyni zamanda strateji inkişaf mərhələsi kimi yadda qaldı".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Prezident İlham Əliyevin 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında 28 dekabr 2024-cü il tarixli sərəncamı dövlət müstəqilliyimizin hüquqi əsaslarının möhkəmləndirilməsi, suverenliyin təmin olunması və milli dövlətçiliyin təməl prinsiplərinin təsdiqi baxımından xüsusi siyasi əhəmiyyət kəsb edib. "Son beş ildə əldə olunan qələbələr ölkə Konstitusiyasında ərazi bütövlüyü və suverenliklə bağlı əksini tapmış mühüm müddəaların real və praktik təsir imkanlarını təmin edib. "Konstitusiya və Suverenlik İli" çərçivəsində həyata keçirilən tədbirlər, qəbul edilən qərarlar və aparılan ictimai-siyasi müzakirələr Azərbaycanın müstəqil dövlət kimi inkişaf yolunun hüquqi-siyasi əsaslarını daha da möhkəmləndirdi. Bu müddət ərzində Konstitusiyanın aliliyinin təmin edilməsi, suveren hüquqların qorunması və milli maraqlara əsaslanan idarəetmə modelinin təşviqi dövlət siyasətinin əsas prioritetləri sırasında yer aldı".



Deputat diqqətə çatdırıb ki, Konstitusiya hüququnun fundamental anlayışlarından biri suverenlikdir. Dövlət hakimiyyətinin ali, bölünməz və müstəqil xarakter daşıması ilə səciyyələnən bu anlayış həm siyasi-fəlsəfi, həm də hüquqi mahiyyətə malikdir. Konstitusiya suverenliyin hüquqi çərçivəsini müəyyən edən və onun əsas prinsiplərini normativ müstəvidə təsbit edən ali hüquqi sənəd kimi çıxış edir. Suverenlik dövlətin mövcudluğunu şərtləndirirsə, Konstitusiya həmin mövcudluğun hüquqi əsaslarını formalaşdırır. Son 30 ildə Konstitusiyamız yalnız hüquqi normalar toplusu deyil, həm də Azərbaycan xalqının dövlətçilik idealının ifadəsi kimi çıxış edib. "Onun müddəaları dövlət suverenliyinin, ərazi bütövlüyünün, insan hüquq və azadlıqlarının, eləcə də məhkəmə hakimiyyətinin müstəqilliyinin təmininə xidmət edib. Ermənistanın işğalı nəticəsində dövlət suverenliyimizin pozulması Konstitusiyada təsbit olunmuş bir sıra müddəaların uzun illər tam şəkildə reallaşdırılmasına imkan verməyib. Bu normaların ölkənin bütün ərazisində tam bərqərar olması yalnız 2023-cü il sentyabrın 20-də suverenliyin tam bərpasından sonra mümkün oldu. Beləliklə, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev torpaqlarımızın azad edilməsi və suverenliyimizin bərpası ilə yanaşı, Konstitusiyanın hüquqi qüvvəsini de-yure ölkənin bütün ərazisində təmin edən lider kimi tarixə düşdü. Qazanılan qələbələr Konstitusiyamızın ali prinsiplərinin real həyatda tam şəkildə təmin olunmasına şərait yaradıb. Xüsusi vurğulanmalıdır ki, Azərbaycan son beş ildə mütərəqqi sülh gündəliyini Ermənistana və onun havadarlarına qəbul etdirməyə nail olub. Prezident İlham Əliyev açıq şəkildə bəyan edib ki, Ermənistanın mövcud konstitusiyası dəyişdirilmədiyi təqdirdə sülh sazişinin imzalanması mümkün deyil. Hazırda sülh danışıqlarına mane olan əsas problem Ermənistan konstitusiyasında və dövlət atributlarında qonşu ölkələrin ərazi bütövlüyü və suverenliyinə təhdid yaradan müddəa və rəmzlərin mövcudluğudur. Rəsmi Bakı hesab edir ki, dayanıqlı sülhün və regional təhlükəsiz əməkdaşlıq mühitinin formalaşdırılması üçün revanşist yanaşmalara son qoyulmalı, keçmişə qayıdışa imkan verilməməlidir. Bu baxımdan Ermənistan konstitusiyasındakı ərazi iddialarına yol açan müddəaların dəyişdirilməsi ilə bağlı Azərbaycanın haqlı tələbinin yaxın dövrdə icra olunacağı artıq şübhə doğurmur", - deyə deputat əlavə edib.

K.Bayramov qeyd edib ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamə Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması və dayanıqlı sülhün təmin olunması istiqamətində atılmış mühüm addım kimi qiymətləndirilir. Bu sənəd iki ölkə arasında uzun illər davam edən gərginliyə son qoymaqla yanaşı, Ermənistanda revanşist və köhnə ideoloji yanaşmaların iflasını da ifadə edir. Ermənistan cəmiyyətində sülh prosesinə münasibətin artıq dəyişdiyi, qarşıdurmanın ölkə üçün iqtisadi gerilik və siyasi təcrid yaratdığı açıq şəkildə etiraf olunur.

Deputat bildirib ki, Azərbaycan Konstitusiyası son 30 ildə ölkədə insan hüquqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına və məhkəmə-hüquq islahatlarının ardıcıl şəkildə həyata keçirilməsinə etibarlı hüquqi zəmin yaradıb: "Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan bu islahatlar 2003-cü ilin oktyabrından etibarən Prezident İlham Əliyev tərəfindən dövrün tələblərinə uyğun şəkildə davam etdirilərək təkmilləşdirilib. Hüquqi dövlət quruculuğunun mühüm tərkib hissəsi kimi məhkəmə hakimiyyətinin yenilənməsi prioritet vəzifələrdən biri kimi müəyyən edilib. Bu strategiyanın nəticəsi olaraq məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsi, hakim korpusunun obyektiv və şəffaf əsaslarla formalaşdırılması, institusional şəffaflığın artırılması və elektron xidmətlərin genişləndirilməsi istiqamətində islahatlar daha geniş miqyas alıb. Prezidentin 2019-cu il 3 aprel tarixində imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman ilə ədliyyə və məhkəmə sistemində yeni mərhələ müəyyən edilib və islahatların müasir çağırışlara uyğun davam etdirilməsinə təkan verilib. Məhkəmə-Hüquq Şurasının təşkilatçılığı ilə fərmandan irəli gələn vəzifələrin icrası, eləcə də ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsi istiqamətində ardıcıl və sistemli tədbirlər davam etdirilir.

Prezident İlham Əliyev Azərbaycan dövlətinin humanizm və ədalət prinsiplərinə söykənən siyasətini ardıcıl şəkildə davam etdirərək "Konstitusiya və Suverenlik İli" münasibətilə amnistiya elan olunması təşəbbüsü ilə çıxış edib. Bu addım dövlətin vətəndaşa yönəlik siyasətinin, sosial ədalətə və insanpərvərliyə verdiyi önəmin növbəti bariz nümunəsi kimi qiymətləndirilir. Təqdim olunan amnistiya aktının layihəsi geniş sosial əhatəyə malikdir. Layihəyə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulur. Həmçinin bu əməliyyatlarda həlak olmuş və ya itkin düşmüş şəxslərin yaxın qohumları, Ermənistanın mülki əhaliyə qarşı hərbi təxribatları nəticəsində əlil olmuş şəxslər də amnistiyanın əhatə dairəsinə daxil edilir. Bununla yanaşı, amnistiya təşəbbüsü sosial həssas qruplara xüsusi diqqətin göstərildiyini ortaya qoyur".

K.Bayramov vurğulayıb ki, Azərbaycanın müstəqillik dövründə keçdiyi inkişaf yoluna baxdıqda siyasi sistemin davamlı təkmilləşdirildiyi və qabaqcıl dünya təcrübəsinin milli xüsusiyyətlərə uyğun tətbiq olunduğu aydın görünür. Bu yanaşma dövlətimizin sivil və hüquqi dəyərlərə sadiqliyini yalnız bəyanatlarla deyil, konkret addımlarla da təsdiqləyir. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə vurğulayıb ki, vətəndaş cəmiyyətinin qurulması, demokratikləşmə prosesinin sürətləndirilməsi və hüquqi dövlətin formalaşdırılması sadəcə şüar deyil, Azərbaycanın davamlı və hərtərəfli inkişafı üçün strateji şərtdir. Məhz bu baxımdan humanizmə əsaslanan amnistiya təşəbbüsü dövlətin uzunmüddətli inkişaf strategiyasının ayrılmaz tərkib hissəsi kimi çıxış edir və cəmiyyətlə dövlət arasında qarşılıqlı etimadı daha da möhkəmləndirir.

Deputat deyib ki, "Konstitusiya və Suverenlik İli"ndə həyata keçirilən tədbirlər, qəbul olunan qərarlar və aparılan müzakirələr Azərbaycanın suveren dövlət kimi inkişaf yolunu sürətləndirdi. Bu il ərzində konstitusiya və suverenlik prinsiplərinin qorunması, hüquqi dövlət quruculuğunun davamlılığının təmin olunması, həmçinin insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində mühüm nailiyyətlər əldə edildi. 2025-ci il həm də gələcək nəsillər üçün dövlətin hüquqi əsaslarına hörmətin, milli suverenliyin və ərazi bütövlüyünün qorunmasının əhəmiyyətini bir daha nümayiş etdirdi.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ötən ilin uğurlu yekunları

# Sülh, inkişaf və əmin-amanlıq

## 2025-ci il də ölkəmiz, xalqımız üçün bol uğurlarla yadda qaldı

**Başdan-başa "Konstitusiya və Suverenlik İli"-nin yaşatdığı qürur hissi ilə keçirdiyimiz 2025-ci il ölkəmiz, xalqımız üçün bol uğurlarla yadda qaldı. Ərazi bütövlüyümüzün bərpasının, suverenliyimizin təmininin diktə etdiyi şərtlər əsasında 8 avqust tarixli Vaşinqton Zirvəsində Azərbaycan ilə Ermənistan arasında sülh sazişi mətninin paraflanması ötən ilin ən əlamətdar günlərindən biri kimi tarixə yazıldı.**




Bu, Azərbaycanın hərb cəbhəsində qazandığı Qarabağ zəfərinin beynəlxalq müstəvidə də qəbul edilməsinin dünyanın güc mərkəzi Ağ Evdən rəsmi bəyanı idi. Zəfərimizin 5-ci ildönümünü qeyd etdiyimiz 2025-ci il həm də hərtərəfli inkişaf edən respublikamızın xarici siyasətdə mövqelərini daha da möhkəmləndirdiyi, iqtisadi potensialını daha da şaxələndirdiyi təqvim ili kimi diqqət çəkdi. Həmçinin yola saldığımız il Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı quruculuq və bərpa işləri, o ərazilərə mütəmadi qayıdışın həyata keçirilməsi ilə yadda qaldı.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə müraciətində Prezident İlham Əliyev də bildirdi ki, 2025-ci il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur: "Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır".

Ölkəmizin lideri onu da xüsusi vurğuladı ki, xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir.

### Tam və əbədi qələbə

Uzaqgörən siyasəti, yürütdüyü inkişaf strategiyası sayəsində Azərbaycanı regionun lider dövləti edən Prezident İlham Əliyev respublikamızı sözün əsl mənasında təhlükəsizlik adası kimi unikal ünvana çevirib. Dünyanın qarmaqarışıqlıq yaşadığı bir zamanda Cənubi Qafqazda sülh, inkişaf və əməkdaşlıq üçün formalaşdırılan mühüm tarixi şərait də məhz dövlətimizin başçısı İlham Əliyevin qəbul etdiyi qətiyyətli qərarlar və ortaya qoyduğu prinsipial mövqe sayəsində mümkün olub.

2025-ci ili xalqımız üçün əlamətdar edən məqamlardan biri də şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxr hissi ilə qeyd etməyimiz oldu. Beş il əvvəl 44 günlük müharibədə tarix yazaraq tam və əbədi qələbə qazanmağın gətirdiyi qüruru noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda bir daha yaşadıq. Hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində bu barədə danışan Prezident İlham Əliyev söylədi ki, son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır: "Yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir.

Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir".

### Bölgədə de-fakto sülh şəraiti mövcuddur

BMT TŞ-nin 30 ilə yaxın zaman ərzində kağız üzərində qalan qətnamələrini öz gücünə yerinə yetirərək ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan ötən beş il ərzində iki ölkə arasında normallaşma əldə olunması istiqamətində nümayiş etdirdiyi sülh səyləri ilə də beynəlxalq səviyyədə diqqət çəkir.

Bakı postmünaqişə dövründə bölgədə inkişafın və əməkdaşlığın mövcud olması üçün daim sülhü təşviq edir, bu istiqamətdə əməli işlər həyata keçirir. Elə bunun sayəsində keçən il 8 avqustda keçirilən Vaşinqton görüşündə bölgədə davamlı normallaşma, uzunmüddətli inkişaf üçün yeni imkanlar yarandı.

Həmin vaxt Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzalayıblar. Həmçinin Ağ Ev rəhbərinin iştirakı ilə sülh sazişinin mətni paraflanıb, vacib razılaşmalar əldə edilib.

ABŞ-də əldə olunan razılaşmalardan biri Azərbaycanın əsas hissəsinin Naxçıvan Muxtar Respublikası ilə birləşdirilməsi üçün Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə bağlıdır ki, bu layihə beynəlxalq daşımalar üçün tranzit imkanlarının genişləndirilməsinə böyük töhfə verəcək.

"Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq", - deyə müraciətində dövlətimizin rəhbəri bu məqamı xüsusi vurğuladı.

Prezident onu da qeyd etdi ki, biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik: "Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır".

### Bütün vəzifələr uğurla icra edilib

Azərbaycanın beynəlxalq platformalarda qazandığı nüfuzu, ölkələrlə çoxşaxəli əməkdaşlıq əlaqələri gündən-günə artır. Mühüm enerji və nəqliyyat qovşağına çevrilən ölkəmiz bu gün əməkdaşlıq üçün ən uyğun və etibarlı tərəfdaş kimi diqqət mərkəzindədir. Sözügedən müraciətində dövlətimizin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlu nəticələrinə toxunan Prezident İlham Əliyev dedi ki, bu gün bütün ölkə üzrə geniş quruculuq işləri aparılır, hər bir bölgədə inkişaf müşahidə olunur: "Biz beynəlxalq mövqelərimizi böyük dərəcədə möhkəmləndirə bildik. Bu gün Azərbaycana dünyada böyük hörmətlə yanaşırlar. Təsadüfi deyil ki, dünyanın aparıcı beynəlxalq aktorları Azərbaycanla əməkdaşlıq etmək üçün müxtəlif təkliflər irəli sürürlər. Bizim xarici siyasətimiz çoxşaxəlidir, bu siyasət bir çox istiqamətlər üzrə uğurla aparılır".

Dövlətimizin rəhbərinin milli çağırış kimi xarakterizə etdiyi "Böyük qayıdış" proqramı da uğurla icra edilir və ötən il də bu istiqamətdə xeyli iş görülüb. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən böyük quruculuq işləri sayəsində artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır.

Ölkəmizin qazandığı nailiyyətlərlə bağlı yuxarıda gətirdiyimiz nümunələr yola saldığımız ildə də dövlətimizin qarşısına qoyduğu vəzifələri uğurla icra etməsindən xəbər verir.

Yürüdülən uzaqgörən siyasət, atılan lazımi addımlar, qoyulan düzgün təməllər isə "Şəhərsalma və Memarlıq İli" elan edilən 2026-cı ilin də Azərbaycan üçün uğurlu olacağını deməyə əsas verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan praqmatik siyasət yürüdür

**Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə müraciəti Azərbaycan xalqı üçün olduqca əlamətdar olmaqla yanaşı, həm də dünyada gedən mövcud proseslərlə uzlaşır. Uzaqgörən liderimiz bildirdi ki, "kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkə tərəfindən qəbul edilib. Bu, həqiqətdə öz təsdiqini tapıb.**



Milli Məclisin deputatı Azər Badamov qəzetimizə açıqlamasında qeyd edib ki, dünyada beynəlxalq hüquq deyil, güc işləyir. Bu reallıqları düzgün dəyərləndirən Prezident İlham Əliyev olduqca praqmatik siyasət yürüdür. Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. Məlumdur ki, dünyanın müxtəlif yerlərində separatizm yuvaları yaradılır. Dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə ciddi təhdidlər yaranır. "Xalqlar assimilyasiyaya uğrayır, dəyərlər məhv edilir. Bir çox xalq və dövlət bu problemlərdən ciddi şəkildə əziyyət çəkir. Şübhəsiz ki, bu həm xalqın milli mənəvi dəyərlərinin aşınmasına, həm də onların çətin həyat şəraitinə - ölkələrindən, yuvalarından, torpaqlarından didərgin düşməsinə, öz doğmalarını itirməsinə, gələcəklərinin məhvinə səbəb olur. Bu gün də eyni tendensiyanın şahidiyik. Hansı dövlət güclüdürsə, digər dövləti əzməyə, məhv etməyə, dövlət kimi legitimliyini əlindən almağa çalışır", - deyə Azər Badamov əlavə edib.

Deputat bildirib ki, Prezident İlham Əliyev yalnız Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini deyil, həm də milli ləyaqətimizi bərpa edib: "İllər ərzində beynəlxalq platformalarda, beynəlxalq təşkilatlarda, dünyada belə bir imic formalaşdırmışdılar ki, Azərbaycan məğlub edilmiş ölkədir. ATƏT-in Minsk qrupunu da əbədi etməyə çalışırdılar. Bir tərəfdən bu platforma təqaüdə ayrılmış diplomatlar üçün turist səfəri kimi lazım idisə, digər tərəfdən bu, münaqişəni əbədi etmək, siyasi manevr imkanları qazanmaq məqsədi güdürdü. Azərbaycan bütün bu oyunların üzərindən birdəfəlik xətt çəkdi. Azərbaycan xalqının ləyaqəti, heysiyyəti ilə oynayan ATƏT-in Minsk qrupu artıq yoxdur, tarixin arxivinə qarışıb. Bir gün deyilsəydi ki, Azərbaycan bunları təkbaşına bacaracaq, bəlkə də şübhə ilə yanaşardılar. Lakin biz xalq, dövlət, millət olaraq bu çətin, son dərəcə mürəkkəb işin öhdəsindən gəldik".

A.Badamov vurğulayıb ki, "kim güclüdür, o da haqlıdır" reallığı hələ də davam edir. Azərbaycan Zəfər əldə etdikdən sonra yeni reallıqlar yaratmağa davam etdi. Biz heç kimə boyun əymirik. Azərbaycan öz tarixindən geri dönmür, qətiyyətlə, əzmlə, gələcəyə doğru irəliləyir.

Azərbaycanın nəqliyyat və kommunikasiya yollarının mərkəzində yerləşdiyini diqqətə çatdıran deputat bildirib ki, ölkəmiz zəngin enerji ehtiyatlarına malikdir: "Azərbaycan yeraltı və yerüstü sərvətlər baxımından zəngin ölkədir. Təbii ki, Azərbaycanda gözü olan, mövcud olan sabitliyi, daxili nizamı, oturuşmuş dövlət sistemini pozmağa çalışan qüvvələr var və bu baxımdan xarici siyasətdə edilən təzyiqlər nəticəsiz olduğu üçün zaman-zaman daxilə də əl atmağa çalışırlar. Lakin Azərbaycanda güclü xalq-iqtidar birliyi var. Bu baxımdan da Prezident müraciətinə "xalq-iqtidar birliyi" ilə başladı. Dövlət başçımız bildirdi ki, bizi qoruyan əsas amil "xalq-iqtidar birliyi"-dir. Xalqımız öz rəhbəri ətrafında sıx birləşib, hər an səfərbərik, hər an hər cür təhdidə qarşı çıxmağa hazırıq. Ölkə rəhbəri həm ordumuzu gücləndirir, Silahlı Qüvvələrin döyüş qabiliyyətini artırır, həm də dövlətin ideoloji əsaslarını daha da möhkəmləndirir. Prezident İlham Əliyev heç vaxt xalqın döyüş, əzmkar ruhunun məhv olmasına imkan vermir. Xalqımız torpağın nə demək olduğunu çox gözəl bilir. Torpaq itkisinin necə acı yaşatdığını həyatımızda görmüşük. Qaçqın və məcburi köçkün məsələsinin son dərəcə acınacaqlı olduğunu Azərbaycan təcrübədə yaşayıb. Bu baxımdan dünyada baş verən proseslər - dövlətlərin legitimliyinə, suverenliyinə, ərazi bütövlüyünə edilən təcavüzlər fonunda Azərbaycan öz reallığını yaratdı. Yəni çətin siyasi durumda biz nə etdiyimizi yaxşı bilirik".

A.Badamov deyib ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri xalq-iqtidar birliyi hesabına yenidən qurulur: "Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsinə dövlət sektoru, özəl sektor, sadə vətəndaş - hər kəs cəlb olunub. Bu, bizim üçün milli ləyaqət, milli səfərbərlikdir. Dünyada baş verən hadisələri Azərbaycan xalqı yaxından izləyir. Üzləşdiyimiz çətinliklər, keçdiyimiz tarixi yol bizi möhkəmləndirib. Azərbaycan xalqı çox gözəl bilir ki, bütün siyasi oyunların kökündə nələr dayanır. Bu baxımdan heç kəs bizi haqq yolumuzdan döndərə bilməz. Azərbaycan bərabərhüquqlu əsasda əməkdaşlığa hər zaman açıqdır. Prezident İlham Əliyev hər zaman dünyaya sülh mesajı verir. Cənubi Qafqazı bütün dünya, xalqlar üçün əməkdaşlıq platformasına, iqtisadi əlaqələrin mərkəzinə çevirmək istəyirik. Bütün bu proseslərin fonunda məqsədyönlü siyasətin yürüdülməsi Müzəffər Ali Baş Komandan İlham Əliyevin diplomatik bacarıqlarının, şəxsi keyfiyyətlərinin nəticəsidir".

Deputat yekunda qeyd edib ki, Azərbaycan həm Mərkəzi Asiyada, həm də Cənubi Qafqazda mühüm siyasi-iqtisadi mövqeyə malikdir. Bu, böyük siyasət deməkdir. Bu gün dövlətlərin və xalqların müqəddəratı acı şəkildə həll edilir, onların heç bir fikri soruşulmur. Beynəlxalq hüququn norma və prinsipləri demək olar ki, işləmir. Bütün bu reallıqlar kontekstində Azərbaycan gücdən istifadə edərkən də beynəlxalq hüquqa söykənir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da böyük uğurlara imza atacaq

**Prezident İlham Əliyev ötən ilin son günündə 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə Azərbaycan xalqına müraciət etdi.**



Prezident müraciətində 2025-ci il ərzində dövlətimizin, dövlətçiliyimizin daha da möhkəmlənməsi və xalqımızın firavan yaşaması üçün görülmüş işlərdən danışdı. Ötən il qazanılmış uğurlardan söz açan Prezident İlham Əliyev müraciətinin əvvəlində bildirdi ki, 2025-ci il arxada qaldı. Ölkəmiz, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır.

2025-ci il bir çox tarixi hadisə ilə yanaşı, şanlı Azərbaycan Ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında İkinci Qarabağ müharibəsində Ermənistan üzərində qazandığı tarixi Zəfərin beşinci ildönümünün böyük təntənə ilə qeyd olunması ilə xalqımızın yaddaşında qaldı. Xatırladaq ki, ötən il noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi parad keçirildi. Xalqımızın böyük sevinclə qarşıladığı hərbi paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif də iştirak etdilər.

Prezident İlham Əliyev xalqa müraciətində qürur dolu həmin günü xatırlayaraq bildirdi ki, biz şanlı Zəfərimizin beşinci ildönümünü böyük fəxarət hissi ilə qeyd etdik. Beş il bundan əvvəl Vətən müharibəsi zamanı əldə etdiyimiz tarixi Zəfərimiz bizimlə əbədi olacaq. Azərbaycan xalqı bu Qələbə ilə əbədi olaraq fəxr edəcəkdir. Biz otuzillik erməni işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi, milli ləyaqətimizi bərpa etdik. Zəfərimizin beşinci ildönümünə həsr olunmuş hərbi paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi.

Dövlətimizin başçısı xalqa müraciətində 44 günlük Vətən müharibəsində Ermənistan silahlı qüvvələrini darmadağın edən, erməni işğalçılarını diz çökdürən, millətimizə Zəfər sevinci yaşadan rəşadətli Azərbaycan Ordusunun gündən-günə artan gücünü xüsusi olaraq vurğulayaraq dedi ki, son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir: "Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. "Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq. Vətən müharibəsi dövründə hərbçilərimizin peşəkarlığı, qəhrəmanlığı, fədakarlığı, xalqımızın yumruq kimi birləşməsi bizim Qələbəmizi şərtləndirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır".

Erməni işğalçıları üzərində qazanılmış Zəfərin beynəlxalq müstəvidə də təsdiq olunması üçün ötən illər ərzində Prezident İlham Əliyevin rəhbərliyi altında uğurlu işlər aparılmışdır. Dövlətimizin başçısı müraciətində bu vacib məsələni də xalqımızın diqqətinə çatdıraraq demişdir ki, biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür. Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün mandat almış Minsk qrupu isə tarixin arxivinə göndərildi. Beləliklə, Qarabağ münaqişəsi artıq beynəlxalq gündəlikdən tamamilə silinmişdir.

Prezident İlham Əliyev xalqa müraciətində İkinci Qarabağ müharibəsindən sonra 30 ilə yaxın torpaqlarımızı işğalda saxlamış Ermənistanla aparılan sülh danışıqlarından, bu danışıqlarda əldə olunan uğurlardan da söz açdı. Dövlətimizin başçısı bildirdi ki, zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Başqa ölkələrin torpaqlarında gözümüz yoxdur. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək üçün silahdan istifadə edərək, BMT Nizamnaməsi çərçivəsində, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında öz suveren hüquqlarımızı təmin etmişik. Vətən müharibəsindən cəmi beş il keçəndən sonra Ermənistanla paraflanmış sülh müqaviləsi bir daha xalqımızın böyüklüyünü və bizim siyasətimizin müdrikliyini göstərir. Biz cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq.

Dövlətimizin başçısı müraciətində qələbənin asanlıqla qazanılmadığını vurğulayaraq bildirmişdir ki, döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır.

Prezident İlham Əliyevin müraciətindən də aydın göründüyü kimi, ötən il xalqımız üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə bir-birindən ürəkaçan uğurlar qazanılmışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, əldə olunan uğurların bünövrəsində heç bir qüvvənin sarsıda bilməyəcəyi güc olan xalq-iqtidar birliyi dayanır. Zaman keçdikcə bu birlik daha da möhkəmlənir, daha da bərkiyir. Xalq öz Liderinə inanır, onun uğurla həyata keçirdiyi daxili və xarici siyasəti ürəkdən bəyənir və alqışlayır. Deməli, xalqımız Prezident İlham Əliyevin rəhbərliyi altında bundan sonra da böyük uğurlar, zəfərlər qazanacaq və daha firavan yaşayacaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Ötən ilin uğurlu yekunları

# Unudulmaz idman tədbirləri

## Bu il "Dünyanın İdman Paytaxtı" seçilən Bakı uğurlarını davam etdirəcək

**Yola saldığımız il Azərbaycanda idmanın inkişafı və beynəlxalq idman əməkdaşlığının genişlənməsi baxımından yadda qalan illərdən biri oldu. "Formula-1", Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları, MDB Oyunları, dünya və Avropa çempionatları kimi nüfuzlu idman tədbirlərinə uğurla evsahibliyi etmiş ölkəmiz 2025-ci ildə də bir sıra mötəbər idman yarışları keçirdi. İl ərzində paytaxt Bakı və bölgələrdə keçirilən nüfuzlu idman yarışları ölkəmizin idman dövləti imicini bir daha təsdiqlədi, gənclərin idmana marağını artırdı və sağlam həyat tərzinin təşviqinə mühüm töhfələr verdi.**



İlin ən mötəbər idman hadisələrindən biri sentyabrın 19-21-də təşkil edilmiş "Formula-1" Azərbaycan Qran-prisi oldu. Xatırladaq ki, ölkəmiz 2016-cı ildən dünyanın ən nüfuzlu avtoidman yarışına evsahibliyi edir. Azərbaycanda təşkil olunan ilk "Formula-1" yarışı Avropa Qran-prisi adlandırıldı. Yalnız 2020-ci ildə Azərbaycan Qran-prisi koronavirus pandemiyası səbəbindən keçirilmədi.

Ölkəmizin paytaxtında 2025-ci ildə də təşkil edilən bu yarış dünya idman ictimaiyyətinin diqqətini yenidən Azərbaycana yönəltdi. Tarixi İçərişəhər divarları fonunda təşkil olunan yarış həm idman, həm də turizm baxımından ölkəmizə bir daha böyük maraq qazandırdı.

2025-ci ildə Bakı həm də döyüş idmanları üzrə mühüm beynəlxalq turnirlərə evsahibliyi etdi. Fevralın 14-16-da keçirilən "Böyük Dəbilqə" turniri dünyanın müxtəlif ölkələrindən olan yüzlərlə cüdoçunu Bakıda Milli Gimnastika Arenasında bir araya gətirdi. Bu yarışda Azərbaycan cüdoçularının uğurlu çıxışları yerli azarkeşlərin böyük coşqusuna səbəb oldu və milli komandanın beynəlxalq reytinqdə mövqeyini möhkəmləndirdi.

Beynəlxalq Cüdo Federasiyası (IJF) Bakıda keçirilmiş "Böyük Dəbilqə" turnirinin təşkilatçılığını yüksək qiymətləndirdi. Bu barədə qurumun rəsmi saytında yerləşdirilmiş yazıda beynəlxalq idman tədbirlərinə layiq bir yarış təqdim olunduğu diqqətə çatdırıldı: "Son üç gün xüsusilə həyəcanlı keçib və Bakıda, Milli Gimnastika Arenasında toplaşan böyük tamaşaçı kütləsinə möhtəşəm beynəlxalq idman tədbirlərinə layiq bir yarış təqdim olunub. Azərbaycan Cüdo Federasiyası və onun bütün tərəfdaşları Dünya Cüdo Turu təqvimində bu vacib yarışın böyük uğurla keçirilməsinə görə fəxr edə bilərlər. Hər şey mükəmməl şəkildə təşkil edilib ki, bu da iştirak edən 36 ölkədən olan idmançılara ən yaxşı performanslarını göstərmək və dünya reytinqi üçün vacib xallar toplamaq imkanı verib. Olimpiya təsnifatları hələ uzaqda olsa da, reytinq cədvəlində yüksək mövqedə qərarlaşmaq gələcək çempionlar üçün uğurun təminatı ola bilər".

Komanda idman növləri üzrə də il uğurlu oldu. Bakıda keçirilən Mini-futbol üzrə Dünya Çempionatı (WMF World Cup 2025) Azərbaycan idman tarixində xüsusi yer tutdu. Mayın 21-də Bakıda yerləşən Milli Gimnastika Arenasında Mini-futbol üzrə V Dünya Çempionatı start götürdü. Turnir dünya mini-futbol federasiyaları tərəfindən təşkil edilmişdi. İyunun 1-dək davam edən çempionatın final matçında ev sahibi olan Azərbaycan Macarıstanı 4:2 hesabı ilə məğlub edərək çempion oldu. Bu mötəbər yarışda Azərbaycan yığmasının dünya çempionu olması ölkədə idmana marağı daha da artırdı və böyük ruh yüksəkliyi yaratdı.

Hər zaman olduğu kimi, ötən il də intellektual idman növləri diqqətdən kənarda qalmadı. Azərbaycan Şahmat Federasiyası, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin dəstəyi ilə "Baku Open - 2025" Beynəlxalq Şahmat Turniri təşkil edib. Bu mötəbər turnir respublikamızın paytaxtında 27 aprel-6 may tarixlərində baş tutdu. "Baku Open - 2025" Beynəlxalq Şahmat Turniri dünyanın müxtəlif ölkələrinin istedadlı şahmatçılarnı paytaxtımıza topladı. Turnir Azərbaycan şahmat məktəbinin nüfuzunu bir daha nümayiş etdirdi və gənc



şahmatçıların beynəlxalq təcrübə qazanmasına imkan yaratdı.

Kütləvi idman tədbirləri sırasında "Bakı Marafonu 2025" xüsusi vurğulanmalıdır. Yarış üçün 28 minədək iştirakçı qeydiyyatdan keçdi. Mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bakı Marafonuna start verildi. "Küləyə qalib gəl" şüarı altında keçirilən Bakı Marafonunun start nöqtəsi ilə yanaşı, finişi də Dövlət Bayrağı Meydanında oldu. Artıq 8-ci dəfədir təşkil olunan Bakı Marafonuna tanınmış siyasi-ictimai, incəsənət xadimləri, ziyalılar, ümumilikdə, 200-dən çox rəsmi və fəxri iştirakçı qatıldı. Marafona Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb-çalışan əcnəbilər, həmçinin Almaniya, Amerika Birləşmiş Ştatları, Avstraliya, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Fransa, Hindistan, İspaniya, İtaliya, Kanada, Niderland, Özbəkistan, Polşa, Rusiya, Türkiyə, Ukraynadan və digər ölkələrdən qoşulanlar oldu.

Minlərlə insanın qatıldığı marafon sağlam həyat tərzinin təbliği, ictimai həmrəyliyin gücləndirilməsi və idmanın kütləviləşdirilməsi baxımından mühüm sosial əhəmiyyət daşıyır. Bakı Marafonunun məqsədi idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək idi.

Azərbaycanın ən qədim, zəngin mədəniyyətə malik şəhərlərindən biri olan Gəncə şəhəri 2025-ci ildə III MDB Oyunlarının "İdman Paytaxtı" seçilmişdi. Bu barədə qərar Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv dövlətlərin Bədən Tərbiyəsi və İdman Şurasının Belarusun paytaxtı Minskdə keçirilən iclasında qəbul olunmuşdu.

Gəncədə ötən il sentyabrın 28-də keçirilən möhtəşəm tədbirin - III MDB Oyunlarının təntənəli açılış mərasimini dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva izlədilər.

Azərbaycan Respublikasının üçrəngli bayrağı arenaya gətirilərək Dövlət himnimizin sədaları altında ucaldıldıqdan sonra III MDB Oyunlarında iştirak edən ölkələrin idmançılarının təntənəli paradı keçirildi.

Mərasimdə çıxış edən III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Samir Şərifov bildirdi: "Əminik ki, yeni istifadəyə verilən möhtəşəm Gəncə stadionunda açılışını etdiyimiz bu idman oyunları dostluq, sülh, qarşılıqlı hörmət meyarlarına əsaslanan ədalətli mübarizə meydanı olacaq, ölkələrimiz və xalqlarımız arasında əməkdaşlığın genişlənməsinə, münasibətlərin daha da dərinləşməsinə mühüm töhfə verəcək".

III MDB Oyunlarının Təşkilat Komitəsinin sədri Azərbaycanda idmanın inkişafına böyük əhəmiyyət verildiyini, Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində ölkəmizin beynəlxalq idman ailəsinin nüfuzlu və etibarlı üzvlərindən birinə çevrildiyini, Azərbaycanın müxtəlif illərdə ən mötəbər beynəlxalq yarışlara evsahibliyi etməklə bacarıqlı təşkilatçı kimi özünü təsdiq etdiyini, Bakıda 2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, eləcə də müxtəlif növlər üzrə dünya və qitə çempionatlarının yüksək səviyyədə keçirildiyini vurğuladı.

Müstəqil Dövlətlər Birliyinin baş katibi Sergey Nikolayeviç Lebedevin mərasim iştirakçılarına ünvanladığı məktubda qeyd etdiyi kimi, xalqlarımızın idman birliyinin parlaq rəmzinə çevrilən bu möhtəşəm idman hadisəsi yalnız atletlərin ən yüksək peşəkarlığını nümayiş etdirmək üçün bir platforma deyil, həm də MDB ölkələri arasında dostluq əlaqələrinin möhkəmlənməsinə, mədəniyyət və idman sahələrində çoxtərəfli əməkdaşlığın inkişafına xidmət edir.

Sentyabrın 28-dən Gəncə və daha altı şəhərimiz - Şəki, Qəbələ, Yevlax, Mingəçevir, Göygöl və Xankəndi III MDB Oyunlarına evsahibliyi etdi. On gün davam edən yarışlarda Müstəqil Dövlətlər Birliyi ölkələrindən, həmçinin oyunlara qatılan Türkiyə, Pakistan, Oman, Kuba və Küveytdən 2400 nəfərlik idman nümayəndə heyətləri iştirak etdilər. Oktyabrın 8-dək davam edən III MDB Oyunlarında yarışlar 12 idman məkanında keçirildi və atletlər 23 idman növü üzrə 1694 medal (505 qızıl, 505 gümüş, 684 bürünc) uğrunda mübarizə apardılar. Həmçinin qalib komandaların uğuruna ən çox töhfə verən idmançılar xüsusi mükafatlarla təltif edildilər.

2024-cü ildə Azərbaycanın "İdman paytaxtı" olan Quba şəhəri 2025-ci ildə estafeti Qəbələ şəhərinə verdi. Ötən il bu qədim şəhər üçün daha bir əlamətdar hadisə ilə yadda qaldı. Qəbələ həm də 2025-ci ildə MDB-də (Müstəqil Dövlətlər Birliyi) "Gənclər Paytaxtı" oldu. Qəbələ şəhəri 2023-cü il dekabrın 7-də Gənclər və İdman Nazirliyinin Kollegiya iclasında keçirilmiş səsvermə nəticəsində 2025-ci il üçün Azərbaycanın "İdman Paytaxtı" seçilmişdi. Ölkəmizin beynəlxalq miqyaslı tədbirlərə - dövlət başçılarının iştirakı ilə keçirilən Zirvə toplantılarına, görüşlərə, sammit və forumlara, beynəlxalq idman yarışlarına layiqincə evsahibliyi edən şəhərlərindən biri olan Qəbələ bu missiyanın da öhdəsindən layiqincə gəldi.

"Qəbələ - İdman Paytaxtı 2025"in açılış mərasimi yanvarın 16-da Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin və Qəbələ Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə keçirildi. Qəbələ Olimpiya İdman Kompleksində təşkil olunan tədbir müxtəlif idman növləri üzrə federasiyaların üzvlərinin paradı ilə başladı. Mərasimdə "Qəbələ - İdman Paytaxtı 2025"in maskotu "Marşal" ictimaiyyətə təqdim olundu.

Ötən il ərzində "İdman Paytaxtı" çərçivəsində Qəbələ şəhərində bir çox yarış və tədbir təşkil edildi. Bunlardan biri də 2025-ci il martın 5-də "Qəbələ - İdman Paytaxtı 2025" layihəsi çərçivəsində keçirilən Bədən Tərbiyəsi və İdman Günü ilə əlaqədar təntənəli idman tədbiri oldu.

2025-ci ilin "İdman Paytaxtı" olan Qəbələ şəhəri oktyabrın 24-26-da bədii gimnastika üzrə "Grace of Nature" turnirinə evsahibliyi etdi. Turnir oktyabrın 24-26-da Qəbələ Olimpiya İdman Kompleksində keçirildi. Üç gün davam edən turnirin iştirakçıları arasında ölkənin müxtəlif klublarından müxtəlif yaş kateqoriyasında idmançılar yer aldılar. Fərdi yarışlarda çoxnövçülük və alətlər üzrə proqramlar, qrup hərəkətlərində isə alətlərlə çıxışlar təqdim olundu. Yarışda ölkəmizin müxtəlif bölgələrini təmsil edən 20 idman klubundan fərdi proqram üzrə 203 gimnast və 8 qrup hərəkətləri komandası iştirak etdi. Bölgələrdə bədii gimnastikanın inkişafına töhfə vermək, gənc istedadların bacarıqlarını üzə çıxarmaq və onların beynəlxalq arenaya hazırlanmasına şərait yaratmaq bu yarışın əsas məqsədi oldu.

Respublikamızda 2025-ci ildə təşkil olunan ən maraqlı tədbirlərdən biri də IV İdman Festivalı oldu. Festivala noyabrın 17-də Şəki şəhərində start verildi. Şəki Olimpiya İdman Kompleksində keçirilən tədbirdə 24 federasiyanı təmsil edən 104 idmançı iştirak etdi.

Noyabrın 21-22-də festival çərçivəsində badminton, cüdo, kamandan oxatma, qılıncoynatma, qış idman növləri, stolüstü tennis, triatlon, voleybol, basketbol, reqbi, gimnastika, avarçəkmə, atletika, boks, taekvondo, velosiped idmanı, həndbol, atıcılıq, tennis, üzgüçülük, ağırlıqqaldırma, alpinizm, futbol və güləş idman növlərinin nümayişi oldu. IV İdman Festivalına noyabrın 22-də yekun vuruldu.

Dekabrın 21-də Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin, Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Atletika Federasiyasının, Zəfər Qaçış Klubunun təşkilatçılığı və Referans Medical Groupun tibbi dəstəyi ilə Qəbələ şəhərində "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Prezident kuboku" uğrunda marafon qaçışı keçirildi. "Qürurla irəli" şüarı altında 12 km məsafəyə təşkil olunan "Prezident kuboku" uğrunda keçirilən yarışın sonunda qaliblər mükafatlandırıldı.

İlin yekunları göstərdi ki, Azərbaycanda idman siyasəti uğurla inkişaf edir və bu istiqamətdə atılan addımlar öz real nəticələrini verir. Elə Bakının 2026-cı il "Dünya İdman Paytaxtı" elan olunması da bunun bariz nümunəsi oldu. Bu münasibətlə dekabrın 16-da dövlət rəsmilərinin və Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) nümayəndələrinin iştirakı ilə "Dünya İdman Paytaxtları" xatirə lövhəsinin rəsmi imzalanma mərasimi keçirildi. "Dünya İdman Paytaxtı" titulu rəsmi olaraq Monakodan Bakıya təhvil verildi.

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının (ACES) baş katibi Huqo Alonso Kastanon Bakı şəhərinin "Dünya İdman Paytaxtı" ("World Capital of Sports") elan olunmasına həsr edilmiş rəsmi təqdimetmə mərasimindən sonra jurnalistlərə açıqlamasında Bakının idman infrastrukturunu yüksək qiymətləndirdiklərini bildirdi.

Avropa İdman Paytaxtları və Şəhərləri Federasiyasının baş katibi qeyd edib ki, əsas məqsəd Azərbaycanda idmanı daha da kütləviləşdirmək və hər kəs üçün əlçatan etməkdir: "Biz bilirik ki, ölkənizdə müxtəlif idman növləri üzrə böyük mötəbər tədbirlər keçirilir. Əminik ki, Bakı 2026-cı ilin "Dünya İdman Paytaxtı" kimi yaxşı nümunə olacaq".

Beləliklə, 2025-ci il Azərbaycanda idmanın inkişafı və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından tarixə uğurlu il kimi düşdü. Ölkəmiz beynəlxalq yarışların təşkili və idmançılarımızın uğurları ilə həm regionda, həm də dünyada nüfuzunu artırdı, gənclərin idmana marağını yüksəltdi və sağlam həyat tərzinin təşviqinə töhfə verdi. 2026-cı ilin Bakı şəhərinin "Dünya İdman Paytaxtı" elan olunması isə göstərir ki, Azərbaycan idman sahəsində irəliləyişini davam etdirəcək və ölkəmizin idman uğurları gələcəkdə də beynəlxalq aləmdə təqdir olunacaq.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Azərbaycan regionun təhlükəsizliyinin təminatçısıdır

**Azərbaycan qazandığı böyük zəfərdən sonrakı beş il ərzində mövqelərini daha da möhkəmləndirib. Beynəlxalq aktorlar Azərbaycan kimi qətiyyətli, ədalətli, sülhpərvər tərəfdaşla əməkdaşlığa maraq göstərirlər. Bu xüsusda 2025-ci il ölkəmiz üçün növbəti uğurlu il kimi yadda qaldı. Azərbaycan ötən 5 il ərzində mövcud reallıqları beynəlxalq birliyə qəbul etdirə bildi. Prezident İlham Əliyevin 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi və Yeni il münasibətilə xalqa müraciətində də qeyd etdiyi kimi, "Biz Vətən müharibəsindəki Zəfərimizdən sonra yorulmadan bu Zəfəri beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək və təsdiqləmək üçün çalışmışıq və buna nail olmuşuq. Bütün dünya bizim Zəfərimizi qəbul edir və bizim haqlı olduğumuzu əyani şəkildə görür".**



Milli Məclisin deputatı Nigar Məmmədova "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, rəsmi Bakının əsas üstünlüklərindən biri də müharibədən sonra sülh təşəbbüsü ilə çıxış etməsidir: "Bu illər ərzində sülhün əsas təşəbbüskarı kimi Azərbaycanın nüfuzu daha da möhkəmləndi. Sülh istiqamətində atılan addımlar praktik nəticələr verməkdədir. Ötən ilin avqustunda Vaşinqtonda əldə olunan razılaşmalar da Azərbaycanın müdrik yanaşmasını təsdiqlədi. Cənab Prezidentin söylədiyi kimi, "Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq və cəmi beş ilə yaxındır ki, de-fakto sülh şəraitində yaşayırıq. Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır".

Deputat qeyd edib ki, Azərbaycanın diplomatik uğurlarından biri də 30 ilə yaxın müddətdə münaqişənin həlli istiqamətində heç bir addım atmayan ATƏT-in Minsk qrupunun tarixin arxivinə göndərilməsi olub. Bununla da Qarabağ münaqişəsinin artıq beynəlxalq gündəlikdən tamamilə silinməsinə nail olduq. Bu da rəsmi Bakının prinsipiallığı sayəsində gerçəkləşdi. Çünki Ermənistan hər cəhdlə bu yarıtmaz qrupun çətiri altında revanşist mövqeyini davam etdirmək istəyirdi, amma Azərbaycan Prezidentinin qətiyyəti burada da öz sözünü dedi və de-fakto fəaliyyətsiz olan "Minsk üçlüyü" ləğv edildi.

N.Məmmədova vurğulayıb ki, Azərbaycan faktiki qalib, eyni zamanda sülhpərvər və ədalətli tərəf kimi regionun təhlükəsizliyinin təmin olunması istiqamətində praktik addımlar atır: "Hərbi sahədə əldə olunan nailiyyətlər də regional təhlükəsizliyin bir hissəsidir. Zəfərin 5-ci ili münasibətilə keçirilən hərbi paradda da son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi dünyaya nümayiş etdirildi. Təbii ki, bu, müharibəyə hazırlıq demək deyil. Dövlət başçımızın da söylədiyi kimi: "Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir. Bugünkü dünyada beynəlxalq hüquq normaları işləmir, "kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib". Bu xüsusda Azərbaycanın ordu quruculuğu sahəsində gördüyü işlər regionun təhlükəsizliyi baxımından olduqca vacibdir".

Deputat bildirib ki, hər zaman bərabərhüquqlu tərəfdaşlığın tərəfdarı olan Azərbaycan həm də heç kimin daxili işlərinə müdaxilə etməməklə fərqlənir: "Cənab Prezident müraciətində bu məsələyə xüsusi toxundu. Bildirdi ki, bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanla əməkdaşlıq Aİ-ni geosiyasi böhranlara daha dayanıqlı edib

**Rumınıyanın ixtisaslaşmış iqtisadi nəşri "Financial Intelligence" Avropa İttifaqının enerji siyasətinə dair analitik materialında bildirib ki, son illərdə enerji mənbələrinin şaxələndirilməsi istiqamətində atılan addımlar Aİ-ni geosiyasi böhranlara qarşı daha dayanıqlı edib.**

AZƏRTAC xəbər verir ki, məqalədə Ukrayna müharibəsindən əvvəl Avropa İttifaqının təbii qaz idxalının təxminən 45 faizini, neftin isə 25 faizini Rusiyadan əldə etdiyi qeyd olunub. Sonrakı dövrdə isə Brüssel enerji təhlükəsizliyi strategiyasını köklü şəkildə yenidən quraraq təchizatçıların və nəqliyyat marşrutlarının diversifikasiyasına üstünlük verib.

Analitik təhlilə əsasən, hazırda Avropa enerji bazarında Norveç, ABŞ, Əlcəzair, Azərbaycan və Qazaxıstan əsas təchizatçılar sırasında yer alır. Xüsusilə mayeləşdirilmiş təbii qazın idxalında ABŞ-nin rolu əhəmiyyətli dərəcədə artıb. Bunun fonunda Rusiyanın Avropa enerji bazarındakı payı kəskin azalıb.

Materialda Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolu ayrıca vurğulanır. Bildirilir ki, "Cənub qaz dəhlizi" Avropa üçün alternativ və etibarlı enerji mənbəyi yaradaraq Aİ-nin strateji asılılığını azaldıb. Azərbaycan qazının Avropa bazarına çıxarılması, xüsusilə Cənubi və Cənub-Şərqi Avropa ölkələri üçün sabitləşdirici faktor kimi qiymətləndirilir.

"Financial Intelligence" nəşri yazır ki, enerji mənbələrinin diversifikasiyası Aİ-yə yalnız tədarük risklərini minimuma endirmək imkanı vermir, eyni zamanda enerji qiymətlərində sabitlik, iqtisadi davamlılıq və siyasi manevr imkanlarını da gücləndirir. Nəticə olaraq qeyd edilir ki, Avropa İttifaqının seçdiyi enerji strategiyası uzunmüddətli perspektivdə daha müstəqil, çevik və böhranlara davamlı Avropa modeli formalaşdırır və bu modeldə Azərbaycan kimi etibarlı tərəfdaşların rolu getdikcə daha da artır.




# Azərbaycan Prezidentinin yeni regional balans modeli

**Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslər regional mənzərənin keyfiyyətcə dəyişməkdə olduğunu göstərir. Həmin kontekstdə Azərbaycanın fəallığı aydın görünür. Digər tərəfdən, Bakının aktiv diplomatik müzakirələr və səfərlər məkanına çevrildiyi təsdiqlənir. İndi dünyanın müxtəlif ölkələrinin başçıları Azərbaycana səfər edir, əməkdaşlığın genişləndirilməsi ilə bağlı təkliflər irəli sürürlər.**

## Azərbaycan liderinin diplomatik fəallığı

Ümumiyyətlə, Azərbaycan Prezidenti İlham Əliyev daim yüksək diplomatik fəallıq nümayiş etdirir. Cənubi Qafqazda Azərbaycanın dövlət başçısı qədər aktiv müzakirələr aparan, intensiv xarici səfərlər həyata keçirən ikinci siyasi lider yoxdur. Bu gərgin zəhmət Azərbaycan dövlətinə və cəmiyyətinə mühüm nailiyyətlər qazandırmışdır. Bu proses indi də davam edir, hətta daha yüksək intensivlik və əhatə dairəsinin genişlənməsi fonunda özünü göstərir.

Ekspertlər bu xüsusda Prezident İlham Əliyevin ötən ilin son üç ayındakı fəaliyyətinə ümumi nəzər salırlar. Doğrudan da, çox qısa müddət ərzində dövlət başçısı müxtəlif xarici səfərlər həyata keçirmiş, onların hər biri ayrı-ayrılıqda çox faydalı olmuşdur. Bütövlükdə isə bu səfərlər müsbət nəticələrlə yadda qalmışdır. Bu, onu göstərir ki, Azərbaycan regional və qlobal miqyasda yeni geosiyasi reallıqların formalaşdırılması istiqamətində növbəti mərhələyə qədəm qoymuşdur. Onun ilkin faydası, təbii ki, Cənubi Qafqazda özünü göstərməkdədir.

Həmin rakursdan yanaşdıqda, artıq cəsarətlə demək olar ki, Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda yeni balanslaşdırıcı geosiyasi konfiqurasiya formalaşmaqdadır və bunu böyük dövlətlər də dəstəkləyirlər. Eyni zamanda regionda müəyyən gərginlik mənbələri də özünü göstərir. Bu iki tendensiyanın qarşılıqlı təsiri fonunda Cənubi Qafqazın hazırkı geosiyasi dinamikasına nəzər salmağa çalışaq.

## İlham Əliyevin əməkdaşlıq, təhlükəsizlik və sülhyaratma təşəbbüsləri

Dünyada geosiyasi gərginliyin mövcud olduğu danılmazdır. Müxtəlif regionlarda müşahidə edilən hərbi toqquşmalar, ixtilaflar, böyük dövlətlərin nüfuz uğrunda mübarizələri bəzən çox kəskin xarakter almaqdadır. İndi dünya ictimaiyyəti sakitlik və sabitliyin yaranmasında çox maraqlıdır. Lakin, təəssüf ki, əsas geosiyasi güc mərkəzləri hələlik buna nail olmaqdan çox uzaqdırlar. Dünyanın hər hansı bir regionunda müharibələrin dayandırılması mühüm uğur kimi qiymətləndirilir. Ancaq bütövlükdə davamlı və dayanıqlı sülhə nail olmaq üçün dünya hələ çox yol keçməlidir.

Belə bir şəraitdə Azərbaycan Prezidentinin diplomatik fəallığı mühüm əhəmiyyət kəsb edir. Çünki bu fəaliyyət birbaşa əməkdaşlıq, sülh və təhlükəsizliyə xidmət edir. Məhz bu baxımdan siyasətçilər İlham Əliyevin oktyabr ayında etdiyi səfərlərə və apardığı müzakirələrə ciddi önəm verirlər. Faktlar da onların haqlı olduğunu təsdiqləyir.

Ötən il oktyabrın 2-də Azərbaycan Prezidenti Avropa Siyasi Birliyinin Kopenhagendə keçirilən sammitində iştirak etmişdir. Sammitdə Prezident İlham Əliyevə diqqət xüsusilə böyük olmuşdur. Dövlətimizin başçısı Avropa İttifaqının təmsilçiləri ilə müzakirələr aparmışdır. Orada Azərbaycanın dünyada və xüsusilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında artan rolu açıq hiss edilmişdir. Avropalı rəsmilər Prezident İlham Əliyevə əməkdaşlığı inkişaf etdirmək zərurətilə bağlı müraciətlər etmişlər.

Azərbaycanın dövlət başçısı Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşdə hazırda ölkəmizin Avropa İttifaqının səkkiz üzv dövlətinə qaz ixrac etdiyini vurğulamışdır. Bu, Azərbaycanın Avropa İttifaqının enerji təhlükəsizliyinə verdiyi mühüm töhfədir. Eyni zamanda Azərbaycan Orta dəhlizin inkişafında da mühüm rol oynayır.

Sammit çərçivəsində Azərbaycanın dövlət başçısı ilə Fransa Prezidenti E.Makron da görüşmək istəyini ifadə etmişdir.

Beləliklə, Avropa Siyasi Birliyi, faktiki olaraq, Azərbaycanın müstəqil dövlət kimi regional və qlobal proseslərdə daha yüksək səviyyəyə yüksəldiyini etiraf etmişdir.

2025-ci il oktyabrın 7-də isə Prezident İlham Əliyev Qəbələdə Türk Dövlətləri Təşkilatının Zirvə görüşündə iştirak etmişdir. Azərbaycan liderinin tədbirdəki çıxışı və irəli sürdüyü təkliflər göstərmişdir ki, Bakı türk dünyasının inkişafında və təhlükəsizliyində aparıcı rol oynamaqda davam edir. Azərbaycan rəhbərinin 2026-cı ildə TDT-yə üzv dövlətlərin birgə hərbi təlimlərinin keçirilməsi ilə bağlı təşəbbüsü bu baxımdan çox maraqla qarşılanmışdır. Azərbaycan Prezidenti TDT çərçivəsində əməkdaşlıq, sülh və təhlükəsizliyin davamlı olması istiqamətində çox əhəmiyyətli addımlar atır.

Bununla yanaşı, İlham Əliyevin ötən il oktyabrın 10-da Düşənbədə MDB Dövlət Başçıları Şurasının iclasında iştirakı onu təsdiq edir ki, Azərbaycan regional münasibətlərin inkişafında maraqlıdır. Dövlət başçısının diplomatik addımlarında bu məqam xüsusi yer tutur. Buna görə də ekspertlər Prezident İlham Əliyevin Düşənbədə Rusiya Prezidenti ilə apardığı müzakirələri mühüm əhəmiyyətli hadisə hesab edirlər.

Nəhayət, oktyabrın 13-də Misirdə təşkil edilən və Yaxın Şərqdə sülhün təsis edilməsinə həsr olunmuş mötəbər tədbirə Azərbaycan Prezidentinin dəvət edilməsi də diqqətəlayiq hadisədir. Azərbaycan Prezidentini ABŞ Prezidenti Donald Tramp və Misir Prezidenti Əbdülfəttah əs-Sisi dəvət etmişlər. Bununla da Azərbaycanın Yaxın Şərqdə sülh və sabitliyin təminində rolunun daha da artdığı qəbul edilmişdir.

Prezident İlham Əliyevin diplomatik fəallığı noyabr və dekabr aylarında da yüksək olmuşdur. Bu fəaliyyətin ümumi təsiri ümumilikdə Azərbaycan dövlətinin geniş geosiyasi arealda statusunun yeni mərhələyə yüksəldiyini əks etdirir. Bunlardan ekspertlər bir neçə nəticə hasil edirlər. Qısaca onların üzərində dayanaq.

## Sabit dövlətin müstəqil xarici siyasəti

Bu, ciddi qənaətdir. Çünki hazırkı geosiyasi şərtlər daxilində və yeni çağırışların artdığı bir mühitdə müstəqil dövlətin sabitliyini qoruyub saxlamaq böyük siyasi məharət tələb edir. Prezident İlham Əliyev buna yüksək səviyyədə nail olmuşdur və həmin proses davam edir. O da çox önəmlidir ki, Azərbaycan müstəqil xarici siyasətini birmənalı şəkildə milli maraqlar üzərində qurur. Dövlət başçısının apardığı çoxsaylı müzakirələr bunu deməyə tam əsas verir. Bunun iki mühüm təsdiqini qeyd edə bilərik.

Birincisi, Azərbaycan Avrasiyada ərazi bürtövlüyünü və suverenliyini dayanıqlı formada təmin etmiş yeganə dövlətdir. Bu, Azərbaycan rəhbərinin davamlı olaraq sülh mövqeyində olmasının və dövlətimizin həmin istiqamətdə fəal siyasət həyata keçirməsinin nəticəsidir.

İkincisi, 2025-ci il avqustun 8-də Vaşinqtonda sülhün təmin olunması ilə bağlı əldə edilmiş razılıq Bakının təklif etdiyi beş əsas prinsip əsasında reallaşmışdır. Bu o deməkdir ki, dünyanın ən qüdrətli dövləti Azərbaycanın regional və qlobal miqyaslarda sülh siyasəti yeritdiyini rəsmən tanımışdır. Azərbaycan sülhsevər dövlətdir!

Siyasi şərhçilər Azərbaycan rəhbərinin vurğuladığımız təşəbbüslərini ümumiləşdirərək dövlətimizin beynəlxalq imicinin müsbət istiqamətdə inkişaf etdiyini xüsusi qeyd edirlər. Bu zaman aşağıdakı məqamlar ön plana çıxarılır.

Əvvəla, müasir dövrdə dünyanın müxtəlif regionlarında dövlətlər alyansı tez-tez dəyişir. Belə şəraitdə müstəqil dövlətin uğurlu, dəqiq və təmkinli manevrlər etməsi zərurətə çevrilir. Ekspertlərin fikrincə, Yaxın Şərq kontekstində Azərbaycan bu baxımdan çox uğurlu dövlətdir. Belə ki, İsraildən tutmuş Səudiyyə Ərəbistanına və İrandan tutmuş Türkiyəyə qədər geniş bir geosiyasi məkanda Azərbaycan barışdırıcı, sabitləşdirici və birləşdirici rol oynamaqdadır. Bununla Azərbaycan strateji balansın qorunmasına mühüm töhfə verir və eyni zamanda hər hansı bir tərəfi qıcıqlandırmadan ehtiyatlı siyasət yürüdür.

İkincisi, Azərbaycan Prezidenti böyük diplomatik ustalıqla Mərkəzi Asiya istiqamətində siyasətini davam etdirir. Artıq ekspertlər "5+1"-dən deyil, vahid "6"-dan bəhs edirlər. Mərkəzi Asiya dövlətləri Prezident İlham Əliyevi həmin regionun məşvərət görüşünə dəvət etdilər. Bunun fonunda Azərbaycan Orta dəhliz çərçivəsində regionlararası əlaqələrin yeni məzmun alması üçün təşəbbüslərini davam etdirir.

Üçüncüsü, Azərbaycan müxtəlif istiqamətlərdə həyata keçirdiyi siyasəti Cənubi Qafqazın geosiyasi sinerjisinə çevirə bilmişdir. Nəticə etibarilə, Bakının siyasi fəaliyyəti bizim regionda sülh, əməkdaşlıq və təhlükəsizliyin təmininə xidmət etməkdədir. Görünən odur ki, Prezident İlham Əliyev bu məqamları öncədən nəzərə almış və Cənubi Qafqazın müasir qlobal proseslərdə fəal region kimi çıxış etməsi üçün ciddi səylər göstərməkdədir. Bu kontekstdə ekspertlər bir faktı xüsusi vurğulayırlar.

Prezident İlham Əliyev Ermənistanla bağlı tarixi qərar vermiş, bu ölkə ilə ticari və nəqliyyat əlaqələrinə tətbiq edilən məhdudiyyətləri aradan qaldırmışdır. Bunu ekspertlər onilliklərlə mövcud olan münaqişədən sonra qalib tərəfin verdiyi tarixi qərar kimi qiymətləndirmişlər. Azərbaycan liderinin bu addımı həm də Vaşinqtonda əldə edilmiş razılığın fonunda mühüm müsbət fakt kimi qəbul edilir.

Həqiqətən də, həmin qərardan sonra Cənubi Qafqazda bir-birinin ardınca düşündürücü proseslər baş verməkdədir. Əlbəttə, onların heç də hamısı regionun rifahına xidmət etmir. Çünki Cənubi Qafqazda sülh və sabitliyin bərqərar olmasına qarşı çıxan dairələr hələ də mövcuddur. Ancaq məsələnin məhz bu kontekstdə qoyuluşu indi müşahidə edilən proseslərdə kimin kim olduğunu aydın görməyə imkan verir.

Eyni zamanda Cənubi Qafqazın hər üç ölkəsinin daxilində müşahidə edilən siyasi proseslərin məntiqi və məqsədi baxımından Azərbaycan Prezidentinin vurğulanan tarixi qərarının ciddi təsiri hiss olunur. Xüsusilə bu, Gürcüstan və Ermənistanın daxili siyasətində ciddi yeniliklərin meydana gəlməsi baxımından əhəmiyyətlidir.

Lakin məsələ bunlarla məhdudlaşmır. ABŞ, Avropa İttifaqı, Rusiya, Türkiyə və İran kimi güclərin Cənubi Qafqazda münasibətlərini aydınlaşdırmalarının yeni mərhələsinin başlandığı qənaəti formalaşmışdır.

Belə çıxır ki, Azərbaycanın dövlət başçısı Cənubi Qafqazda geosiyasi proseslərin məzmununa və onun fonunda geosiyasi konfiqurasiyanın yenilənməsinə ciddi təkan vermişdir. Məsələnin bu tərəfi üzərində geniş dayanaq.

## ABŞ və Aİ-nin Cənubi Qafqazda fəallığının yeni çalarları

ABŞ bütövlükdə Cənubi Qafqazın beynəlxalq layihələr kontekstində sabitlik və təhlükəsizlik məkanı olmasında maraqlıdır. Bu baxımdan, D.Tramp Azərbaycan Prezidentinin irəli sürdüyü təşəbbüsləri dəstəkləyir, paralel olaraq, regionda kommunikasiyaların inkişafına diqqət yetirir, o cümlədən Azərbaycanla Ermənistan arasında geniş və davamlı kommunikasiya əlaqələrinin bərpasına əhəmiyyət verir.

Lakin bunlarla yanaşı, Vaşinqtondan zaman-zaman İrana hərbi hədələr də gəlir. İran isə Cənubi Qafqaza ən yaxın ölkələr sırasındadır. Əgər İrana hər hansı ciddi hərbi müdaxilə olarsa, bu, digər layihələrlə yanaşı, Zəngəzur dəhlizi məsələsinin reallaşmasını da sual altına qoya bilər. Bundan başqa, ümumiyyətlə, rəsmi Tehranın Amerikanın regiona müdaxiləsinə reaksiyası heç də müsbət deyildir. Bu məqam son zamanlar açıq hiss olunur. Tehranın İrəvana mümkün təzyiqləri istisna deyildir. Deməli, ABŞ-nin Cənubi Qafqaz siyasətində hələ "daşlar bütünlüklə yerinə oturmamışdır".

Buna baxmayaraq, Avropa İttifaqının bu regionla bağlı siyasəti daha radikal və məqsədli təsir bağışlayır. Belə ki, Aİ Ermənistanla imzaladığı və strateji tərəfdaşlığa aid olan son sənəddə Azərbaycanın maraqlarına açıq-aşkar zidd olan müddəalara yer vermişdir. Məsələn, Brüssel heç bir əsas olmadan "Qarabağ qaçqınları" kimi cəfəng ifadəni sənədə salmışdır. Guya erməniləri Qarabağdan kimsə qovmuşdur və onlar indi "qaçqın"-dırlar. Halbuki real vəziyyət tamamilə fərqlidir. Belə ki, Bakı hətta kənardan köçürülərək Qarabağda yerləşdirilmiş ermənilərə reinteqrasiya təklif etmişdi. Ancaq onlar könüllü imtina edərək, Azərbaycanı tərk etmişlər. Onların gedişi üçün normal şərait yaradılmış, kimsənin burnu belə qanamamışdır.

Regionu könüllü tərk etmişlər qaçqın adlana bilməzlər. Bunun əksinə olaraq, Qərbi Azərbaycandan yüz minlərlə soydaşımız uzun müddət ərzində deportasiyaya məruz qalmışlar. Lakin Aİ-nin heç bir sənədində "Qərbi Azərbaycandan deportasiya olunmuşlar" ifadəsi yer almamışdır. İndi də Aİ rəsmilərinin heç biri azərbaycanlıların deportasiyasından danışmır, kəlmə belə kəsmirlər. Deməli, Avropa ənənəvi mövqeyindən hələ də geri çəkilməmişdir. Bundan başqa, "binokl siyasəti" də davam edir.

Avropanın bu cür siyasətinin nə zamana qədər davam edəcəyini dəqiq demək çətindir. Ancaq, görünür, yeni oyuna start verilmişdir. Məqsəd Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın tarixi yurdlarına qayıtmasının qarşısını süni yolla almaq, bununla da tarixi ədalətin bərpasına imkan verməməkdir. Bu yanaşma, eyni zamanda azərbaycanlıların öz tarixi vətənlərinə qayıdışının əngəllənməsinə hüquqi legitimlik vermək cəhdi kimi qiymətləndirilə bilər. Belə bir mövqenin perspektivli olduğuna inanmaq çətindir.

## Rusiya faktoru

Qeyd edilənlərin fonunda Rusiyanın da müəyyən fəallıq göstərdiyini qeyd etmək lazımdır. Moskva regionda ölçülübiçili siyasət həyata keçirir, lakin kifayət qədər sərt mesajlar da verir. Xüsusilə Ermənistanın Zəngəzur dəhlizi - Tramp marşrutu ilə bağlı Rusiyaya qarşı tutduğu mövqeni qəbul etmir. Ancaq maraqlıdır ki, rəsmi İrəvan Rusiyaya əməkdaşlıq təklifini etmişdir. Konkret olaraq, N.Paşinyanın Rusiyanın Ermənistan-Azərbaycan dəmir yolu bağlantısının bərpa etməsi üçün xahişi maraq doğurur. Ekspertlərin fikrincə, Kremlin bu təklifə verəcəyi reaksiyadan çox şey asılıdır.

## Gürcüstanın reaksiyası

Əslində, burada Gürcüstan faktorunu da nəzərə almaq gərəkdir. Rəsmi Tbilisi Azərbaycandan Ermənistana kommunikasiya açılmasına gözlənilən müsbət reaksiyanı vermədi. Diplomatik səviyyədə əlaqələrin yaranmağa başlaması müsbət qiymətləndirildi. Baş nazir İ.Kobaxidze Azərbaycandan Ermənistana neft məhsullarının tədarükünü alqışladı. Ancaq N.Paşinyanın bir bəyanatı vəziyyətin rəsmi təqdimatdan fərqli olduğunu ortaya qoydu. Ermənistanın Baş naziri xəbərdar etdi ki, gələcək mal daşımalarında Gürcüstan dəmir yolunun tarifləri ilə bağlı məsələ həll olunmasa, Azərbaycanla Ermənistan alternativ əlaqə yollarını axtaracaqlar.

## Türkiyənin fəallıq istiqamətləri

Türkiyənin baş verənlərə reaksiyası çox maraqlıdır. Rəsmi Ankara, bir tərəfdən, həmişə olduğu kimi, Ermənistana Azərbaycan məsələsini xatırladır, digər tərəfdən də Bakı ilə əməkdaşlıq və təhlükəzislik sferalarında daha sıx əlaqələr qurmaqda davam edir. İki qardaş ölkənin Müdafiə nazirlikləri arasında bağlanan növbəti təhlükəsizlik anlaşması bunun əyani göstəricisidir. Belə başa düşülür ki, Türkiyə Cənubi Qafqazda təhlükəsizlik məsələsinin daha həssas bir səviyyəyə yüksəldiyi qənaətindədir.

Mövcud vəziyyətə Ankara həm bütövlükdə regionda təhlükəsizliyin təmini, həm də ayrılıqda Zəngəzur dəhlizinin işləməsi kontekstində baxır. Son dövrlərdə bir sıra dairələrin Cənubi Qafqazda daha da fəallaşması fonunda hər iki aspektdə təhlükəsizliyə təhdidlər və risklər meydana gələ bilər. Buna görə də Türkiyə üçün ən yaxın strateji müttəfiqi olan Azərbaycanın təhlükəsizliyi daha önəmlidir.

Həmin müstəvidə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2025-ci il dekabrın 16-da Ankarada keçirilən 16-cı Səfirlər Konfransının iştirakçılarına müraciətində vurğuladığı iki məqam diqqət çəkir. Birincisi, "Ankara və Bakı Ermənistanla normallaşma prosesini bir-biri ilə sıx dialoq şəraitində irəli aparırlar". İkincisi, "Türkiyə Cənubi Qafqazla bağlı müəyyən simvolik addımlar atacaq".

Bu mesajlar dünyanın bir xüsusiyyəti anlamasını zəruri edir - Türkiyə ilə Azərbaycan Cənubi Qafqazda yalnız qarşılıqlı razılaşdırılmış addımlar atırlar. Ayrı-ayrı dairələrin dezinformasiyaları heç bir real təsir gücünə malik deyil. Çünki iki qardaş dövlət Şuşa Bəyannaməsinin şərtlərinə dəqiqliklə əməl edirlər. Hər ikisi həm Cənubi Qafqaz, həm də dünya miqyasında ortaq mövqedən çıxış edirlər. Buna görə də rəsmi Ankaranın 2026-cı ilin başlanğıcından Cənubi Qafqazla bağlı atacağı addımlar böyük maraq doğurur. Şübhə yoxdur ki, həmin addımlar regionda sülhün tam bərqərar olması və rifahın daha da yüksəlməsinə xidmət edəcəkdir.

## Yekun qənaət

Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi mənzərənin formalaşdırılması istiqamətində mühüm addımlar atmaqda davam edir. Bu siyasətin ümumi məqsədi regionu çiçəklənən təhlükəsiz geosiyasi məkana çevirməkdir. Bu kontekstdə Bakının İrəvanla konkret sferalar üzrə müəyyən layihələr həyata keçirməyə başlaması çox əlamətdardır. Ekspertlər bu prosesin davamlı olmasına böyük önəm verirlər. Bunların fonunda Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin "Euronews"a müsahibəsində "iki ölkə arasında münaqişə fəsli başa çatmışdır" deməsi reallığı əks etdirir.

Göründüyü kimi, Azərbaycan lideri İlham Əliyevin titanik səyləri nəticəsində regional sabitlik, əməkdaşlıq və təhlükəsizlik yeni mərhələyə yüksəlmişdir. İndi daha çox sayda böyük güclər Cənubi Qafqazın geosiyasi dinamikasına Azərbaycan ssenarisi üzrə baxmağa başlamışlar. Bu uğurlu prosesə mane olmağa çalışan qüvvələr də mövcuddur. Lakin görünən odur ki, Azərbaycan qardaş Türkiyə ilə birlikdə bütün əngəlləri aşmaq gücündədir. Rəsmi Ankara bu kontekstdə Azərbaycan rəhbərinin bütün addımlarını dəstəkləyir! ABŞ də öz dəstəyini getdikcə artırır.

*Kamal ADIGÖZƏLOV,*
*siyasi analitik*

# Azərbaycan sülh gündəliyinə sadiqdir

**Azərbaycan və Ermənistan arasında siyasi və iqtisadi müstəvidə cərəyan edən hadisələr göstərir ki, Prezident İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti sayəsində Cənubi Qafqazda dayanıqlı sülh və sabitlik üçün ciddi addımlar atılır.**

Ötən il avqustun 9-da Vaşinqtonda imzalanan 2 mühüm sənəd - Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Anlaşması və Azərbaycan-Ermənistan arasında sülh sazişinin paraflanması Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən siyasətinin növbəti zəfəri kimi tarixə düşdü. ABŞ Prezidenti Donald Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında uzun illər davam edən münaqişəyə son qoyan tarixi sülh sazişinin paraflanması Cənubi Qafqazda yeni dövrün başlanğıcı oldu. Həm də bütün dünyaya bir daha bəlli oldu ki, ölkəmiz regionda sülh və inkişafın qarantıdır. Həmin sazişdən irəli gələn reallıqdır ki, son 35 ildə ilk dəfə olaraq Azərbaycandan Ermənistana neft məhsullarının tədarük edilməsi regionda, eləcə də bölgədən kənarda diqqətlə izlənilən bir hadisədir. Ötən il dekabrın 18-də 1220 ton Aİ-95 markalı benzinin Ermənistana çatdırılması uzun müddət bağlı qalmış əlaqələrin yenilənməsinə zəminlik yaradır. Bu, təkcə iqtisadi mahiyyət daşımır, eyni zamanda siyasi və psixoloji baxımdan mühüm mesajdır. Hər iki ölkə arasında sülh və vətəndaş münasibətlərinin qurulması region üçün tarixi dönüş nöqtəsi ola bilər.

Xatırladaq ki, bundan əvvəl Qazaxıstan və Rusiyaya məxsus buğda yükləri ölkəmizin dəmir yolları vasitəsilə Ermənistana çatdırılmışdı. Həmin daşımalar tranzit mexanizmlərinin texniki və təhlükəsiz şəkildə işlək olduğunu nümayiş etdirdi. Prosesin insidentsiz başa çatması tərəflər arasında praktik əməkdaşlıq imkanlarının mümkünlüyünü göstərdi. Bu fakt həm də sübut etdi ki, regional nəqliyyat və logistika xətləri siyasi iradə olduqda effektiv şəkildə istifadə oluna bilər.

Əlbəttə, uzun illər Azərbaycan torpaqlarını işğal altında saxlamış Ermənistana yanacaq kimi strateji materialın göndərilməsi asan məsələ deyil. Müharibələr, itkilər, bunun nəticəsində formalaşmış ağrılı yaddaş fonunda atılan hər addım cəmiyyətin diqqət mərkəzinə düşür. Bununla belə, Azərbaycanın regionda sabitlik və qarşılıqlı fayda prinsipinə söykənən yanaşması sülhün və sabitliyin bərpasının, iqtisadi inkişafın mümkünlüyünü göstərir.

Ekspertlərin fikrincə, region dövlətlərinin rəsmi nümayəndələrinin, habelə vətəndaş cəmiyyəti institutlarının fəal iştirakı bu prosesi gücləndirmək, dəstək vermək imkanlarına malikdir. Bu xüsusda, Azərbaycan və Ermənistan arasında aparılan danışıqların yalnız siyasi müstəvidə deyil, ictimai səviyyədə də dəstəklənməsi diqqətçəkəndir. Bu mənada Prezident İlham Əliyevin regionda sülhün yaranmasına və iqtisadi inkişafa hesablanmış ideyasını dəstəkləyən QHT təmsilçilərinin Ermənistana səfərlərinin reallaşması diqqətçəkəndir. Azərbaycan və Ermənistan arasında sülh danışıqları kontekstində qarşıda duran əsas vəzifələrdən biri də tərəflər arasında etimad mühitinin gücləndirilməsidir.

Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətni hazırlanıb və buna uyğun sülh quruculuğuna dair mexanizmlərin tətbiqi müəyyənləşdirilib. Həmin mexanizmlərdən biri də vətəndaş cəmiyyəti institutları arasında əməkdaşlıqdır. Bu əməkdaşlığa gənclər, qadınlar və sülh quruculuğu sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları da cəlb oluna bilərlər. Maneələrin aşılması istiqamətində həyata keçirilən təşəbbüslər sülh prosesinə mühüm töhfə verə bilər. Beynəlxalq təcrübədə bu kimi təşəbbüslərə rast gəlinir. Azərbaycan danışıqlar müddətində hər zaman sülhün və inkişafın qarantı olduğunu nümayiş etdirib. Azərbaycan sülh gündəliyinə sadiqdir və bu prosesdə ardıcıl və prinsipial mövqe nümayiş etdirir. Habelə, digər sahələrdə də Azərbaycan eyni yanaşma ilə çıxış edir. Bu prosesdə əsas məsuliyyət Ermənistan tərəfinin üzərinə düşdüyündən onların vətəndaş cəmiyyəti daha fəal və təşəbbüskar mövqe sergiləməlidir. Önəmli məqamlardan biri də Qərb institutlarının bu prosesdən kənarda saxlanılmasıdır. Uzun illər Qərb bu sahədə təşəbbüsü öz əlində saxlayıb, öz iradəsini diktə etməyə çalışıb. Amma indi Azərbaycan və Ermənistan heç bir kənar müdaxilə olmadan etimad quruculuğu prosesini həyata keçirir. Təəssüf doğuran odur ki, Ermənistanda revanşist qüvvələr müharibənin nəticələrini və sülh prosesini qəbul etmirlər. Lakin Ermənistanda sülhü, qonşularla əməkdaşlığı dəstəkləyənlər də az deyil. Analitiklər hesab edirlər ki, Paşinyana Ermənistanda dəstək kifayət qədər böyükdür.

Azərbaycan həmişə olduğu kimi, sülh şərtlərində israrlıdır. Ölkəmizin Ermənistana tranzit yolu verməsi Paşinyana siyasi dividend qazandırır. Hələlik görünən odur ki, Ermənistan daxilində, siyasi cameədə qarşıdurma səngiməyib, parlament seçkiləri öncəsi hakimiyyətə iddialı qüvvələrin fəallaşması müşahidə olunmaqdadır. Bundan başqa, Qarabağı könüllü tərk etmiş erməniləri gündəmə gətirmək, bunun üzərində manipulyasiya cəhdləri, TRIPP marşrutu ətrafında spekulyativ bəyanat və şərhlər Paşinyan komandasını qarşıda gərgin siyasi mübarizənin və çətin sınaqların gözlədiyindən xəbər verir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev mətbuata açıqlamasında bildirir ki, Azərbaycan regionda sülhün və inkişafın təminatçısı olaraq artıq Ermənistana tranzit xətti verib, müxtəlif təyinatlı yüklərin daşınması həyata keçirilir. Yəni kommunikasiyaların qarşılıqlı açılması istiqamətində real addımlar atılır. Bu qərarlar sülh prosesinə həm siyasi, həm də iqtisadi cəhətdən dəstəyin verilməsi deməkdir. Bu həm də Paşinyanın mövqeyini möhkəmləndirir, ona müəyyən dərəcədə siyasi dividend qazandırır.

Artıq TRIPP layihəsinin həyata keçirilməsi prosesi başlayıb. Bu marşrutun reallaşması Birləşmiş Ştatlar və Ermənistan arasında olan məsələdir. Bununla yanaşı, Ermənistanla Azərbaycan arasında davam edən sülh prosesinin vacib elementi sayılır.

Azərbaycan sülh və inkişafın qarantı olaraq regional liderliyə xas davranış sergiləyir. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, sülh sazişi kağız üzərində qalan sənəd olmamalı, real həyatla, gündəlik münasibətlərlə möhkəmlənməlidir. Məhz bu cür iqtisadi və humanitar addımlar sülhü mücərrəd anlayışdan konkret prosesə çevirə bilər.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Omanda səfərdədir





**Oman Sultanlığı Hökumətinin dəvəti ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva bu ölkədə səfərdədir.**

AZƏRTAC xəbər verir ki, Maskat Beynəlxalq Aeroportunda Leyla Əliyevanı Omanın turizm və mədəni irs nazirinin müşaviri Azzan Al Busaidi qarşılayıb.

Səfər çərçivəsində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman Sultanlığının turizm və mədəni irs naziri Salim bin Məhəmməd Al Mahruqi ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Oman arasında mövcud dostluq və əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğu vurğulanıb, xüsusilə turizm və mədəni irs sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə edilib.

Göstərilən qonaqpərvərliyə görə minnətdarlığını ifadə edən Leyla Əliyeva bu cür görüşlərin Azərbaycan-Oman münasibətlərinin inkişafına mühüm töhfə verdiyini vurğulayıb.

Leyla Əliyeva Azərbaycanın zəngin tarixi-mədəni irsi, turizm potensialı, o cümlədən sağlamlıq, ekoturizm, mədəni və qış turizmi imkanları barədə ətraflı məlumat verib.

Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın tarixi abidələrinin qorunması, bərpası və UNESCO çərçivəsində həyata keçirilən layihələr barədə danışaraq, bu sahələrdə Omanla təcrübə mübadiləsinin aparılmasının əhəmiyyətinə toxunub.



Söhbət zamanı iki ölkə arasında turist axınının artırılması, turizm qurumları və özəl sektor arasında birbaşa əlaqələrin qurulması, birgə layihələrin və tanıtım tədbirlərinin təşkili məsələləri barədə fikir mübadiləsi aparılıb.

Salim bin Məhəmməd Al Mahruqi Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduqlarını bildirərək, mədəni irsin qorunması və turizmin dayanıqlı inkişafı sahələrində təcrübə mübadiləsinin əhəmiyyətini vurğulayıb. Nazir Azərbaycanın Oman turistləri üçün cəlbedici istiqamət olduğunu qeyd edərək, qarşılıqlı səfərlərin və rəsmi nümayəndə heyətləri arasında təmasların fəallaşdırılmasını müsbət qiymətləndirib.

Görüşdə gələcəkdə turizm sərgilərində birgə iştirak, media və tanıtım səfərlərinin təşkili, eləcə də mədəni tədbirlər vasitəsilə xalqlar arasında əlaqələrin daha da möhkəmləndirilməsi barədə razılıq əldə olunub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Oman Milli Muzeyində və Mutrah bazarında olub

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Oman Sultanlığının paytaxtı Maskat şəhərində Oman Milli Muzeyində və Mutrah bazarında olub.**

AZƏRTAC xəbər verir ki, Leyla Əliyeva əvvəlcə Oman Milli Muzeyini ziyarət edib.

Heydər Əliyev Fondunun vitse-prezidenti burada müxtəlif guşələri gəzib, nümayiş etdirilən eksponatlarla tanış olub, onların tarixi haqqında ətraflı məlumat alıb.

Bu muzey Omanın tarixi və mədəni irsini əks etdirən əsas mərkəzlərdən biridir.

Rəsmi olaraq 2016-cı ildə fəaliyyətə başlayan muzeydə arxeologiya, dənizçilik, silahşünaslıq, etnoqrafiya, islam mədəniyyəti və s. üzrə zəngin kolleksiyalar nümayiş etdirilir. Burada hər biri Omanın mədəni irsinin fərqli aspektlərini əhatə edən 14 daimi qalereya mövcuddur, həmçinin müvəqqəti sərgilər üçün əlavə sahələr ayrılıb.

7000-dən çox əşyanın qorunub saxlanıldığı muzeydə rəqəmsal immersiv təcrübə qurğuları, kinoteatr və uşaqlar üçün kəşf sahələri var. Yaxın Şərqdə görmə qabiliyyəti zəif olanlar üçün ərəb Brayl əlifbası ilk dəfə burada tətbiq edilib.







Memarlıq həlli milli ənənələrlə müasir üslubun vəhdətini əks etdirən Oman Milli Muzeyi həm yerli əhali, həm də xarici turistlər üçün mühüm maarifləndirici platforma rolunu oynayır.

Muzeylə tanışlıqdan sonra Leyla Əliyevaya hədiyyə təqdim olunub, xatirə şəkli çəkdirilib.

❖ ❖ ❖

Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sonra Mutrah bazarında olub, burada satılan əşyalara baxıb, satıcılarla səmimi söhbət edib.

Qeyd edək ki, bu, ərəb dünyasının ən qədim və məşhur bazarlarından biridir. Tarixi bir neçə yüz il əvvələ gedib çıxan bu bazar Hindistan, Çin, Avropa və Yaxın Şərq ölkələrindən Maskat limanına gələn mallar üçün ticarət mərkəzi olub.

Mutrah bazarı dar, üstüörtülü küçələri və ərəb memarlığı ilə seçilir.

Bazarda ənənəvi tekstil, geyim, zərgərlik məmulatları, suvenirlər, ədviyyatlar, buxur, o cümlədən Omani buxuru, ətirlər, əl işləri ilə yanaşı, meyvə, tərəvəz, müalicəvi otlar və digər yerli məhsullar satılır.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Sultan Opera Evində olub







**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Sultan Opera Evində olub.**

AZƏRTAC xəbər verir ki, 2011-ci ildə rəsmi açılışı olan Opera Evi Omanın mədəniyyət və incəsənət sahəsində ən mühüm məkanlarından biridir. Musiqi gecələri, teatr tamaşaları, eləcə də konfrans və digər tədbirlərin təşkil olunduğu Opera Evində rəsm qalereyası da fəaliyyət göstərir. Sultan Opera Evi tərəfindən təqdim olunan müxtəlif əsərlər Omanın, həmçinin bir çox ölkənin bədii yaradıcılıq cəhətdən zənginliyini və rəngarəngliyini nümayiş etdirir.

Qeyd edək ki, bura ərəb dünyasında ikinci ən böyük Opera Evi hesab olunur.

Sultan Opera Evi ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı arasında əməkdaşlıq mövcuddur.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Omanın birinci xanımı ilə görüşüb

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskat şəhərində Oman Sultanlığının birinci xanımı Ülyahəzrət Sayyida Ahad bint Abdullah bin Hamad Al Busaidiyah ilə görüşüb.**



AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı Omanda görməkdən məmnunluğunu bildirən Sayyida Ahad bint Abdullah bin Hamad Al Busaidiyah onun ictimai fəaliyyətinin Azərbaycanla yanaşı, bir çox ölkədə, o cümlədən Körfəzin ərəb ölkələrində yüksək qiymətləndirildiyini vurğulayıb.

Omanın birinci xanımı Heydər Əliyev Fondunun vitse-prezidentinin ətraf mühitə, incəsənətə, mədəniyyətə, eyni zamanda xüsusi qayğıya ehtiyacı olan uşaqlara dəstəyi, xeyriyyə aksiyalarında yaxından iştirakı barədə məlumatlı olduğunu bildirib.



O həmçinin Azərbaycanda sənətkarlıq, xalçaçılıq, toxuma sənəti barədə də zəngin məlumatının olduğunu deyib.

Bu ölkədə olmağından məmnunluğunu bildirən Leyla Əliyeva görüşə, göstərilən diqqət və qayğıya görə təşəkkürünü ifadə edib. Heydər Əliyev Fondunun vitse-prezidenti Omana ilk dəfə səfər etdiyini vurğulayaraq, bunun ölkələrimizin mədəniyyət, incəsənət, xalçaçılıq, toxuculuq kimi sahələrdə fəaliyyət göstərən qurumları arasında gələcək əlaqələrə təkan verəcəyinə əminliyini bildirib.

Azərbaycanın xalçaçılıq və toxuculuq sahələrində zəngin ənənəsinin olduğunu bildirən Leyla Əliyeva bu xüsusda təcrübə mübadiləsinin önəminə toxunub.

Söhbət zamanı Azərbaycanla Oman arasında qeyd edilən sahələrdə birgə layihələrin işlənib hazırlanması barədə razılıq əldə olunub.

# Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Maskatda Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib

**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Omanın paytaxtı Maskat şəhərində Sultan Qabus adına Xərçəngin Kompleks Müalicəsi və Tədqiqatı Mərkəzini ziyarət edib.**



AZƏRTAC xəbər verir ki, Leyla Əliyevanı mərkəzdə tibb şəhərciyinin icraçı direktoru xanım Siham Sinaniyya qarşılayıb.



Heydər Əliyev Fondunun vitse-prezidenti mərkəzin müxtəlif bölmələrini gəzib, burada xəstəliyin müalicəsində istifadə olunan müasir tibbi avadanlıqlara baxıb.



Sonda burada müalicə alan xəstələr üçün Leyla Əliyevanın adından tibb mərkəzinə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, bu kompleks mərhum Sultan Qabus bin Səidin göstərişi ilə xərçəng xəstələrinə tibbi xidmət göstərmək məqsədilə yaradılıb.



Bu tibb ocağı 2023-cü ildə "Joint Commission International" (JCI) tərəfindən beynəlxalq akkreditasiya sertifikatı alıb. Kompleks Omanda tibb ocaqları arasında qısa müddətdə bu cür beynəlxalq akkreditasiya əldə edən ilk dövlət səhiyyə müəssisəsidir.

# "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzində bayram şənliyi təşkil olunub






**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşəbbüsü və təşkilatçılığı ilə "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, bayram tədbirində Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Tədbir uşaqlar üçün əsl bayram ovqatında keçib. Şaxta baba və Qar qızın iştirakı ilə təşkil olunan proqram çərçivəsində uşaqlar şeirlər səsləndirib, mahnılar ifa edib, müxtəlif bədii kompozisiyalarla çıxış edərək bayram sevincini bölüşüblər.

Leyla Əliyeva və Arzu Əliyeva mərkəzdə yaradılmış şəraitlə yaxından tanış olub, uşaqlar üçün formalaşdırılan sosial-psixoloji mühit, reabilitasiya və inkişafyönümlü xidmət modelləri ilə maraqlanıb, mərkəzin fəaliyyəti ilə bağlı ətraflı məlumat alıblar. Onlar uşaqlarla səmimi ünsiyyət quraraq onların istək və arzuları ilə maraqlanıb, bayram sevincini bölüşüblər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova mərkəzin əsas fəaliyyət istiqamətləri barədə məlumat verib. Bildirilib ki, "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzi çətin həyat şəraitində olan, valideyn himayəsindən məhrum və risk qrupuna aid uşaqların təhlükəsiz, sağlam və qayğı ilə əhatə olunan mühitdə reabilitasiyasını, sosial adaptasiyasını və cəmiyyətə inteqrasiyasını təmin etmək məqsədilə fəaliyyət göstərir. Qeyd olunub ki, uşaqların psixososial rifahının gücləndirilməsi və onların gələcək müstəqil həyata hazırlanması mərkəzin əsas prioritetləri sırasındadır.

Tədbirin sonunda uşaqlara bayram hədiyyələri təqdim olunub, onların Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayramları səmimi təbriklərlə qeyd edilib.

Tədbir çərçivəsində Leyla və Arzu Əliyevalar "Azərenerji" ASC tərəfindən mərkəzin ehtiyacları nəzərə alınaraq hədiyyə edilən avtomaşına da baxış keçiriblər. Qeyd olunub ki, nəqliyyat vasitəsi mərkəzin fəaliyyətinin operativliyinin artırılmasına, uşaqların müxtəlif reabilitasiya və sosial xidmətlərə çıxışının daha səmərəli təşkilinə töhfə verəcək.

Yekunda belə mərkəzlərin işinin gücləndirilməsi və fəaliyyət şəbəkəsinin genişləndirilməsi barədə fikir mübadiləsi aparılıb.

# Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində Yeni il süfrəsi açılıb





**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Ahıl şəxslər üçün sosial xidmət müəssisəsində 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə bayram şənliyi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva iştirak ediblər.

Leyla Əliyeva və Arzu Əliyeva sosial xidmət müəssisəsinin sakinləri ilə görüşüb, onlarla birlikdə bayram süfrəsi arxasında səmimi söhbət ediblər. Ahıl şəxslər ölkəmizdə yaşlı insanlara, onların problemlərinin həllinə hər zaman qayğı göstərildiyini söyləyib, burada onlar üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.



Bayram proqramı çərçivəsində bədii hissə də təqdim olunub. Ahıl şəxslər musiqilər ifa edib, şeirlər söyləyib, səhnəcik nümayiş etdiriblər.

Leyla Əliyeva və Arzu Əliyeva ahıl şəxsləri Yeni il münasibətilə təbrik edib, onlara cansağlığı arzulayıblar. Ziyarət zamanı onlar sosial xidmət müəssisəsində ahıllar üçün yaradılan şəraitlə də tanış olublar.

Tədbirin sonunda sosial xidmət müəssisəsinin sakinlərinə bayram hədiyyələri paylanılıb.

# "İlham Əliyev fiziki cəhətdən güclüdür, o, mütəmadi olaraq peşəkar şəkildə məşq edir"

**"İlham Əliyev fiziki cəhətdən güclüdür, o, mütəmadi olaraq peşəkar şəkildə məşq edir".**

AZƏRTAC xəbər verir ki, bu fikri Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev "Turkistan" qəzetinə müsahibəsində idmanla məşğul olmağı ilə seçilən MDB üzrə həmkarları haqqında suala cavab verərkən bildirib.

"Sadır Japarov futbol oynayır. Şavkat Mirziyoyev yaxşı fiziki formadadır, o da idman zalında məşq edir. Nikol Paşinyan velosipedçidir. Məlum olduğu kimi, Aleksandr Lukaşenko hələ də xokkey oynayır. Emoməli Rəhmon da sağlamlığından şikayət etmir, dənizçi dözümlülüyünə malikdir. Beləliklə, bütün həmkarlar əla fiziki formadadırlar", - deyə o, bildirib.



Prezidentin sözlərinə görə, Vladimir Putin bu yaxınlarda Bişkekdə keçirilən qeyri-rəsmi tədbir zamanı gənc cüdoçuya qarşı fənd tətbiq edərək yaşlı nəslin şərəfini qoruyub.

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası uşaqlar üçün bayram şənlikləri təşkil edib








**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə paytaxt Bakıda gələcəyimiz olan uşaqlar üçün silsilə bayram şənlikləri keçirib.**

Uşaqların asudə vaxtının mənalı və maraqlı keçməsi məqsədilə təşkil edilən bayram tədbirləri balacalara xoş ovqat və unudulmaz xatirələr bəxş edib.

Zövqlə, al-əlvan işıqlarla və Yeni il atributları ilə bəzədilmiş şənlik məkanlarında xüsusi tərtibatda hazırlanan proqramlar uşaqların böyük marağına səbəb olub. Şaxta baba və Qar qızın səmimi zarafatları, uşaqlarla birlikdə yolka ətrafında rəqs etmələri balacalara sevinc bəxş edib.

Rəngarəng musiqi nömrələri, maraqlı səhnəciklər uşaqların bayram əhvali-ruhiyyəsini daha da yüksəldib, azyaşlılar, xüsusilə də şəhidlərimizin bizə əmanət qoyduğu balacalar qayğı dolu mühitdə könüllərincə əylənib, sevincli anlar yaşayıblar.

Qeyd edək ki, Azərbaycan həmkarlar itifaqları tərəfindən ölkəmizin müxtəlif şəhər və rayonlarında yerləşən uşaq evlərində, internat məktəblərində kimsəsiz və valideyn himayəsindən məhrum olan uşaqlar üçün də şənliklər təşkil edilib.

*N.ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Azərbaycan "yaşıl enerji" yolunda daha bir məsafəni qət etdi



## Ötən ilin uğurlu yekunları

**2025-ci il Azərbaycanın enerji sektoru üçün yeni mərhələnin başlanğıcı kimi yadda qaldı. Qlobal enerji bazarlarında qeyri-müəyyənliyin davam etdiyi bir şəraitdə ölkə enerji siyasətində bərpaolunan mənbələrə keçidi sürətləndirdi. Günəş və külək enerjisi üzrə reallaşdırılan layihələr, "yaşıl enerji" zonası elan edilən ərazilərdə atılan addımlar və beynəlxalq tərəfdaşlıqlar ötən ilin enerji gündəmini müəyyən edən əsas istiqamətlərdən oldu.**

Ötən ilin yekunları göstərir ki, enerji sektorunda aparılan islahatlar və investisiya siyasəti bərpaolunan enerji mənbələrinin inkişafını prioritet istiqamətə yönəldib. Dövlət proqramları, beynəlxalq əməkdaşlıq və regional enerji strategiyası çərçivəsində günəş, külək və hidroenerji potensialının reallaşdırılması istiqamətində mühüm addımlar atılıb. Nəticədə həm daxili, həm də xarici investorlarla əməkdaşlıq genişləndirilib. Xüsusilə beynəlxalq enerji şirkətləri ilə imzalanan sazişlər bu sahəyə marağın artdığının mühüm göstəricisi kimi danılmaz fakt olaraq qalır.

Azərbaycanda bərpaolunan enerji sahəsinin sürətli inkişafı özünü rəqəmlərdə də göstərir. Energetika Nazirliyinin məlumatına görə, ölkədə ümumi quraşdırılmış bərpaolunan enerji gücü artıq təxminən 1829,6 MVt-a çatıb. Bunun 1443,5 MVt-ı su elektrik stansiyaları, 278,2 MVt-ı günəş, 63,5 MVt-ı külək, 37 MVt-ı bioenerji, 7,3 MVt-ı isə hibrid stansiyalardan ibarətdir. Bu mənbələr ümumi enerji gücünün təxminən 18,8 faizini təşkil edir.

Ən böyük "yaşıl enerji" layihələrindən olan 230 MVt gücündə "Qaradağ" Günəş-Elektrik Stansiyası (GES) 2023-cü il oktyabrın 26-da pilot layihə kimi istifadəyə verilib. Stansiya BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində və 262 milyon dollar dəyərində xarici investisiya hesabına inşa edilib. Burada hər il təxminən 500 milyon kVt/s elektrik enerjisi istehsal olunur ki, bu da 110 milyon kubmetr təbii qazın qənaətinə və 200 min ton karbon emissiyasının atmosferə atılmasının qarşısının alınmasına imkan verir. Qeyd edək ki, "Masdar" şirkəti tərəfindən icra olunan "Meqa" layihəsi çərçivəsində 445 MVt gücündə GES Biləsuvar rayonunda və 315 MVt gücündə GES Neftçala rayonunda tikilir. "Biləsuvar" GES-də ilk günəş paneli 2025-ci il oktyabrın 2-də quraşdırılıb.

Paytaxta yaxın Xızı-Abşeron Külək-Elektrik Stansiyası (KES) Səudiyyə Ərəbistanının "ACWA Power" şirkəti tərəfindən pilot layihə kimi inşa edilir. 240 MVt gücündə olan stansiyanın ildə təxminən 1 milyard kVt/s "yaşıl elektrik" istehsal edəcəyi gözlənilir. Bu isə həm təbii resursların qorunmasına, həm də karbon emissiyasının azalmasına mühüm töhfə verəcək.

Ötən il azad edilmiş ərazilərin "yaşıl enerji" zonası kimi inkişafı diqqət mərkəzində oldu. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerji mənbələri üzrə aparılan qiymətləndirmələr, yeni stansiyaların layihələndirilməsi və infrastrukturun qurulması ilin mühüm nəticələri sırasındadır. Bu yanaşma təkcə enerji istehsalını artırmaq deyil, eyni zamanda regionun dayanıqlı məskunlaşmasına və ekoloji tarazlığın qorunmasına xidmət edir. Eyni zamanda mövcud enerji sistemində bərpaolunan mənbələrin payının artırılması istiqamətində praktiki addımlar atıldı. Ötən il elektrik şəbəkəsinə yeni güclərin inteqrasiyası, enerji itkilərinin azaldılması və müasir texnologiyaların tətbiqi bu sahədə ortaya çıxan problemlərin mərhələli həlli üçün zəruri əsasların formalaşdırılması kimi dəyərləndirilir.

Bu çərçivədə regionda konkret layihələrin icrası da diqqət çəkir. Onlardan ən mühümlərindən biri isə Cəbrayıl rayonunda inşa olunan 240 MVt gücündə "Şəfəq" Günəş- Elektrik Stansiyasıdır. Layihə BP şirkəti ilə əməkdaşlıq çərçivəsində həyata keçirilir. "Virtual enerji ötürülməsi" modeli sayəsində stansiyada istehsal olunan enerji Cəbrayılda "Azərenerji" ASC-yə, oradan isə ekvivalent miqdarda elektrik enerjisi Bakıda Səngəçal terminalına ötürüləcək. Bu yanaşma terminal əməliyyatlarından yaranan emissiyaların təxminən 50 faizinin azaldılmasına imkan verəcək. Layihənin illik istehsalı təxminən 500 milyon kVt/s elektrik enerjisi təşkil edəcək ki, bu da 120-150 milyon kubmetr təbii qazın qənaətinə və 260-330 min ton karbon emissiyasının azalmasına gətirib çıxaracaq.

Azərbaycan ötən il yalnız strateji hədəflərini müəyyənləşdirməklə kifayətlənməyib, həm də "yaşıl enerji" sahəsində konkret nəticələrə nail olub. Bu istiqamətdə aparılan işlər ölkənin enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, ekoloji tarazlığın qorunmasına və regional dayanıqlı inkişafın təşviqinə xidmət edir. Mütəxəssislərin fikrincə, bərpaolunan enerji layihələrinin genişlənməsi ölkənin enerji təhlükəsizliyini möhkəmləndirməklə yanaşı, ixrac potensialının artırılmasına da şərait yaradır. Xüsusilə Avropa bazarlarında "yaşıl enerji"yə artan tələbat fonunda Azərbaycanın bu sahədə regional oyunçuya çevrilməsi real perspektiv kimi qiymətləndirilir.

Ötən ilin nəticələrinə söykənərək deyə bilərik ki, Azərbaycan enerji sektorunda "yaşıl enerji" sahəsinə xüsusi diqqət ayırır. Günəş və külək-elektrik stansiyalarının istifadəyə verilməsi, pilot layihələrin icrası və beynəlxalq tərəfdaşlıqlar ölkənin "yaşıl enerji" potensialını reallaşdırmaq yolunda mühüm addımlar kimi qiymətləndirilir. Bu inkişaf təkcə enerji istehsalını artırmır, həm də ekoloji tarazlığı qoruyur, təbii resurslardan səmərəli istifadəyə şərait yaradır və karbon emissiyasının azalmasına töhfə verir. Qarşıdakı illərdə bərpaolunan enerji layihələrinin genişlənməsi ilə Azərbaycan regional enerji oyunçusu kimi mövqeyini daha çox möhkəmləndirəcək və "yaşıl enerji" istiqamətində strateji hədəflərinə yaxınlaşacaq.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Avropa İttifaqı Zəngəzur dəhlizinə dəstək vermək istəyir




**Zəngəzur dəhlizinin (TRIPP) açılmaması üçün bir neçə il siyasi maneələrin olması sirr deyil. Layihənin reallaşmasına Ermənistandakı revanşistlərlə yanaşı, bəzi region ölkələri də əngəl törədirdi. Lakin onların bu cəhdləri Prezident İlham Əliyevin diplomatik gedişləri qarşısında aciz idi.**

Əslində, ölkəmiz Ermənistandan çox şey yox, yalnız 10 noyabr 2020-ci il tarixli Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli Bəyanatın 9-cu maddəsinin yerinə yetirilməsini tələb edirdi. Və ona görə də Azərbaycanın göstərdiyi diplomatik təzyiqlər bəhrəsini verməyə bilməzdi. Ötən il avqustun 8-də ABŞ-nin şahidliyi ilə Ermənistanla Azərbaycan arasında Zəngəzur dəhlizinin (TRIPP) açılması barədə razılıq əldə olundu. Bu sənəd tarixə həm də Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu (TRIPP) kimi düşdü. ABŞ-nin zəmanətindən sonra adlarını çəkmədiyimiz region ölkələri də mövqelərindən əl çəkdi. Hətta Avropa İttifaqı daşı ətəyindən töküb Azərbaycanla əməkdaşlıq təşəbbüsü ilə çıxış etdi.

Bununla bağlı Cenevrə Təhlükəsizlik Siyasəti Mərkəzinin (GCSP) məqaləsində qeyd olunur ki, TRIPP-ın səmərəliliyinin və rəqabət qabiliyyətinin artırılmasında rəqəmsal transformasiya əsas rol oynayır: "Avropa Dəmir Yolu Hərəkətinin İdarəetmə Sistemi (ERTMS) üzrə təcrübəsinə əsaslanaraq Brüssel Ermənistan və Azərbaycanın rəsmi müraciəti əsasında rəqəmsal gömrük və tranzit platformalarının hazırlanması, həmçinin tətbiqinə dəstək verə bilər. Məqsəd məlumatların fasiləsiz elektron mübadiləsini, kağızsız sənəd dövriyyəsini və yüklərin real vaxt rejimində izlənilməsini təmin edən sistemlərin qurulmasından gedir".

Məqalə müəllifinin fikrincə, standartlaşdırılmış gömrük kodlarının, elektron plomb sistemlərinin və radiotezlik identifikasiyası (RFID) daxil olmaqla intellektual logistika texnologiyalarının tətbiqinə dəstək TRIPP-ın əməliyyat sistemlərini TRASEKA (Avropa-Qafqaz-Asiya Nəqliyyat Dəhlizi) və Avropa rəqəmsal standartlarına uyğunlaşdırmağa imkan verər: "Belə olarsa, Ermənistan və Azərbaycanın rəsmi müraciəti şərti ilə Aİ-nin inteqrə olunmuş sərhəd idarəçiliyi üzrə potensialın artırılması proqramları gömrük və sərhəd xidmətlərinin peşəkar səviyyəsini yüksəldə, gecikmələri azalda və marşrut boyunca hüquqi və prosedur uyğunlaşmanı gücləndirə bilər. Bu da tranzit yüklərin mənzil başına tez çatdırılmasını təmin edə bilər. Bu əməkdaşlıq Aİ-nin Azərbaycan, Ermənistan, Türkiyə və Gürcüstan arasında texniki koordinasiya platformasının yaradılmasının maliyyələşdirilməsində iştirakına da zəmin yarada bilər. Platformanın Aİ və ABŞ-nin həmsədrliyi ilə fəaliyyət göstərməsi də mümkün sayılır. Belə bir platforma tənzimləmələrin uyğunlaşdırılmasına, texniki standartların sinxronlaşdırılmasına və məlumat mübadiləsinin sadələşdirilməsinə töhfə verə bilər. Transmilli dəhlizlərin idarə olunması üzrə təcrübəsindən istifadə edərək Aİ real vaxt rejimində məlumat mübadiləsi sistemlərinin, rəqəmsal monitorinq panellərinin və yük axınlarının izlənməsi alətlərinin yaradılmasına dəstək göstərə, dar boğazların müəyyənləşdirilməsinə və infrastrukturun texniki xidmətinin əlaqələndirilməsinə kömək edə bilər".

Müəllif həmçinin bildirir ki, Aİ iştirakçı dövlətlərə beynəlxalq nəqliyyat konvensiyalarına və Avropa praktikasına uyğun olaraq hökumətlərarası tranzit sazişlərinin hazırlanması və yenilənməsi prosesində hüquqi məsləhət dəstəyi göstərə bilər. Bunun üçün məlumatlara əsaslanan qərarların qəbulunu dəstəkləmək məqsədilə qonşu ölkələrdən olan ekspertlərin iştirakı ilə birgə tədqiqat platformasının və ya akademik konsorsiumun yaradılması təklif olunur.

Məqalədə Ermənistan tərəfindən ərazilərimizin minalarla çirklənməsi probleminə də diqqət yetirilir. Bildirilir ki, bu amil bərpa və inkişaf üçün ən ciddi maneələrdən biri olaraq qalır, kənd təsərrüfatı torpaqlarına çıxışı məhdudlaşdırır, tikinti işlərini gecikdirir, həmçinin Ermənistanla Azərbaycan arasında ticarət marşrutlarını pozur. Bu baxımdan müəllif minatəmizləmə proqramlarının maliyyələşdirilməsinin genişləndirilməsini, o cümlədən mina aşkarlayan dronların, xüsusi texnikanın və avadanlıqların təmin edilməsini, xəritələşdirmə və məlumatların idarə olunması sistemlərinin inkişafını, yerli komandaların hazırlanması və sertifikatlaşdırılmasını təklif edir. Davamlı dəstək mexanizmi kimi "Team Europe" təşəbbüsü çərçivəsində çoxillik maliyyələşdirmə çərçivəsinin yaradılması tövsiyə olunur.

Müəllifin fikrincə, Aİ TRIPP layihəsinə Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərinin həyata keçirilməsində tətbiq edilən strateji baxışla yanaşmalıdır: "1990-cı illərdə Azərbaycanın məhdud maliyyə imkanlarına baxmayaraq, Aİ, ABŞ və beynəlxalq şirkətlərin siyasi dəstəyi və investisiyaları bu layihəni mümkün etdi, ölkənin müstəqilliyini möhkəmləndirdi və Azərbaycan, Gürcüstan və Türkiyə arasında regional əməkdaşlığı gücləndirdi".

GCSP hesab edir ki, eyni yanaşma bu gün TRIPP üçün də zəruridir. Müəllif hesab edir ki, Aİ və ABŞ tərəfindən davamlı siyasi, texniki və iqtisadi dəstək ticarət və nəqliyyat marşrutlarının şaxələndirilməsinə, regional qarşılıqlı əlaqənin güclənməsinə və Cənubi Qafqazda və Xəzər regionunda gələcək strateji infrastruktur layihələri üçün zəminin formalaşmasına töhfə verə bilər.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Qarabağ və Şərqi Zəngəzurun iqtisadi potensialının reallaşdırılması dövlətin əsas prioritetidir

**"2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir. Əminəm ki, qarşıdan gələn 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, ölkə qarşısında duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcəkdir".**

Prezident İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində səsləndirdiyi bu fikirlər ötən ilin yekunlarını ümumiləşdirməklə yanaşı, ölkəmizin gələcək inkişaf istiqamətlərini də aydın şəkildə ortaya qoyur. Geridə qalan il Azərbaycanın müstəqil dövlət kimi möhkəmlənməsi, daxili sabitliyin qorunması və strateji hədəflərə doğru ardıcıl addımlarla yadda qalıb. Əldə olunan bütün uğurların mərkəzində isə xalqla dövlət arasında formalaşmış sarsılmaz birlik dayanır.

Azərbaycan son illərdə tarixinin ən məsuliyyətli və eyni zamanda ən qürurverici mərhələsini yaşayır. Otuz ilə yaxın davam etmiş erməni işğalına son qoyulması yalnız hərbi qələbə deyil, milli iradənin və tarixi ədalətin bərpası kimi qiymətləndirilir. Ölkəmiz ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə yanaşı, beynəlxalq hüququn aliliyini də praktik müstəvidə təsdiqlədi. Bu Zəfər Azərbaycan xalqının öz gücünə, dövlətinin siyasi iradəsinə olan inamını daha da möhkəmləndirdi.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur bu gün yeni inkişaf mərhələsinə qədəm qoyur. Uzun illər vandallığa məruz qalmış bu torpaqlarda genişmiqyaslı bərpa və quruculuq işləri aparılır. Regionun iqtisadi potensialının reallaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Kənd təsərrüfatı ənənələrinin bərpası, xüsusilə üzümçülük, pambıqçılıq, tütünçülük, heyvandarlıq və bağçılıq sahələrinin inkişafı bölgənin iqtisadi dövriyyəyə sürətlə qoşulmasına şərait yaradır.

Bununla yanaşı, sənaye zonalarının yaradılması, logistika mərkəzlərinin formalaşdırılması və müasir infrastrukturun qurulması yeni iş yerlərinin açılmasına və məşğulluğun artmasına imkan verir. Qarabağ və Şərqi Zəngəzur təkcə kənd təsərrüfatı deyil, sənaye və nəqliyyat baxımından da perspektivli region kimi formalaşır. Bu yanaşma Azərbaycanın ümumi iqtisadi strategiyasına uyğun olaraq dayanıqlı və balanslı inkişaf modelini təmin edir.

"Böyük qayıdış" proqramı azad edilmiş ərazilərə həyatın qaytarılmasında əsas rol oynayır. Bu proqram çərçivəsində keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və mərhələli şəkildə qayıdışı təmin edilir. Prezident İlham Əliyevin azad edilmiş ərazilərə mütəmadi səfərləri, aparılan işlərə yerində nəzarəti və sakinlərlə birbaşa ünsiyyəti Böyük qayıdışın







insan mərkəzli siyasət olduğunu bir daha təsdiqləyir.

Böyük qayıdış yalnız evlərin tikintisi ilə məhdudlaşmır. Köçürülən ailələr üçün sosial xidmətlər, təhsil və səhiyyə müəssisələri, məşğulluq imkanları və psixoloji adaptasiya mexanizmləri yaradılır. Bu yanaşma insanların bölgədə uzunmüddətli və sabit həyat qurmasına zəmin yaradır. 2022-2026-cı illəri əhatə edən sosial-iqtisadi inkişaf strategiyası və "Böyük Qayıdışa dair I Dövlət Proqramı" ölkənin inkişafına dair yol xəritəsini müəyyən edir. Bu sənədlər beş milli prioritet əsasında icra olunur və iqtisadiyyatın xarici təsirlərə qarşı dayanıqlılığını gücləndirib.

İnvestisiya mühitinin yaxşılaşdırılması, rəqəmsallaşma və insan kapitalının inkişafı bu uğurların əsas dayaqlarıdır. Eyni zamanda işğaldan azad edilmiş ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası ölkənin ümumi sosial-iqtisadi inkişafında mühüm rol oynayır. Uzun illər düşmən əsarətində olan torpaqlar artıq Azərbaycanın inkişaf dinamikasının ayrılmaz hissəsinə çevrilib.

Ötən il Böyük qayıdış prosesində də mühüm mərhələ kimi yadda qalıb. 2025-ci il ərzində Qarabağ və Şərqi Zəngəzurda köç prosesi daha da intensivləşərək yeni yaşayış məntəqələrini əhatə edib. Təkcə son 12 ay ərzində 22 yeni yaşayış məntəqəsinə - 2 şəhər, 3 qəsəbə və 17 kəndə köç olub, Kəlbəcər və Ağdam şəhərləri, Qırmızı Bazar və Hadrut qəsəbələri, Ağdərə rayonunun Həsənriz, Suqovuşan, Kolatağ, Vəngli, Ağdam rayonunun Sarıcalı, Kəngərli, Laçın rayonunun Bəylik, Ağdam rayonunun Xıdırlı, Cəbrayıl rayonunun Horovlu, Xankəndi şəhərinin Kərkicahan, Zəngilan rayonunun Məmmədbəyli, Xocavənd rayonunun Sos, Xocalı rayonunun Xanyurdu, Təzəbinə, Şuşakənd, Badara, Seyidbəyli, Daşbulaq kəndləri ilk sakinlərinə qovuşub. 2025-ci ildə bu yaşayış məntəqələrinə 3127 ailə, 12494 nəfər qayıdıb.

Bu gün genişmiqyaslı quruculuq işlərinin aparıldığı Qarabağ və Şərqi Zəngəzurda 7 şəhər, 3 qəsəbə və 22 kənd köç karvanlarını qarşılayıb. Artıq 6465 ailə, 25417 nəfər doğma yurdunda məskunlaşıb. Prezident İlham Əliyev bildirib ki, "Böyük qayıdış" poqramı uğurla icra edilir: "İşğaldan azad edilmiş ərazilərdə bu gün böyük quruculuq işləri aparılır və artıq 70 minə yaxın insan orada yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır".

Böyük qayıdışın birinci mərhələsi başa çatana qədər Qarabağ və Şərqi Zəngəzura 140 min nəfərin - 34 min 500 ailənin köçürülməsi planlaşdırılır. Qarşıdakı mərhələlərdə isə daha çox vətəndaşın bu ərazilərə köçürülməsi nəzərdə tutulur. Azərbaycan qarşıdakı illərdə daha mürəkkəb çağırışların və zəngin imkanların mövcudluğu ilə seçilən yeni mərhələyə daxil olur. Artıq 2027-2030-cu illəri əhatə edəcək yeni strategiya və "Böyük Qayıdışa dair II Dövlət Proqramı" hazırlanır. Bütün bu proseslər Azərbaycanın öz daxili resursları hesabına həyata keçirilir ki, bu da ölkənin iqtisadi gücünü və müstəqil siyasətini nümayiş etdirir.

Qarabağ və Şərqi Zəngəzurda yaradılan yeni yol-nəqliyyat infrastrukturu, hava limanları və müasir kommunikasiya xətləri regionun gələcək inkişaf perspektivlərini daha da genişləndirir. Bu ərazilərin yaxın illərdə Cənubi Qafqazın mühüm iqtisadi və logistika mərkəzlərindən birinə çevriləcəyi artıq real görünür. Bu gün Qarabağ və Şərqi Zəngəzurda müşahidə olunan mənzərə Azərbaycanın müasir tarixində yeni bir mərhələnin başlanğıcını ifadə edir. Bu mərhələ qələbənin quruculuqla, keçmişin ağrılarının isə gələcəyə inamla əvəz olunduğu dövrdür. Azad edilmiş torpaqlarda yenidən formalaşan həyat, qurulan şəhərlər və kəndlər, yaradılan sosial-iqtisadi imkanlar dövlətin gücünü və xalqın birliyini aydın şəkildə nümayiş etdirir. Qarabağ bu gün təkcə tariximizin şanlı səhifəsi deyil, həm də Azərbaycanın davamlı inkişaf yolunda irəlilədiyini təsdiqləyən canlı nümunəyə çevrilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Çindən Orta dəhliz vasitəsilə ilin ilk qatarı Azərbaycana doğru yola düşüb

**"Çin Enerji İnşaat Korporasiyası"na ("China Energy Engineering Group") məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik Çin-Avropa yük qatarı Sian şəhərindən yola düşüb.**




AZƏRTAC xəbər verir ki, bu, 2026-cı ildə Çindən Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutu və ya Orta dəhliz vasitəsilə yola düşən ilk qatardır. Yanvarın 1-də yola çıxan qatar Horqos sərhəd-buraxılış məntəqəsindən Qazaxıstana keçərək Xəzər dənizi vasitəsilə yekunda Bakıya çatacaq.

Fotovoltaik modulların Bakıya operativ çatdırılması Sian şəhərinin Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizinin quruculuğunda fəal iştirakı, habelə dəhlizin üzv tərəfdaşları ilə birgə xərclərin azaldılması və səmərəliliyin artırılması istiqamətində görülən ardıcıl tədbirlər sayəsində mümkün olub. Hazırda Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizi üzrə qatarların hərəkəti daha da intensivləşib, daşınma müddəti isə 15-23 gündən təxminən 11 günədək qısalıb.

Çin-Avropa yük qatarının (Sian) Trans-Xəzər xətti 2019-cu ilin oktyabrında ilk dəfə istifadəyə verilib, 2025-ci il noyabrın sonunadək bu marşrut üzrə ümumilikdə 466 qatar reysi həyata keçirilib.

## Gökalp ŞENTÜRK: "Zəngəzur dəhlizi türk dünyasının şah damarıdır"

**"Zəngəzur dəhlizi sadəcə nəqliyyat yolu deyil, türk dünyasının şah damarlarından biridir. Bakıdan Qarsa qədər uzanan bu yol təkcə qatarların və yük maşınlarının deyil, həm də tarixin, taleyin və qardaşlığın keçəcəyi bir yoldur. Bu gün Azərbaycanı Naxçıvanla, Naxçıvanı Türkiyə ilə və Türkiyəni Orta Asiya ilə birləşdirən bu dəhliz türk dünyasının yenidən birləşmək iradəsidir".**



Bunu AZƏRTAC-a açıqlamasında türkiyəli strategiya üzrə ekspert Gökalp Şentürk bildirib.

Onun sözlərinə görə, Zəngəzur dəhlizi istifadəyə verildikdə Ankara ilə Bakı arasındakı əlaqə faktiki olaraq kəsilməz olacaq.

"Müasir dövrdə ilk dəfə olaraq türk dünyası vahid iqtisadi və strateji xəttə çevriləcək. Buna görə də Zəngəzur sadəcə bir yol deyil, geosiyasi inqilabdır. Türkiyə artıq yalnız Avropa ilə Asiya arasında yerləşməyəcək, əksinə, türk dünyasının mərkəzində olacaq. Bu dəhliz sayəsində Türkiyə malları Çinə və Orta Asiyaya, Orta Asiyanın enerji və xammal ehtiyatları Türkiyə vasitəsilə Aralıq dənizinə və Avropaya çatacaq. Başqa sözlə, Türkiyə qlobal ticarətin əsas qapısına çevriləcək. Azərbaycanda türk dünyasının logistika mərkəzi olacaq", - deyə Gökalp Şentürk vurğulayıb.

Gökalp Şentürk qeyd edib ki, bu dəhliz sadəcə iqtisadi qazanc deyil, türk millətinin dünyada çəkisinin artmasıdır: "Bu dəhliz birbaşa Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Anadolunu birləşdirəcək. Bu o deməkdir ki, Türk dünyası artıq sadəcə mədəni deyil, logistik, iqtisadi və strateji baxımdan vahid bir quruma çevriləcək".

## "Yeni Şafak" qəzeti: "Zəngəzur dəhlizinin açılması bütün region üçün dönüş nöqtəsi olacaq"

**"Zəngəzur dəhlizinin açılması Türkiyə və bütün region üçün strateji dönüş nöqtəsi olacaq. Bu marşrutun açılması təkcə nəqliyyat və ticarətə deyil, həm də iqtisadi əməkdaşlığın bütün spektrinə güclü təkan verəcək, enerji təchizatını stimullaşdıracaq və regional sabitliyə töhfə olacaq".**




AZƏRTAC xəbər verir ki, bu barədə türkiyəli ekspert Fatma Demirçioğlu Parların yanvarın 5-də "Yeni Şafak" qəzetində dərc olunmuş məqaləsində deyilir.

Ekspert qeyd edir ki, Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbəsindən sonra Zəngəzur dəhlizi məsələsi beynəlxalq gündəmdə strateji cəhətdən əhəmiyyətli bir məsələyə çevrilib.

Məqalənin müəllifi bir əsrdən çox əvvəl Azərbaycanın Zəngəzur bölgəsinin bir hissəsinin ədalətsiz şəkildə Ermənistana verildiyini də xatırladıb.

Parlar vurğulayıb ki, bu gün rəsmi Ankara Bakı ilə birlikdə ölkəmizin qərb bölgələri ilə Naxçıvan Muxtar Respublikası arasında əlaqəni bərpa etmək üçün fəal səy göstərir.

Məqalədə Azərbaycanın 44 günlük müharibədəki Qələbəsi təkcə Cənubi Qafqaz regionu üçün deyil, həm də qlobal əhəmiyyətli bir prosesin başlanğıcı kimi qiymətləndirilir.

Müəllif daha sonra dövlət başçıları Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb bölgələri arasında əlaqənin bərpasına şəxsi töhfələrindən bəhs edərək, həmçinin Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayıb.

"Son dörd ildə Zəngəzur dəhlizinin Azərbaycan hissəsinin tikintisi əsasən başa çatıb, 123,6 kilometrlik avtomobil yolunun 95 faizi hazırdır. Bu yol Naxçıvanla Azərbaycanın digər bölgələri arasında əlaqə üçün çox vacibdir. Bundan əlavə, Horadizdən Ağbəndə qədər təxminən 110 kilometrlik dəmir yolunun tikintisi davam edir. Bu dəmir yolu Zəngəzur dəhlizinə inteqrasiya olunacaq və Ermənistandan Naxçıvana və daha sonra Türkiyəyə marşrut açacaq", - deyə məqalədə bildirilir.

Müəllif xüsusi olaraq Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşünə diqqət yetirib. Görüşdə Zəngəzur dəhlizinin Ermənistan sərhədləri daxilində 42 kilometrlik hissəsinin açılması barədə razılığa gəlinib və bu hissə Amerika şirkəti tərəfindən idarə olunacaq.

Parlar həmçinin Qarsdan Naxçıvan sərhədinə qədər yeni dəmir yolu xəttinə xüsusi tələbatın olduğunu qeyd edib. Bu dəmir yolunun təməlqoyma mərasimi 22 avqust 2025-ci il tarixində Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlunun iştirakı ilə keçirilib. "Yeni dəmir yolu 4-5 il ərzində istifadəyə veriləcək və Şərqi Anadolunu Zəngəzur dəhlizinin əsas halqasına çevirəcək. Yeni marşrutun illik tutumu təxminən 5,5 milyon sərnişin və 15 milyon ton yük olacaq ki, bu da həm Türkiyənin, həm də türk dünyasının iqtisadi inkişafına töhfə verəcək. Nəticədə əməkdaşlıq üçün yeni imkanlar yaranacaq", - deyə ekspert bildirib.

Məqalənin müəllifi fikirlərini yekunlaşdıraraq bildirir ki, Zəngəzur dəhlizinin açılması Naxçıvanı və Türkiyənin İğdır vilayətini Çini Avropa ilə birləşdirən Orta dəhlizin iki strateji nöqtəsinə çevirəcək.




*Fotolar İlham BABAYEVİNDİR*


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıdakı göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR!
AZƏRBAYCAN
Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün müəllifi
Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni illə bağlı paylaşım edib
Əcəmi Naxçıvaninin 900 illiyinin qeyd edilməsi haqqında
Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
İdmanın inkişafı dövlət siyasətinin prioritetidir
Milli irs və müasirliyin vəhdəti

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# *2025-ci il necə xatırlanacaq:* dünyanın əsas hadisələri

**Yola saldığımız 2025-ci il dünyada müxtəlif hadisələrlə yadda qaldı. Beynəxalq media ötən ilin 12 əsas dünya hadisəsini araşdırıb. Onların sırasında Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Vaşinqtonda keçirilmiş görüşünün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması da var.**



### Yanvar: ilin qayıdışı

Yanvarın 20-də Vaşinqtonda ABŞ-nin 47-ci Prezidenti Donald Trampın andiçmə mərasimi keçirildi. Bu, Trampın ikinci prezidentlik müddəti idi. O, andiçmə çıxışında ABŞ-ni dünyada birinci yerə çıxaracağına, amerikalıları böyük və güclü bir millətə çevirəcəyinə və bir sıra tarixi icra sərəncamları imzalayacağına söz verdi.

"Amerikanın qızıl dövrü indi başlayır. Ölkəmiz dünyanın qalan hissəsinin həsədinə səbəb olacaq şəkildə çiçəklənəcək", - deyə Tramp bəyan etdi.

### Fevral: diplomatik fəlakət

Bütün dünya fevralın 28-də Ağ Evdə baş verən hadisədən sonra ABŞ-Ukrayna münasibətlərinin necə inkişaf edəcəyini maraqla və həyəcanla izləyirdi. Ukrayna Prezidenti Volodimir Zelenski, ABŞ Prezidenti Donald Tramp və vitse-prezident Cey Di Vens arasında canlı yayımlanan görüş qızğın mübahisəyə çevrildi.

Dövlət başçılarının ABŞ-yə Ukraynada nadir torpaq metallarının hasilatına icazə verən razılığa gəlməsi gözlənilirdi. Lakin qalmaqal baş verdi və danışıqlar mübahisəyə çevrildi. Tramp Zelenskini hörmətsizlikdə, ABŞ-yə qarşı minnətdarlıq etməməkdə və müharibəni bitirmək istəməməkdə günahlandırdı. Nəticədə razılaşma olmadı.

### Mart: ilin faciəsi

Martın 28-də səhər Myanmada 7,7 bal gücündə dağıdıcı zəlzələ baş verdi. Bu, son 80 ilin ən güclü zəlzələsi idi. İlkin zəlzələdən sonra 12 afterşok qeydə alındı. Tailand və bir neçə qonşu ölkənin sakinləri yeraltı təkanların təsirini hiss etdilər. Banqkokda tikilməkdə olan 30 mərtəbəli bina uçdu.

Zəlzələ nəticəsində Myanmada ən azı 5300, Tailandda isə 36 nəfər həlak oldu, 7000-dən çox insan yaralandı.

### Aprel: ticarət müharibəsi

Aprelin 2-də Prezident Donald Tramp ABŞ-nin Avropa İttifaqından idxal edilən mallara 20, Çindən idxal edilən mallara isə 34 faiz tarif tətbiq edəcəyini açıqladı. ABŞ administrasiyasının idxalına tarif tətbiq etdiyi ölkələrin siyahısında Böyük Britaniya, Yaponiya, Çin, Ukrayna və Aİ də daxil olmaqla 185 ölkə var idi. Lakin Rusiya və Belarus orada yer almamışdı. Amerika lideri daha sonra bir neçə ölkə üçün tarif dərəcələrini tənzimlədi.

"Biz Amerikanı yenidən böyük və varlı edəcəyik. Ölkəmiz 50 ildən çoxdur ki, qarət edilir. Bu, bir daha baş verməyəcək", - deyə Tramp bildirdi.

Dekabr ayında ölkənin Gömrük və Sərhəd Mühafizəsi ABŞ-nin daha yüksək idxal rüsumlarının tətbiqindən 200 milyard dollar topladığını bildirdi.

### May: amerikalı ilk Papa

Aprel ayında Vatikana 12 il rəhbərlik etmiş Papa Fransisk 88 yaşında vəfat etdi. May ayında isə amerikalı 69 yaşlı kardinal Robert Prevost Roma Katolik Kilsəsinin yeni rəhbəri seçildi. O, amerikalı ilk Papa oldu və XIV Leo adını aldı.

### İyun: ilin hücumu

İsrail İranın nüvə və raket infrastrukturuna genişmiqyaslı hücum etdi. Hücumlar nəticəsində İslam İnqilabı Keşikçiləri Korpusunun rəhbəri də daxil olmaqla bir neçə yüksəkrütbəli general və nüvə alimi həlak oldu. İran İsrailə dronlar və ballistik raketlərlə cavab verdi.

### İyul: ilin ultimatumu

İyulun 2-də İran Prezidenti Məsud Pezeşkian ölkəsinin Beynəlxalq Atom Enerjisi Agentliyi (MAQATE) ilə əməkdaşlığını dayandıran qanun imzaladı. Tehran müfəttişlərin ölkəyə yalnız MAQATE-nin ABŞ və İsrailin İranın nüvə obyektlərinə hücumlarını pisləməsindən sonra daxil olacağını bildirdi. İranın nüvə obyektlərinin və nüvə alimlərinin təhlükəsizliyinin təmin edilməsi əməkdaşlığın bərpası üçün şərt kimi göstərildi.

### Avqust: ilin danışıqları

Avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişi layihəsinin mətni paraflandı. Azərbaycan Prezidenti İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidentinin və Ermənistan Respublikasının Baş nazirinin Vaşinqtonda keçirilmiş görüşünə dair Birgə Bəyannaməni imzaladılar.

Avqustda mühüm siyasi hadisələrdən biri də Rusiya və ABŞ prezidentləri arasındakı görüş oldu. Vladimir Putin və Donald Tramp Alyaskanın Ankoric şəhərindəki Elmendorf-Riçardson Hərbi Hava Qüvvələri Bazasında üçsaatlıq görüş keçirdilər. Görüşdə əsas mövzu Ukraynadakı vəziyyət idi.

### Sentyabr: "Z nəsli inqilabı"

Nepal hökuməti sentyabrın 4-dən etibarən ölkədə "Vatsap", "Feysbuk" və "İnstaqram"a girişi tamamilə məhdudlaşdırdı. Bu, Nepalda kütləvi etirazlarla nəticələndi. Gənclər hökumətlərinin bu qərarından məmnun deyildilər.

"Z nəsli inqilabı" adlandırılan etiraz aksiyası minlərlə iştirakçını cəlb etdi. Sentyabrın 9-da hökumət sosial mediaya qoyulan qadağanı ləğv etmək qərarına gəldi.

### Oktyabr: Luvr Muzeyində soyğunçuluq

Oktyabrın 19-da Parisdəki Luvr Muzeyində soyğunçuluq hadisəsi baş verdi. Oğrular Apollon qalereyasına pəncərədən girmiş, iki vitrini sındırmış və 88 milyon avro dəyərində 8 zərgərlik əşyası oğurlamışlar. Bunlar Napoleonun, həyat yoldaşının və varislərinin tac daş-qaşları idi. Şübhəlilər həbs olundu, lakin oğurlanmış əşyalar hələ tapılmayıb.

### Noyabr: ölümcül yanğın

Honkonqdakı Vanq Fuk Kort yaşayış kompleksində baş verən yanğın nəticəsində 161 nəfər həlak oldu, 79 nəfər yaralandı və təxminən 30 nəfər itkin düşdü.

Yanğın 8 binadan 7-sini əhatə etdi və tez bir zamanda xarici hissədəki yanan materiallar vasitəsilə yayıldı. Hadisə yerində 2000-dən çox xilasedicinin çalışdığı 5-ci səviyyəli yanğın kimi təsnif edilən yanğının söndürülməsi 40 saat çəkdi. Vanq Fuk Kort kompleksi 1983-cü ildə inşa edilmiş və təxminən 4600 sakinin yaşadığı 1984 mənzildə yerləşirdi.

### Dekabr: Sidney çimərliyində terror

Xanuka bayramı şənlikləri zamanı Sidneydəki Bondi çimərliyində iki silahlı şəxs atəş açaraq 15 nəfəri öldürdü, 40 nəfəri yaraladı. Şübhəlilər kimi 50 yaşlı Səcid Əkrəm və oğlu 24 yaşlı Nəvid Əkrəm saxlanıldılar. İstintaqa görə, terrorçular yəhudi bayramına hücumu əvvəlcədən planlaşdırıblarmış.

***Hazırladı:***
***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti gəmilərində İp kameralar + NVR xidmətlərinin (material daxil) *satın alınması məqsədilə açıq tender elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 12 yanvar 2026-cı il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi, 2.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1132.

***Tender komissiyası***


# Azərbaycan 2025-ci ildə süni intellektə hazırlıq səviyyəsinə görə ən yüksək irəliləyiş əldə edən ölkə olub

**"Oxford Insights" beynəlxalq tədqiqat mərkəzinin yayımladığı "Hökumətin Süni İntellektə Hazırlıq İndeksi" (Government AI Readiness Index 2025) hesabatına əsasən, Azərbaycan süni intellektə hazırlıq səviyyəsinə görə mühüm irəliləyiş əldə edib. Ölkəmiz bir il ərzində 111-ci yerdən 70-ci yerə yüksəlib. Beləliklə, Azərbaycan 2025-ci ildə ən sürətli irəliləyişə nail olaraq illik müqayisədə ən böyük artım qeydə alınan ölkədir.**




AZƏRTAC xəbər verir ki, hesabata əsasən, Azərbaycanın ümumi balı 48,96 təşkil edib ki, bu da Cənubi və Mərkəzi Asiya regionu üzrə orta göstərici hesab olunan 41,4 balı üstələyir. Müqayisə üçün qeyd edək ki, 2024-cü ildə bu göstərici 39,92 olub. Eyni zamanda Azərbaycan Cənubi Qafqaz ölkələri arasında ən yüksək nəticə göstərib.

Bu nəticə Azərbaycanın dövlət idarəçiliyində rəqəmsallaşma proseslərinin sürətləndirilməsi, süni intellekt texnologiyalarının tətbiqi, rəqəmsal infrastrukturun gücləndirilməsi və innovasiya ekosisteminin inkişafı istiqamətində atdığı ardıcıl addımların göstəricisidir.

Hesabatda qeyd olunur ki, Cənubi və Mərkəzi Asiya ölkələri e-hökumət xidmətlərinin genişləndirilməsi, hesablama gücünün artırılması, yerli innovasiya mühitinin formalaşdırılması və insan kapitalına yatırımlar hesabına süni intellektə hazırlıq səviyyəsini gücləndirir. Azərbaycanın qlobal reytinqdə sürətli yüksəlişi də bu regional tendensiyanın mühüm nümunələrindən biri kimi dəyərləndirilir.

Eyni zamanda vurğulanır ki, dövlət sektorunda süni intellekt texnologiyalarının tətbiqi, rəqəmsal infrastrukturun inkişafı və innovasiya ekosistemlərinin gücləndirilməsi region ölkələrinin irəliləyişinə təkan verən əsas amillərdir. Azərbaycanın regional sıralamada ön mövqelərdən birində yer alması bu ümumi inkişaf xəttinin bariz göstəricisi hesab olunur.

Bu kontekstdə AZCON Holding şirkətlərindən olan Milli Süni İntellekt Mərkəzinin fəaliyyətinin genişləndirilməsi, dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, insan kapitalının inkişafı və milli süni intellekt (Sİ) platformalarının formalaşdırılması istiqamətində görülən işlər ölkənin süni intellekt üzrə institusional potensialının möhkəmlənməsinə töhfə verir.

Belə ki, "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" çərçivəsində süni intellektin dövlət idarəçiliyində tətbiqi, data əsaslı qərarvermə, Sİ infrastrukturunun inkişafı və sektorlar üzrə Sİ transformasiyası əsas prioritetlər kimi müəyyən edilib. Bu strateji yanaşma Azərbaycanın süni intellektə əsaslanan dövlət xidmətlərini genişləndirməyə, innovativ həllərin tətbiqini sürətləndirməyə və qlobal mövqeyini gücləndirməyə imkan yaradır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**İLQAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iqtisadiyyat nazirinin müavini Səməd Bəşirliyə əzizi

**MƏLƏK VƏKİLOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatı rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**İLQAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının rəhbərliyi və kollektivi Nazirlər Kabineti Aparatının rəhbərinin müavini Natiq Məmmədova qardaşı

**İLQAR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Cavanşir Yusifov, oğlu Rüfət, nəvələri Ruslan və Rüstəm Anar Səfərliyə və ailəsinə oğlu

**KAMALIN**

faciəli vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Züleyxa Əliyevaya əmisi

**VAQİF ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin deputatı Bəxtiyar Əliyevə qardaşı

**QABİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Vidadi Yusifli, Əsəd Babayev, Fəxrəddin Şirəliyev, İntiqam Soltan, Gəray Göyyurd, Mahir Sadıxov, Əlövsət Əliyev, Rafiq Hüseynov və Hidayət İsmayılov dostları İsrafil Bəkirova əzizi

**BAHƏDDİN ŞƏMİSTAN OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **2683**
Sifariş **1**

Qiyməti 60 qəpik